--

*İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT*
*ИННОВАЦИОННАЯ ЭКОНОМИКА И МЕНЕДЖМЕНТ*
*INNOVATIVE ECONOMY AND MANAGEMENT*

**№ 2/6**
**GƏNCƏ - 2021**

№ 2/2021

Azərbaycan Texnologiya Universiteti
# « *İnnovasiyalı iqtisadiyyat və menecment* »

***Redaksiya heyəti***

***Baş redaktor***
Süleymanov Akif Şamil oğlu
Texnika elmləri doktoru, professor

***Baş redaktorun birinci müavini***
Ömərov Yaşar Adil oğlu
b.f.d, dosent

***Baş redaktorun müavini***
Əliyev Şakir Hüseynqulu oğlu
t.f.d, dosent

***Məsul katib***
Hümbətov Yusif Əbülfət
i.f.d, dosent

***Redaksiya heyətinin üzvləri***

Səmədzadə Ziyad Əliabbas oğlu
i.e.d.,professorAMEA həqiqi üzvü

Balayev Rəsul Ənvər oğlu
i.e.d.,professor

Ataşov Bəyalı Xanalı oğlu
- i. e.d., professor

Hüseynov Məhərrəm Cəlal oğlu
i.e.d., professor

Vəliyev Vilayət Məmməd oğlu
i.e.d.,professor

Süleymanov Elçin Bəhman oğlu
- i. f.d., dosent

İmanov Nazim Müzəffər oğlu
i.e.d. professor

Məmmədov Zahid Fərrux oğlu
– i.e.d.professor

**Alıyev İsa Hüseyn oğlu**
İ. e.d., professor

Hacıyeva Nüşabə Aslan qızı
i.f.d. dosent

Səbzəliyev Sifariz Mirzəxan,
i.e.d.profesor

Ataşov Bəyalı Xanalı oğlu
- i. e.d., professor

Həsənova Pəri Əmirəhməd qızı
i.e.d., profesor

İmanov Telman İman oglu
i.e.d., professor

Quliyev İlqar Qurban oğlu
xarici dil mütəxəssisi

Kompüter tərtibatçısı: E. İ. İslamova
Korrektor: Z. Ə.Cavadov
Dizayner: A.F. Sadıqova

*İldə iki dəfə çıxır*

Redaksiyanın ünvanı:
AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti, 103
Azərbaycan Texnologiya Universiteti
Tel: +(994-22) 57-56-29, Faks: +(994-22) 57-29-61
*E-mail:* info@uteca.edu.az

© *Azərbaycan Texnologiya Universiteti 2021*

№ 2/2021

**MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ - CONTENTS**

Əlifov V. Y..Kənd təsərrüfatinda ərzaq məhsulları istehsalının stimullaşdirilması.............. 4

Haciyeva N.A., Hüseynova M.R.,Qocayeva Z.B., Məmmədli V. B..Müasir dövrdə marketinqin yeni forma və üsullarından səmərəli istifadə olunması istiqamətləri................ 11

Məmmədova Ü. D., Məmmədov S. D.Məzunların məşğulluğunun artırılmasında "bacarıqlar cüzdanıı" sisteminin tətbiqi: Cənubi Koreyanin timsalında............................... 19

Hacıyeva A. F. Kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsində intensifikasiyanın rolu......................................................................................................... 23

Mirzəyev İ.Ş.Kənd təsərrüfatına maliyyə dəstəyiiqtisadi stimullaşdırma mexanizminin tərkib hissəsi kimi.................................................................................................................. 28

Osmanova G. R.. Kənd təsərrüfatında rəqabətin təmin edilməsi və inhisarçılığın aradan qaldırılması yolları................................................................................................................ 33

Əkbərli T. R. Biznes subyektlərinin maliyyə - iqtisadi təhlükəsizlik siyasətinin hazırlanması.......................................................................................................................... 37

Həmidzadə E. O.Elmtutumlu məhsul istehsalinin formalaşmasi xüsusiyyətləri................... 43

Məmmədov N. N. Dağlıq və dağətəyi bölgələrdə yerləşən ev təsərrüfatlarnın gəlirlərinin artırilması imkanları.......................................................................................................... 48

Hümbətov Y. Ə., Qapaqov V.F.Azərbaycanda Naftalan neftinin müalicə-sağlamlıq turizminin inkişafına təsiri................................................................................................. 57

İsmayılova T.V.Maliyyə potensialı və onun idarə edilməsinin effektivliyi.......................... 62

İdrisli P. H. Kredit resurslarının cəlbediciliyinin təmin olunmasının zəruriliyi.................. 67

Səfərli A. C.Müəssisədə maliyyə risklərinin idarə olunmasına müasir yanaşmaların əsas özəllikləri və üstünlükləri.................................................................................................. 72

**№ 2/2021** **səh.4 - 10**

**UOT.333.13.6**

# KƏND TƏSƏRRÜFATINDA ƏRZAQ MƏHSULLARI İSTEHSALININ STİMULLAŞDIRILMASI

**Əlifov Vüsal Yaqub oğlu**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**Gəncə şəhəri,Atatürk prospekti 450**
**alifovvüsal@qmail.com**

***Xülasə.****Məqalədəkənd təsərrüfatında dövlət tərəfindən innovasiya tətbiqinin stimullaşdırılmasinin istiqamətləri,kənd təsərrüfatının inkişafında istifadə olunau amillər,kənd təsərrufatında ərzaq məhsulları istehsalinin stimullaşdırılmasının metod və vasitələri,inkişaf etmiş ölkələrdə kənd təsərrufatı məhsulları istehsalı üücn həyata kecirilən stimullaşdırıcı tədbirlər,kənd təsərrüfatının inkişafi üücn birləşməsi zəruri olan amillər,kənd təsərrüfatı istehsalının stimullaşdırılması ilə bağlı dövlət dəstəyinin əsas prioritetləri araşdırılır. Eyni zamanda kənd təsərrufatı müəssisələrində dövlət dəstəyinin həyata kecirildiyi sahələr,dövlət dəstəyinin birbaşa və dolayı təsir tədbirləri,dövlət proqramlarının ən vacib vəzifələri,,aqrar sahənin inkişafınıləngidən bir sıra problem və maneələr ,onların aradan qaldırılmasının vacibliyi aciqlanmışdır.*

***Acar sözlər****: innovasiya, stimullaşdırma,komponent,prioritet,dinamik inkişaf,dəstək mexanizmi, vergi krediti.*

Kənd təsərrüfatı, ilk növbədə özünün obyektiv xüsusiyyətlərinə, uzun illər ərzində formalaşan resurs bazasına, ənənəvi və ixtisaslaşmış istehsal sahələrinin mövcudluğuna görə spesifik sahələrdən hesab edilir və cəmiyyətin maddi və sosial rifahının əsasını təşkil edir. Ona görə də kənd təsərrüfatı istehsalının artırılmasının, davamlılığının və səmərəliliyinin təmin edilməsi müasir cəmiyyətin ən vacib vəzifələrindən biridir.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı istehsalının səviyyəsi müxtəlif dalğalanmaların təsirinə məruz qala bilir. Bu baxımdan cəmiyyətin ehtiyaclarını ödəmək üçün lazım olan miqdarda kənd təsərrüfatı istehsalının təmin edilməsinə daim ehtiyac var. Qeyd etmək lazımdır ki, istehsalın zəruri səviyyəsinə müxtəlif səbəblərdən, o cümlədən təbii-iqlim amillərinin məmfi təsiri, resurs potensialından qeyri-səmərəli istifadə edilməsi, istehsal şərtləri və texnologiyasına riayət verilməsi və s. həmişə nail olmaq mümkün olmur. Ona görə aqrar iqtisadiyyatın inkişafı davamlı istehsal və istehlak modellərindən, yeni və ətraf mühitə uyğun texnologiyalardan istifadəni, infrastruktur və logistika şəbəkəsinin inkişafını, enerjidən istifadənin səmərəliliyini və enerji təchizatının yaxşılaşdırılmasını tələb edir. Qeyd edilənlər kənd təsərrüfatı məhsullarının artımına xidmət etməklə rəqabətqabiliyyətli məhsullar istehsalında istifadə oluna biləcək zəruri həcmdə torpaq sahələrinin və əmək ehtiyatları olması, məhsulların ətraf mühitə uyğunluğu və buna imkan verən təşkilati və iqtisadi amillərin mövcudluğu, yüksək keyfiyyətli məhsul istehsalı həcminin artırılması potensialı kimi üstünlülərlə də özünü göstərir.Bütün bunlar kənd təsərrüfatının inkişaf etdirilməsini zərurətə cevirir və bu sahədə istehsalı stimullaşdırmaq üçün dövlət dəstəyinə ehtiyac vardır.

**Mövzunun aktuallıgı.**Dünya təcrübəsi təsdiq edir ki, aqrar sferanın səmərəli fəaliyyəti və inkişafı daha çox təbii resurslardan və digər istehsal amillərindən istifadə edilməsinə, səmərəli dövlət dəstəyinə əsaslanır. Ərzaq probleminin həllində də məhz kənd təsərrüfatı istehsalının artırılması zəruridir. Ərzaq təminatı öz növbəsində əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və ya ərzaq məhsullarının qiymət artımının məhdudlaşdırılması, eləcə də ərzaq bazarının tarazlığının, rəqabət şəraitinin və bazar prosesinin bütün iştirakçılarının zəruri gəlir səviyyəsinin təmin edilməsi, məhsulların kənd təsərrüfatı istehsalçısından son istehlakçıya birbaşa hərəkətinin təmin olunması, minimum maddi, texniki və maliyyə

№ 2/2021 səh.4 - 10

mənbələrinin formalaşdırılması hesabına mümkündür. Bu istiqamətdə istehsalın davamlı təkmilləşdirilməsi və innovativ inkişafının stimullaşdırılması və təşviqi ən mühüm tədbirlərdəndi.

**Tədqiqatın məqsədi.** Kənd təsərrüfatında ərzaq məhsulları istehsalının stimullaşdırılması istiqamətlərini tədqiq etməkdir.

**Tədqiqatın obyekti .**Tədqiqat obyekti ərzaq məhsulları bazarı və ölkənin kənd təsərrüfatı sistemi seçilmişdir

**Tədqiqatın metodları.**Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, balans, məntiqi ümumiləş-dirmə, məqsədli-sistemli yanaşma, iqtisadi-statistik, qruplaşdırma və digər üsullardan istifadə olunmuşdur.

**Materiallar və müzakirələr**

Kənd təsərrüfatında dünyanın elmi-texniki tərəqqi təcrübəsi göstərir ki, bu sahə mühüm yeniliklər potensialına malikdir. Bu baxımdan aqrar sektorda dövlət tərəfindən innovasiya tətbiqinin stimullaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi aqrar siyasətin prioritetlərindən hesab olunur. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalında artım ilk növbədə elmi və texnoloji nailiyyətlərin tətbiqi ilə təmin edilir. Dövlət dəstəyini nəzərədə tutan, xüsusilə də elmi-texniki tərəqqinin strateji istiqamətləri və fundamental tədqiqatlar, habelə elmi-texniki ideyaların yayılması istiqamətində tədbirlər innovativ inkişaf stimullaşdırma siyasətinin ən vacib tərkib hissəsinə çevrilir. Dövlətin stimullaşdırma siyasətinin əsas prinsiplərinə aşağıdakılar daxildir: qiymətlərin tənzimlənməsi, vergi güzəştləri, güzəştli kreditləşmə, dotasiya və subsidiyalar, kənd təsərrüfatı bazarının sabitləşdirilməsi və s.

Araşdırmalara əsaslanaraq kənd təsərrüfatının inkişafında aşağıdakı amillərdən istifadənin xüsusi əhəmiyyətini qeyd etmək olar:

- aqrar-sənaye sahələrinin məqsədyönlü büdcə maliyyələşdirilməsi; aqrar sahənin innovativ əsasda fəaliyyəti üçün təşkilati və iqtisadi mexanizmin formalaşdırılması;
- dövlət qurumlarının yeniliklərin tətbiqinin genişləndirilməsindəki rolunun gücləndirilməsi;
- aqrar-sənaye sferasının kompleks inkişafı üçün innovativ yönümlü proqramların hazırlanması;
- kənd təsərrüfatında istehsalçıların maarifləndirilməsi üçün təlim sisteminin təkmilləşdirilməsi.

Təhlil göstərir ki, aqrar sahənin iqtisadi inkişaf strategiyası, o cümlədən onun əsas hədəfləri, məqsədləri, innovativ proqramlara və layihələrə dəstək mexanizmləri, elmi imkanları səfərbər etməyi nəzərdə tutan dövlətin stimullaşdırma tədbirləri əsasında müəyyən edilir. Bu baxımdan kənd təsərrüfatının texniki və texnoloji modernləşdirilməsinin stimullaşdırlması yolu ilə ayrı-ayrı sahələrin effektiv və dinamik inkişafını təmin etmək mümkündür. Nəzərə alsaq ki, kənd təsərrüfatı ölkənin ərzaq məhsullarına tələbatının böyük qismini ödəyir və ərzaq təminatı sistemində xammal rolunu oynayır, bu baxımdan ərzaq məhsulları istehsalının stimullaşdırılmasının nə qədər aktual olduğunu qeyd edə bilərik.

Kənd təsərrüfatında ərzaq məhsulları istehsalının stimullaşdırılmasının metod və vasitələrinin dəsti kifayət qədər genişdir və müxtəlif ölkələrdəki variantlar spesifik xüsusiyyətlərə malikdir. Aydın məsələdir ki, elm və texnika nailiyyətlərinin tətbiqinin stimullaşdırılması ərzaq məhsulları istehsalı və eləcə də istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi üçün yeni texnologiyaların yaradılması, tətbiqi və yayılmasını əhatə edən proseslərin tərkib hissələrindən biridir.

Akademik Z.Zəmədzadənin fikrincə inkişaf etmiş ölkələr aqrar sahənin texniki səviyyəsinin,əməyin istehsal fondları ilə silahlanmasının yüksəkliyi ilə fərlənirlər ki,bu faktor da əmək məhsuldarlığı, mənfəətlik səviyyəsinin yüksək olmasına ciddi təsir etmiş olur [1.s.271].

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalçıları üçün stimullaşdırıcı tədbirlərin ən mühüm istiqamətlərindən biri onlar üçün əlçatan olan elmi təşkilatların araşdırmaları üzrə əldə edilən nəticələrin və tövsiyələrin tətbiqi məqsədilə ixtisaslaşmış xidmət sisteminin yaradılmasıdır. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi təbii və bioloji amillərin təsiri ilə əlaqəli öz spesifikliyi ilə fərqlənir. Kənd təsərrüfatında iqtisadi inkişafın bioloji komponentlərinin hər biri - torpaq, bitki, heyvan və s. elmi-tədqiqat və texnoloji inkişafın müəyyən

sahələri üçün əsasdır. Bu, öz növbəsində ənənəvi məhsul növlərinin istehsalında yeni kənd təsərrüfatı texnologiyalarından istifadəni tələb edir.

Kənd təsərrüfatında elmi-texniki tərəqqi bir sıra klassik sahələri əhatə edir:

- istehsal vasitələrinin istehsalı;
- təcrübədə geniş tətbiq olunmasına yönəldilmiş yeni heyvan cinslərinin və toxum sortlarının yetişdirilməsi;
- texnologiyaların təkmilləşdirilməsi və istehsalının müasir təşkili üsullarının tətbiqi; əmək ehtiyatlarında keyfiyyət dəyişikliyinin həyata keçirilməsi və s.

Dünya ölkələrində bu istiqamətlərdə kənd təsərrüfatı istehsalının dövlət tərəfindən stimullaşdırılması ən vacib üç əsas metodla həyata keçirilir: vergi güzəştləri (güzəştlər, tətillər, vergi kreditləri və s.); amortizasiya siyasəti yolu ilə təşviq; yeni məhsul növləri istehsalını həyata keçirən istehsalçılara birbaşa büdcə qrantları. ABŞ, Kanada və ya Avstraliyada tətbiq olunan vergi tədbirləri olduqca güclü təşviq vasitəsi kimi çıxış edir. ABŞ-da, dövlətin bu kimi fəaliyyətləri maliyyələşdirə biləcək vergi şəklində güzəştləri stimullaşdırmada əsas yerlərdən birini tutur. Ümumiyyətlə, kənd təsərrüfatında vergiyə cəlb olunmayan müəssisələrin mənfəətlərinin 40-60%-ə qədəri istehsalın və əsas fondların yenilənməsinə yönəldilir [2, s.168]. ABŞ, İngiltərə, Almaniya, Kanada və Yaponiyada mənfəət əldə edən şirkətlər xərclərinin müəyyən qismini vergi bazasından çıxarmaq hüququna malikdirlər. Bu ölkələrdə istehsalçılara vergi ödəmək üçün ən əlverişli dövrdən istifadə etmək hüququ da verilir. Dövlət tətəfindən müəyyən edilən müvafiq inkişaf proqramlarına qatılan istehsalçılar, investisiya prosesi başa çatana qədər kapital artımı səbəbi ilə vergi ödəmələrini təxirə sala bilir. Vergilər inflyasiya səviyyəsindən asılı olaraq ilə azalır və vergi məbləğinin müəyyən fasilələrlə bölgüsü aparılır. Həmçinin dövlət, vergi stimullaşdırlması yolu ilə - müxtəlif vergi güzəştləri və endirimlərindən istifadə edərək vergi dərəcələrini dəyişdirir. Çoxsaylı vergi güzəştləri kənd təsərrüfatında vergi sisteminin maliyyə funksiyalarını minimuma endirir.

Respublikamızda da dövlət tərəfindən vergi sahəsində kənd təsərrüfatı məhsulları istehsalçılarına ciddi güzəşt tətbiq olunmuş, onlar müəyyən olunmuş müddətdə vergilərdən azad edilmişlər (güzəştin müddəti müxtəlif dövrləri əhatə etməklə bir neçə dəfə uzadılmışdır).

Xarici ölkələrdə vergi krediti də geniş yayılmışdır. Vergi kreditinin köməyi ilə müəssisələr hesablanmış gəlir vergisini xərclərinin müəyyən bir faizi qədər azaldır. ABŞ, Yaponiya, Fransada bu vergi krediti, müəyyən bir müddət ərzində gəlirin vergitutma xərclərinin artmasına bağlıdır. Kanada və Hollandiyada vergi güzəştinin miqdarı xərclərinin ümumi artımına mütənasibdir və müəssisələrin mənfəətini artırmaq üçün əhəmiyyətli bir mənbə rolunu oynayır.

Stimullaşdırmada əsas yerlərdən birini tutan investisiya kreditləşdirmə sistemində avadanlıq və qabaqcıl texnologiyaların inkişafı üçün verilən kreditlər xüsusi əhəmiyyət kə sb edir. Fransada bu məqsədlər üçün kreditlərin 70% -ə qədəri yeni avadanlıqların alınması üçün nəzərdə tutulur. Ümumiyyətlə, kənd təsərrüfatını modernləşdirmək və kənd təsərrüfatı istehsalının rəqabət qabiliyyətini təmin etmək üçün hökumət xüsusi güzəştli kreditlərdən istifadə edir. Kənd təsərrüfatı istehsalının şərtlərindən və kreditin təyinatından asılı olaraq bu kreditlərin faiz dərəcəsi 3-9% arasında dəyişir [3, s.94].

Araşdırmalar göstərir ki, stimullaşdırma siyasətində prioritetlərdən biri elmi-texniki və texnoloji tərəqqinin təşviqidir. Beynəlxalq təcrübədə elmi-texniki sahədəki investisiyalar “gələcəyə qoyulan investisiyalar” adlanır və aqrar-sənaye sferasındakı yeniliklər strateji hədəflərə çatmağın ən təsirli yollarından biri hesab olunur. İnnovasiyaların istehsalata tətbiqi prosesini əvvəldən sona qədər müşayiət edən investisiya qoyuluşları inkişaf etmiş bir mexanizm rolunu oynayır. Bu sahədə güzəştlərin müntəzəm olaraq nəzərdən keçirilməsi, dövlətin prioritet sahələrdə innovativ fəaliyyəti məqsədyönlü şəkildə stimullaşdırmasına, yalnız elmi və innovasiyalı təşkilatların strukturuna və sayına deyil, eyni zamanda istehsalın strukturuna təsir göstərməsinə imkan verir.

Qeyd edilənləri nəzərə alsaq, stimullaşdırma tədbirlərini ehtiva edən aqrar siyasətin səciyyəvi xüsusiyyətlərinə kənd təsərrüfatı istehsalının bütün mərhələlərində yeniliklərin aktiv tətbiqini göstərmək

olar – mexanikləşdirmə, avtomatlaşdırma, kimyalaşdırma, ixtisaslaşma, biotexnologiyaların istifadəsi və s. Bu yanaşma kənd təsərrüfatında istifadə olunan resursların (torpaq, işçi qüvvəsi, kimyəvi maddələr, maşınlar, toxumlar və s.) daha səmərəli istifadəsinin istehsalın əhəmiyyətli dərəcədə artmasına və keyfiyyətcə yaxşılaşdırılmasına imkan verdiyini göstərir. Bununla yanaşı, elmi və texniki tərəqqinin tətbiqinin stimullaşdırılması tədbirləri nəticələrini təkcə istehsalın modernləşdirilməsində deyil, həm də yeni təşkilati və idarəetmə metodlarında, müasir fəaliyyət üsullarında, sahibkarlıq fəaliyyətlərində, dövlətin müxtəlif tədbir və mexanizmlərində büruzə verir.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı istehsalının stimullaşdırlmasında əsas rol aqrar qanunvericiliyə aiddir. Qanunvericilik sənədləri dövlətin kənd təsərrüfatına stimullaşdırıcı təsirinin əsas forma və metodlarını müəyyənləşdirir. Aqrar qanunvericilik həmçinin, stimullaşdırmada istifadə edilən iqtisadi vasitələrin tətbiqi mexanizmini və istiqamətini də müəyyən etməyə imkan verir.

Dünya ölkələrində kənd təsərrüfatı istehsalının stimullaşdırma istiqamətinə ən mühüm tədbirlərdən biri bu sahəyə elmi dəstəyinin maliyyələşdirilməsi və bunun sayəsində yeniliklərin inkişaf etdirilməsidir. ABŞ-da, dövlət kənd təsərrüfatı elminin inkişafına xüsusi diqqət yetirir (aqrar-sənaye kompleksinə elmi dəstəyin büdcənin ümumi xərclərindəki payı 50% səviyyəsindədir). Bununla birlikdə, aqrar-sənaye istehsalında elmi-texniki və texnoloji nailiyyətlərin, qabaqcıl təcrübənin inkişafı proqramlarının maliyyələşdirilməsi stimullaşdırmada mühüm rol oynayır. ABŞ-da aqrar iqtisadiyyatın maliyyələşdirilməsinin fərqli xüsusiyyəti ondan ibarətdir ki, büdcədən ayrılan vəsaitlər ilk növbədə ümummilli əhəmiyyət kəsb edən hədəf proqramlar üçün ayrılır - “Gəlirlərin sabitləşdirilməsi”, “Elmi-tədqiqat xidməti”, "Kiçik biznesdə innovativ tədqiqatlar” və s. Bunlara əlavə olaraq kənd təsərrüfatının federal səviyyədə maraqlarını təmin edən 10-dan çox xüsusi əhəmiyyətli hədəf proqramı da mövcuddur. Bunlara torpaq nümunələri əsasında torpaq qoruma proqramları, ehtiyacı olan əhaliyə kömək üçün ərzaq məhsulları yardımı proqramları, marketinq və kənd yerlərində sosial inkişaf tədbirləri və s. daxildir [4, s.60].

Kənd təsərrüfatı istehsalının yeniliklərə həssaslığının artırılması ilə bağlı stimullaşdırma mexanizmi təcrübəsinin təhlili göstərir ki, inkişaf etmiş xarici ölkələrin aqrar-sənaye kompleksində elmi-texniki tərəqqinin idarə olunması dövlətin birbaşa maliyyə yardımı ilə həyata keçirilir. Elmi-texniki və texnoloji tərəqqinin nailiyyətlərinin tətbiqi və təbliğini stimullaşdırmaq üçün mexanizmlər kənd təsərrüfatı istehsalına elmi dəstəyin bütün mərhələlərini - elmi fikirlərin meydana gəlməsini, elmi fikirlərin texnologiyalara çevrilməsini əhatə edir [96, 132].

Kənd təsərrüfatı istehsalının nəticələrinin təhlili və inkişaf etmiş ölkələrdə həyata keçirilən stimullaşdırıcı tədbirlər göstərir ki, kənd təsərrüfatının inkişafı üçün aşağıdakı amillərin birləşməsindən istifadə etmək zəruridir:

- istehsal sahələrinin texniki və texnoloji modernləşdirilməsi; kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyinin gücləndirilməsi;
- innovasiyalı texnologiyaların tətbiqini həyata keçirən yerli kənd təsərrüfatı istehsalçılarının qorunması;
- aqrar-sənaye sferası sahələrinin məqsədli büdcə maliyyələşdirilməsi; istehsalın təşkili və idarə edilməsində müasir texnologiyalardan istifadə və s.

Beləliklə, hazırda dünya kənd təsərrüfatının istehsal etdiyi məhsulların, xüsusilə ərzaq məhsullarının elm və bilik intensivliyini artırmağa doğru meyl etdiyini söyləmək olar. Bu, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin timsalında özünü daha qabarıq büruzə verir. Məhz qeyd edilən amil, tələb və təklif baxımından daxili ərzaq bazarının tarazlığını saxlamağa, qabaqcıl dünya bazarlarına asanlıqla nüfuz etməyə və milli istehsalçıları qorumağa imkan verir. Beynəlxalq təcrübə göstərir ki, elm, yüksək texnologiyalar, aktiv yeniliklər bütövlükdə iqtisadi həyatın ilkin hərəkətverici qüvvəsidir və kənd təsərrüfatı istehsalında üstünlük təşkil edən artım birbaşa elmi və texnoloji nailiyyətlərin tətbiqi ilə təmin olunur. Təkcə onu demək kifayətdir ki, ABŞ-da son illər ərzində kənd təsərrüfatı məhsulları istehsalı artımının üçdə ikisinə qədəri elmi-texniki tərəqqinin nailiyyətlərinin istifadəsi hesabına əldə edilmişdir.

№ 2/2021 səh.4 - 10

Göstərilənlərdən məlum olur ki, aqrar-sənaye sahələrinin innovativ inkişaf strategiyasının formalaşdırlması, onun təbii amillərdən asılılığı ilə bağlı riskləri azaltmaqla dövrü inkişaf modelini əhatə edir. Məlum olduğu kimi, kənd təsərrüfatı, digər sahələrdən fərqli olaraq dəyişən iqtisadi və texnoloji şərtlərə daha yavaş uyğunlaşır. Bu baxımdan kənd təsərrüfatı istehsalının stimullaşdırılması ilə bağlı dövlət dəstəyinin aşağıdakı əsas prinsipləri də spesifik xarakteri ilə fərqlənir:

- bütün kənd təsərrüfatı müəssisələri üçün dövlət dəstəyinin bərabər şəkildə göstərilməsi;
- zəmanətli dövlət dəstəyinin müəyyənləşdirilməsi;
- büdcə vəsaitlərinin alınması və istifadəsinin məqsədyönlü xarakteri;
- büdcə fondlarından səmərəli istifadə.

Kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyi aşağıdakı əsas sahələrdə həyata keçirilir: kənd təsərrüfatı məhsullarının sığortalanması müqavilələri üzrə istehsalçıların xərclərinin bir hissəsini ödəmək üçün subsidiyaların verilməsi; material, maddi və texniki ehtiyatların alınması xərclərinin bir hissəsinin ödənilməsi; kreditlər üzrə faiz dərəcəsinin subsidiyalaşdırılması; elit toxumçuluq, heyvandarlıq və konkret istehsal sahələrini dəstəkləmək üçün subsidiyaların verilməsi; gübrələr, yanacaq və sürtkü yağlarının alınması məqsədilə subsidiyaların verilməsi; kənd təsərrüfatı məhsulları bazarına dəstək; kəndin sosial infrastrukturunu dəstəkləmək üçün maliyyə resursları ilə təmin etmək və s.

Kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyi tədbirləri birbaşa və dolayı təsir tədbirləri əhatə edir. Dövlət dəstəyinin birbaşa formalarına büdcə vəsaitinin kənd təsərrüfatı istehsalının nəticələrinə bilavasitə təsir göstərdiyi dəstək formaları daxildir. Dolayı təsir tədbirlərinə kənd təsərrüfatı məhsulları üçün daxili bazarın qorunması və tənzimlənməsi tədbirləri daxildir.

Hədəf proqramları dövlətin struktur siyasətini həyata keçirən, iqtisadi inkişafına fəal təsir göstərən ən vacib vasitələrdən biridir və dövlət üçün ən vacib olan, irimiqyaslı investisiya və elmi-texniki layihələrin həyata keçirilməsinə yönəldilir. Dövlət proqramlarının ən vacib vəzifələri bunlardır: kənd təsərrüfatının modernləşdirilməsinə əsaslanan artım tempinin sürətləndirilməsi, rəqabət qabiliyyətinin artırılması, kənd yerlərinin davamlı inkişafı üçün şərait yaradılması və s.

Araşdırmalar aqrar sahənin inkişafını ləngidən bir sıra problem və maneələrin mövcudluğunu da göstərir:

- əlverişsiz təbii-iqlim şəraiti;
- bəzi sahələrdə struktur və texnoloji modernləşmənin aşağı səviyyəsi;
- ixtisaslı kadr çatışmazlığı;
- kənd təsərrüfatı texnikaları, gübrələr, yanacaq və sürtkü yağlarının bahalaşması;
- kənd təsərrüfatı məhsullarının qiymətləri ilə sənaye məhsulları qiymətləri arasındakı tarazlığın pozulması və s.

Belə problemlərin aradan qaldırılmasına yönəlmiş tədbirlər kənd təsərrüfatının yeni inkişaf səviyyəsinə çatmasına, istehsal həcmlərinin artmasına, əmək məhsuldarlığının yüksəlməsinəı, kənd təsərrüfatı istehsalının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə yenilənməsinə, yeni iş yerlərinin açılmasına, kənd əhalisinin gəlirlərinin artmasına imkan verə bilər. Beləliklə, kənd təsərrüfatının dinamik və innovativ inkişafını təmin etmək, kənd yerlərinin iqtisadi və sosial inkişafını təşviq etmək üçün dövlət dəstəyinin həcminin artırılması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün ehtiyatlar axtarılması xüsusilə vacibdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının innovativ və investisiya potensialı onlara dövlət dəstəyinin göstərilməsinin əsas amili kimi çıxış edə bilər.

## NƏTİCƏ

1.Kənd təsərrüfatı məhsulları istehsalçılarının ərzaq bazarındakı dəyişkən şərtlərdə tələbi öyrənmək üçün imkanlarının məhdudluğu dövlət tərəfindən yerli istehsalçılara dəstək tədbirlərinin həyata keçirilməsinin zəruriliyini göstərir. Bu siyasət bütün mülkiyyət və idarəetmə formalarının inkişafı üçün bərabər şəraitin yaradılmasını, mülkiyyət hüquqlarının qorunmasını, effektiv antiinhisar siyasətini və aqrar sahibkarlıq

üçün stimullaşdırıcı mexanizmləri əhatə edir. Dəstək tədbirləri kimi yerli istehsalıçıların səmərəli fəaliyyəti üçün əlverişli makroiqtisadi şərtlərin yaradılması da vacibdir: tələbin stimullaşdırılması, effektiv proteksionizm siyasəti, iqtisadiyyatın real və maliyyə sektorları arasında qarşılıqlı əlaqənin təmin edilməsi, innovasiyalı inkişafın stimullaşdırılması və təşviqi və s.

2.Ərzaq təhlükəsizliyində və əhalinin yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunmasında iştirak edən subyektlərinin, o cümlədən ərzaq bazarının təhlükəsizliyi və yerli istehsalın qorunması mütləq nəzərə alınmalıdır. Müasir bazar münasibətlərində vacib bir məqam yerli istehsalçılara münasibətdə proteksionizmdir. Yerli istehsalçılar qlobal və daxili ərzaq bazarında rəqabət apara bilmədikdə həm bazarın idxaldan asılılığı güclənir, həm də istehsalçıların geniş təkrar istehsal imkanları məhdudlaşır. Belə şəraitdə geniş mənada istehsalçıya dəstəyin (subsidiyalar, güzəştli kreditlər və s.) genişləndirilməsi, dar mənada ərzaq bazarına əmtəə və satınalma müdaxilələri, istehsal və satış üçün daxili kvotalar, istehlaka subsidiya daxil olmaqla qiymət tənzimləməsi tələb olunur.

3. Kənd təsərrüfatının dinamik və innovativ inkişafını təmin etmək, kənd yerlərinin iqtisadi və sosial inkişafını təşviq etmək üçün dövlət dəstəyinin həcminin artırılması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün ehtiyatlar axtarılması xüsusilə vacibdir. Kənd təsərrüfatı Beləliklə, kənd təsərrüfatının dinamik və innovativ inkişafını təmin etmək, kənd yerlərinin iqtisadi və sosial inkişafını təşviq etmək üçün dövlət dəstəyinin həcminin artırılması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün ehtiyatlar axtarılması xüsusilə vacibdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının innovativ və investisiya potensialı onlara dövlət dəstəyinin göstərilməsinin əsas amili kimi çıxış edə bilər.göstərilməsinin əsas amili kimi çıxış edə bilər.

**Tədqiqat işinin yeniliyi**Ərzaq bazarının təminatının əsasını təşkil edən kənd təsərrüfatında istehsalın stimullaşdırılması və dövlət dəstəyi tədbirləri üzrə prioritetlər müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti**.Məqalədə təqdim olunan nəzəri müddəalar və cıxarılan nəticələrdən ərzaq bazarının inkişafı və aqrar ərzaq təminatının yaxşılaşdırılması strategiyasını müəyyənləşdirilməsində istifadə oluna bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Kənd təsərrufatında ərzaq məhsulları istehsalının stimullaçdırılmasina yönəlmiş tədbirlər kənd təsərrüfatının yeni inkişaf səviyyəsinə çatmasına, istehsal həcmlərinin artmasına, əmək məhsuldarlığının yüksəlməsinə, kənd təsərrüfatı istehsalının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə yenilənməsinə, yeni iş yerlərinin açılmasına, kənd əhalisinin gəlirlərinin artmasına imkan verə bilər

ƏDƏBİYYAT

1.Səmədzadə Z.Ə.Cin qlobal dünya iqtisadiyyatında.Bakı:”Elm və təhsil”, 2009.

2.Галанов Е.А.Механизмы и методы государственного регулирования аграрного сектора экономики.Молодой ученый.2017,№49.

3.Губернаторов А.М. Экономика в условиях глобальных вызовов современности: монография.М.:Русайнс,2017.

4.Евдокимова Н. Международный опыт регулирования агропродовольственныхрынков.АПК: экономикауправление.2011.№2

5.Ивашенко Н.П. Экономика инноваций. Учебные пособие.М.:2016.

**УДК.333.13.6**

## Стимулирование производства продуктов питания в сельском хозяйстве

Алифов В.Я.

**Резюме.** В статье исследованыосновные приоритетные направления государственной поддержки для стимулирования производства сельского хозяйства, факторы влияющие на развитие производства продуктов сельского хозяйства, методы и средства стимулирования производства продуктов питания сельского хозяйства, меры стимулирования сельскохозяйственного производства в развитых странах, факторы необходимые для развития аграрного сектора

сельского хозяйства. Вместе с тем, были уточнены и устранены ряд проблем и препятствий направления государственной поддержки в сельскохозяйственных предприятиях, прямые и косвенные меры воздействия государственной поддержки, самые важнейшие задачи государственной программы, разъяснена важность устранения ряд проблем и препятствий, мешающих развитию аграрного сектора

**Ключевые слова**: инновация, стимулирование, компонент, приоритет, динамическое развитие, механизм поддержки, налоговый кредит.

**UDC.333.13.6**

**Stimulation of food production in agriculture**

**Alifov V.Y.**

**Summary**. The stimulating the application of innovations by the state in agriculture, factors used in agricultural development, methods and means of stimulating food production in agriculture, stimulus measures for agricultural production in developed countries, factors necessary for the development of agriculture, the main priorities of state support to stimulate production are being investigated in the article. At the same time, the areas of state support in agricultural enterprises, direct and indirect measures of state support, the most important tasks of state programs, a number of problems and obstacles that hinder the development of the agricultural sector, the importance of their elimination were clarified.

**Keywords**: innovation, incentive, component, priority, dynamic development, support mechanism, tax credit.

Redaksiyaya daxilolma: 21.05.2021
Çapa qəbul olunma: 11.12.2021

**№ 2/2021** **səh.11 - 18**

*UOT 339.13*

# MÜASİR DÖVRDƏ MARKETİNQİN YENİ FORMA VƏ ÜSULLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASI İSTİQAMƏTLƏRİ

**[1]Nushabə Aslan qızı Haciyeva, [2]Hüseynova Mehriban Rövşən qızı,**
**[3]Zeynab Bəhram qızı Qocayeva, [4]Vüsal Baxşeyiş oğlu Məmmədli**
**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəhəri, Ş.İ.Xətai pr.103**
**[1]nushaba.hajieva@mail.ru, [2]huseynova.mehriban.89@gmail.com**
**[3]zgojayeva@yahoo.com, [4]vusalmemmedli132@gmail.com,**

***Xülasə:*** *Marketinq kompleksi elementlərindən biri olan irəlilətmə həm də kommunikasiya siyasəti adlandırıla bilər. Müəssisələr kommunikasiyadan əsasən istehsal olunmuş məhsulların bazar iştirakçılarına informasiya çatdırması, təşviqi, stimullaşdırması, satışın müxtəlif formalarda təşkili baxımından qiymətləndirirlər. Mövzunun həsr olunduğu elektron marketinq satış formalarından olan birbaşa marketinqə aiddir. Lakin burada digər məsələlər də meydana çıxır ki, satış funksiyasından əlavə bunlar bazarın tədqiqi, ələlxüsus da mürəkkəb xarakterə malik virtual bazarın tələb və ehtiyaclarının öyrənilməsi ilə əlaqədardır. Deməli, elektron məkan elektron marketinqi təkcə satış kanalı, satış aləti deyil, həmçinin bazarın öyrənilməsi və tələbin formalaşması aləti kimi zəruri edir.*

***Açar sözlər:*** *elektron marketinq, mobil marketinq, İnternet marketinq, e_mail marketinqi, sosial şəbəkə (media) marketinqi, birbaşa marketinq, onlayn marketinq, ənənəvi marketinq, elektron ticarət, marketinq kommunikasiyası, ağıllı mağazalar, ağıllı məhsullar.*

**Giriş:**İnternet və şəbəkələr üzərindən qurulan elektron və ya İnternet biznesi müəssisələrə, dövlətlərə elə bir faydalar verir, elə sərvətlər qazandırır ki, hətta ənənəvi iqtisadiyyat artıq bəzi fəaliyyət sahələrində kölgədə qalmağa başlamışdır. Yeni əsr, yeni elektron texnologiyalar yeni marketinq şüurunun yaranmasını özü ilə birlikdə zərurət olaraq yaratdı. Və artıq dünya ölkələri elektron biznesi elektron marketinqsiz təsəvvür belə etmirlər. Elektron marketinq yeni elektron qurğular, yeni texnologiyalar və yeni texniki həlletmə üsulları yarandıqca onların imkanlarından istifadə edərək biznesi daha cəlbedici, daha canlı, daha mənfəətli edir. Odur ki, müasir dövrün son elmi-texniki nailiyyətlərinə söykənən biliklər əsasında yeni-yeni marketinq strategiyaları işlənib hazırlanır və real iqtisadiyyata tətbiq edilir. Elektron marketinq iqtisadiyyata və cəmiyyətə elə töhfələr verir ki, onun faydası hər keçən zaman müddəti ərzində daha çox hiss edilir. Mövzunun aktuallığı da məhz elə elektron marketinqin cəmiyyət həyatında oynadığı rol ilə müəyyən edilir.

**Tədqiqatın məqsədi** Elektron marketinqin dünya təcrübəsinin öyrənilməsi fonunda Azərbaycan mühitində elektron marketinqin iqtisadiyyatda yeri, mövcud vəziyyəti və inkişaf istiqamətlərinin müəyyən edilməsi, yeni innovasiya, məhsul və texnologiyaların verə biləcəyi faydaların öyrənilməsi tədqiqatın əsas məqsədini təşkil edir. Bu məqsəddən irəli gələrək elektron marketinqin əsas anlayışları izah edilmiş, elektron marketinqlə elektron ticarətin vəhdəti araşdırılmış, bu sahədə mövcud olan pozitiv və neqativ cəhətlər baxışdan keçirilmiş, elektron biznes imkanları öyrənilmiş, mövcud vəziyyət, problemlər, yeni innovasiyalar tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın informasiya mənbəyi.** Tədqiqatın informasiya mənbəyini azərbaycan və rus dillərində nəşr edilmiş və son dövrləri əhatə edən iqtisadi, texniki müasir ədəbiyyatlar, elmi jurnallar, Azərbaycanın tanınmış marketoloqlarının məqalələri, bloq yazıları, araşdırmaları, İnternet məkanında mövcud olan azərbaycan və rus resursları təşkil edir.

**Tədqiqat elmi yeniliyi.** Tədqiqat obyekti olaraq Azərbaycanda elektron marketinqin tədqiqata cəlb edilməsi praktikada rast gəlinməmişdir. Elektron marketinqin perspektiv istiqamətlərinin müəyyən edilməsi, yeni innovasiya və strategiyalardan, həmçinin elektron ticarət, İnternet və mobil texnologiyalardan istifadəyə dair nəticə və təkliflər verilmişdir.

№ 2/2021 səh.11 - 18

**Tədqiqat praktiki əhəmiyyəti.** Elektron marketinqin tətbiq edilməsinin təcrübəsinin göstərilməsi, dünyanın aparıcı şirkət və dövlətlərinin keçdiyi inkişaf yolu, onların tətbiq etdikləri innovasiyalar, hazırladıqları yeni məhsullar və texnologiyalar zəngin təcrübə rolunu oynayır. Elektron marketinqin Azərbaycan təcrübəsinin ümumi mənzərəsinin hazırlanması, onun inkişafı üçün zəruri iqtisadi-hüquqi bazanın təkmilləşdirilməsi və düzgün idarə edilməsi üzrə təkliflərin verilməsi bu sahənin inkişafı üçün vacibdir.

Tədqiqatda bencmark prinsipi əsasında Azərbaycan iqtisadiyyatının və şirkətlərinin gələcək inkişaflarının üfüqlərini, istiqamətlərini göstərir.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

### Elektron marketinq sahəsində yeni texnologiyalar və strategiyalar

***Mobil biznesin yeni istiqamətləri.*** Mobil internet bu gün bizim həyatımızı, unsiyyət vasitəmizi tam dəyişmişdir. İstifadəçilərin çoxu hansısa bir məlumatı SMS, telefon zəngi və ya Skype ilə deyil, WhatsApp ilə edir. Amma dünyada bu sahədə daha rentabelli bir brend var. Bu brend Yapon mesendjer proqramı *LİNE*-dır. İki il ərzində brend 300 mln. auditoriyaya çatması ilə yanaşı 2019-cü ilin nəticələrinə görə 400mln. dollar xalis gəlir əldə etmişdir. Müqayisə üçün qeyd edək ki, WhatsApp-ın illik mənfəəti cəmi 30 mln. olmuşdur. LİNE brendinin uğuru nədədir? Necə olur ki, WhatsApp "yuxusunda" görmədiyi mənfəəti yapon brendi rahatlıqla əldə edir?

*LİNE* iddia edir ki, onun təklif etdiyi stikerlər vasitəsi ilə dünyada vahid və hamının rahat başa düşəcəyi dil meydana gəlir. Heç kimə ingilis, alman və ya rus dilini bilmək lazım deyil. Əvəzində *LİNE* stikerlərini başa düşmək kifayətdir.

Yaponiyada, Çində, Koreyada ciddi istifadə edilən brend hələlik post-sovet ölkələri və Avropada tam tanınmış deyil. Bu o deməkdir ki, brendin ciddi inkişaf istiqaməti və potensialı var. WhatsApp-dan fərqli olaraq *LİNE* dəqiq biznes modeli işlənilmişdir. Başqa sözlə desək, şirkət pulun konkret olaraq haradan qazanılacağını dəqiq bilir və bir geniş "fəlsəfə" yaratmış vəziyyətdədir. *LİNE* pulu 3 əsas istiqamətdən qazanır.

*1. Stiker satışı.* Bu, əslində brend üçün yalnız pul qazanmaq yeri kimi deyil, butövlükdə identifikasiya və ya brend imici formasındadır, yəni brend "ikonlar" hazırlayır. Bu ikonlar insanların hisslərini çatdırmaq üçün ideal vasitədir. LİNE hazırladığı stikerlər insan hisslərini daha aydın formada çatdırılmasına xidmət edir. Bu gün LİNE bazasında 10 000-dən çox stiker var. Bu stikerlərin bir hissəsi pulla satılır. Bu istiqamətdə brend nəinki, pul qazanır, həmçinin ciddi planlar qurur. "Секрет фирмы" jurnalında brendin direktoru "Gələcəkdə insanlar yalnız stikerlə yazışacaq" deyə maraqlı açıqlama verir. Bu o deməkdir ki, artıq butün insanlar qlobal olaraq bir-birilərini başa düşən dildə danışa bilər, yəni mobil stikerlər, LİNE stikerləri vasitəsilə.

*2. LİNE GAME* və ya oyun satışı. Bu istiqamət brendin növbəti gəlir mənbəyidir, yəni LİNE ilə müxtəlif oyunlar yükləmək olar. Bu oyunların içərisində hansısa bir əlavə funksiyalar və ya oyunların özü pul, gəlir mənbəyidir. 2019-cü ilin mart ayında 300 mln.-dan artıq oyun yüklənmişdir. Bu brend üçün əlavə gəlir mənbəyidir.

*3. LİNE marketinq aləti kimi.* Brendin üçüncü gəlir gətirmə mənbəyi məhz reklamdır. Amma bu istiqamətdə də brend fərqli konsepsiya ortaya qoya bilib. Qlobal brendlər LİNE-da istifadə üçün özlərinin stikerlərini yaradırlar. Bu pullu xidmətdir. Bir növ brendlər öz brend mesajlarını daha sistemli çatdırmaq üçün, stikerlərdən istifadə edirlər. Bunun gələcəyi çox perkspektivli görünür.

LİNE brendini digər rəqiblərindən fərqləndirən növbəti faktor xəbər lentasının hazırlanmasıdır. Linkedin və s. kimi LİNE özünün xəbər paylaşma sistemi mövcuddur. Bu, onlayn bazarında brendi daha da cazibədar edir. Bəlkə də buna görədir ki, LİNE brendinin 2020-cü ilin dördüncü rübündə gəlir artımı 450% olmuşdur!?

Növbəti istiqamət mobil video xidmətidir. TV, İnternet və digər ənənəvi reklam vasitələrində verilən reklamların əksəriyyətini istehlakçı görmür, yəni reklama xərclənən pulların yarısı "havaya gedir".

**№ 2/2021** **səh.11 - 18**

Burada targetinq yox, marketinq üstündür. Lakin yeni mobil video xidmətlər vasitəsilə reklamlar "öz ayağı ilə" istehlakçının olduğu yerə gəlir.

Bütün dünyada, o cümlədən Asiyada istifadəçilər əvvəl olduğundan indi daha çox mobil qurğularda video kontent izləməyə meyllidir. Bu da onu göstərir ki, rəqəmsal marketinq aləmində reklam xərcləri getdikcə daha çox kiçikekranlı qurğuların payına düşəcək. *Ebusiness.az* bildirir ki, təkcə Hindistanda mobil reklam büdcəsi 5,2 milyard rupiyə (78 milyon ABŞ dolları) çatmışdır ki, bu göstəricinin 35%-i videonun payına düşür. Başqa sözlə, video 2019-2020-cü illərdə illik 56% artımla bütün digər onlayn reklam formatlarını üstələmişdir. Bu artımın əsas səbəbi odur ki, video digər mobil reklam formatları ilə müqayisədə, kontenti istehlakçıya maraqlı, əyləncəli şəkildə çatdırmaqda və potensial alıcı ilə ünsiyyət qurmağa olduqca effektiv vasitədir. Ona görə də əminliklə söyləyə bilərik ki, yaxın illərdə mobil reklam xərclərinin digər rəqəmsal reklam formatları ilə müqayisədə, ən yüksək həddə çatacağı gözlənilir.

Hindistan da həmçinin gələcək bir neçə ildə mobil video reklam platformasında sürətli artım göstəriciləri ilə seçiləcək. Burada mobil internet istifadəçi sayının 2021-ci ildə 400milyona çatacağı proqnozlaşdırılır. Hindistanda onlayn video istifadəsinin 70%-inin portativ qurğularda həyata keçdiyini nəzərə alsaq, tezliklə reklamçıların da rəqəmsal xərcləri daha çox mobil platformaya yönəldəcəyini iddia etmək olar.

Bir sözlə, mobil ekrana keçid artıq sadəcə rəqəmli marketinq məsələsi deyil. Bu, əslində, daha qlobal miqyasda rəqəmsal dünyada marketinq deməkdir. Çünki onlayn isteklakçılar üçün statik banner reklamları və ya ayrıca pəncərədə açılan iri pop-ap (pop-up) reklamların dövrü artıq çoxdan keçmişdir. Artıq reklamçılar da anlayır ki, müştəri ilə şəxsiləşdirilmiş, unikal kontent əsasında ünsiyyət qurmaq gərəkdir. Bundan əlavə, ağılla dizayn edilmiş video reklamın sosial mediada (məs. Twitter və Facebook) sürətlə geniş yayılmaq potensialı daha çoxdur. Bu da brendin təsir gücünü genişlədərək qısa müddətdə müştəri bazasını zənginləşdirməyə imkan verir. Bu baxımdan, YouTube, Facebook və Twitter kimi nəhənglər artıq bu inqilabi yeniliklə ayaqlaşaraq müxtəlif effektiv vasitə və platformalar təklif edir. Video reklamlar desktop (stolüstü kompüter) formatı ilə müqayisədə, mobil və planşetlərdə daha gözəyatımlıdır. Məsələn, YouTube baxış sayı mobil qurğuda yüksək həddədir, planşetdə isə bu göstərici artıq 94%-ə çatmışdır.

Mobil videoların smatfonlara gəlişi onların TV ilə inteqrasiyası ideyasının yaranmasına səbəb oldu. Artıq şirkətlər *Shazam* adlı proqramın imkalarından istifadə etməyə başlayıblar. Daha sadə dildə desək, əgər televizorda hansısa brendin reklamı gedirsə, səsi tanıyan proqram vasitəsi ilə həmin reklam bizim mobil telefonumuza inteqrasiya edilir. Bu o deməkdir ki, əgər istehlakçının telefonunda *Shazam* proqramı varsa və o açıqdırsa, televizorda gedən reklam onun cib telofonunda olacaq. Bu isə o deməkdir ki, istehlakçı heç bir şəkildə reklam mesajından çəkinə bilməyəcək.

Bugün TV reklam qiymətləri qlobal olaraq son 5 ildə ən azı 2 dəfə artmasına baxmayaraq bu reklamların effekti dəfələrlə aşağı düşmüşdür. Milyardlarla büdcələr xərcləyən brendlər, əlbəttə, bu tendensiya ilə razılaşa bilməzlər. Bu baxımdan reklam sənayesinin xilas olmasının yeganə yolu, TV (radio) reklamlarla mobil cihazlar arasında sinerjinin (inteqrasiyanın) yaradılması olmalıdır. Bunu mükəmməl edə biləcək alət isə *Shazam*-dır.

Marketoloqlar yeni media daşıyıcılarından istifadəyə hazır olmalıdırlar və indidən alternativ kommunikasiya yollarını tapmalıdırlar.

"***Gələcəyin marketinqi***" adlandırılan yeni texnologiyalar vasitəsilə istehlakçılar müxtəlif ticarət, xidmət, təhsil, səhiyyə və s. obyektlərə uzaq məsafədən izlənilməklə dəvətlər alırlar. Bu texnologiyalar *geolokasiya marketinqi* adlanan yeni istiqamətə aid olan *iBeacon* (ay-bekon)və *Geofencing*(geofensinq) texnologiyalarıdır. *Geofencing* texnologiyasında potensial müştəri 500 metr məsafədən, *iBeacon* isə 25-50 metr məsafədən mobil cihazına Puş (*Push*) bildirişi alır. Puş bildirişlərində təkliflər, məhsullar, aksiyalar, məhsullar və bir çox şeylər haqqında məlumatlar öz əksini tapır. Artıq potensial istehlakçı özü də gözləmədiyi halda müxtəlif biznes təklifləri ilə qarşılaşır. Onlar hətta obyektlərin içərisində olduqları

zaman nəyin harada yerləşməsi və s. barədə məlumatlar alırlar ki, bu da öz növbəsində müştərilərin rahatlıqlarına xidmət edir. *iBeacon* sanki alıcının "əlindən tutub gəzdirir".

*Geofencing* və *iBeacon* texnologiyalarında izləyici adlanan kiçik ölçülü (kibrit qutusu böyüklüyündə) yüngül kommunikasiya qurğularından istifadə edilir. Bu qurğular puş bildirişlərinin aid olduğu istinadı müştərinin mobil cihazına göndərir, müştəri isə telefonunda quraşdırılmış xüsusi proqramla həmin istinadın aid olduğu sayta daxil olaraq geniş məlumatlar əldə edir.

*Geofencing* makro səviyyəyə, *iBeacon* isə mikro səviyyəyə aid texnologiyadır. *Geofencing* potensial müştərini uzaqdan cəlb edirsə, *iBeacon*onu "obyektin içərisinə salır". Hər iki texnologiyada istifadə edilən Puş bildirişi SMS qısa məlumat bildirişindən fərqli olaraq mobil operatorlar tərəfindən mərkəzləşdirilmiş qaydada deyil, obyekt sahibinin serveri tərəfindən göndərilən bildirişlərdir.

*iBeacon* texnologiyasına dair göstərəcəyimiz 10 nümunə bu texnologiyanın hansı imkanlara malik olmasının əyani sübutudur:

1. Müzey və sərgilərdə, zoopark, akvapark, incəsənət qalereyası və digər yerlərdə haradan haraya getməyi, nəyə baxmağı göstərən elan lövhələrini, yazıları oxumağa ehtiyac qalmır. *iBeacon* ekskursiya bələdçisinin vəzifəsini yüngülləşdirərək, hətta tamamilə əvəzləyərək onu rahat prosesə çevirir.
2. Xəstəxana və poliklinikalarda həkim haqqında, onun iş saatı, boş vaxtları və s. haqqında qısa məlumat almaq olar. Tibb heyətinin işi də yüngülləşə bilər. Belə ki, *iBeacon* izləyicisi ilə xəstənin xəstəlik tarixi, ambulator kartı, təyin olunan dərmanları və s. haqqında tibb heyəti geniş informasiya ala bilər.
3. Konfrans və toplantılarda hərəkət marşrutları, seminar və mətbuat konfransı cədvəlləri, iştirakçılar haqqında informasiya əldə etmək üçün *iBeacon*əvedilməz alətdir.
4. İclas və konfrans zallarında öz yerini necə tapmaq, iştirakçılar, məruzəçi və məruzənin özühaqqında informasiya əldə etmək olar.
5. Kafe, bar, restoranlarda yeməklər (kaloriliyi, yağlılığı, istifadə edilən ərzaqlar, hazırlanma texnologiyası və s.), onlara uyğun içkilərin seçilməsi, restoranın özü, tarixi, məşhur müştəriləri haqqında əlavə informasiyalarla tanış olmaq olar.
6. Otel və kurortlarda *iBeacon* izləyicilərinin rolu çox böyükdür. Müştərilər "maraqlı nöqtələr"i, ekskursiya marşrutlarını bu texnologiya ilə seçirlər.
7. Avtomobil satışı və icarəsi salonlarında maraqlandıran avtomobil, aeroport dayanacaqlarında parklama haqqında informasiyalar əldə etmək olar.
8. Mitinq və nümayişlər zamanı çıxışlar, proqramda edilən dəyişikliklər, natiqlər, baş verə biləcək insidentlər, insanların təşkilatlanması, təcili yardım maşınlarının olduğu yer və s. haqqında informasiyaları operativ əldə etmək olar.
9. Görmə qabiliyyəti zəif olan insanlara mətnin səsə çevrilməsi, səsə görə tanıma, olduğu məkan və ətraf aləm haqqında informasiyalar yardımçı ola bilir.
10. Təhsil müəssisələrində tələbələrə dərs cədvəlləri və orada aparılan dəyişikliklər, imtahanlar, elanlar, universitet yeməkxanasında hazırlanan xörəklər və s. haqqında informasiyalar çatdırıla bilər.

***"Ağıllı mağazalar"***, pərakəndə ticarətdə innovasiyalar və ya marketlərdə rəqəmsal marketinqin faydaları.

Ağıllı mağaza dediyimiz zaman müştəriyə alış-veriş prosesini maksimum rahat və daha az xərclərlə təqdim etmək üçün aparılan vasitələrin cəmini başa düşürük. Sadə dildə desək, ağıllı mağaza müştəriyə əlavə dəyərlər təklif etməyin bir yoludur. Daha sadə desək, ağıllı mağaza rəqəmsal elektron texnikalardan istifadə etməklə asan alış-veriş etmək imkanlarının yaradılmasıdır.

Gündəlik alış-veriş etdiyimiz marketlərin sayı günü-gündən artır, rəqabət kəskinləşir, müştəriyə göstərilən şifahi ünsiyyət pərakəndəcilikdə kifayət etmir. Marketlər artıq müxtəlif rəqabətcil və innovativ metodlardan istifadə etməlidirlər. Marketlər bu istiqamətdə rəqəmsal marketinqi tədbiq edərək onun faydalarından istifadə etməlidirlər. Rəqəmsal marketinq sadəcə internetlə məhdudlaşmır.

**№ 2/2021** **səh.11 - 18**

İstehsalçı və ya topdançı distribyutorlar marketlərdə öz məhsullarını elektron, digital vasitələrlə tanıda bilərlər, istehlakçıları məlumatlandıra bilərlər və bu yolla istehlakçılara təsir edərək digər istehsalçı və ya topdançılardan fərqlənə və rəqabət üstünlüyü qazana bilərlər.

Bəzi ölkələrdə istehlakşı davranışlarına təsir etmək və lehinə dəyişdirmək məqsədiylə digital marketinq vasitələrindən istifadə edilir. Bu həm marketlərdə CRM-in tədbiqi, həm də reklam vasitələrinin seçilməsi və reklamın təsirinin artırılması üçün vacibdir. Müştəri elektron kartları (bonus və endirim kartları) CRM üçün bir vasitə, məhsul bazası və informasiyalarla dolu e-kartlar isə sırf istehlakçı seçimi və qərarlarına təsir edən, kömək göstərən rəqəmsal vasitələrdir. Bəzi innovativ rəqəmsal vasitələrdən mağazaya gəlmədən evdə, yolda, işdə kağız siyahı yerinə həmin elektron vasitələrdə qeydlər edilir, mağaza içində onu qurğularda oxudaraq bu malların olub olmadığını, qiymətlərini hesablamaq mümkündür. Bəzi qurğular isə hətta alacağı malla bərabər istifadə ediləcək əlavə malları xatırladır, hansı mallarda endirim və qazanacaq xalları xatırladır.

Bu vasitələrdən biri də alış-veriş arabasına müxtəlif elektron alətlərin qoyulmasıdır. İstehlakçı əvvəlcədən girdiyi siyahı ilə alış-verişini aparmaqda və arabaya atdığı hər məhsulu qeyd etməklə həm alacaqlarını unutmur, həm də ödəyəcəyi məbləği görə bilər.

Alış qərarlarının əksəriyyəti satış nöqtələrində verildiyi üçün istehlakçılara TV reklamı ilə deyil, elə satış nöqtəsində təsir etmək daha önəm qazanmışdır. Ancaq marketlerdə istifadə edilən reklam rolikləri TV-də olduğu kimi uzun deyil, daha qısa 10-15 saniyəni keçməməsi məsləhət görülür. Burada müxtəlif araşdırmaların nəticəsini də qeyd etmək lazımdır ki, mağazada bu cür yayınların izləyicilər tərəfindən brendləri xatırlaması 65-70%, evdə TV-də izləyənlərin xatırlama faizi isə 25-30% təşkil edir.

Alış-verişin sonunda kassadan keçərkən indiki kimi kassaya daxil edilən məhsullar sadəcə kassa operatorları tərəfindən görülməkdənsə monitorlarda müştəırilər tərəfindən də izlənilməsi daha effektivdir. Eyni zamanda müştərilər topladığı xalları, endirimləri və s. də görmüş olurlar. Bu da müştəri loyallığının yaradılmasında effektiv vasitələrdən biridir.

Pərakəndə sektoru və mağaza işini daha da maraqlı hala gətirmək üçün daim yeniliklərdən istifadə edilməli, müştərini bu yeniliklərlə heyrətləndirməyi bacarmaq lazımdır. Rəqəmsal marketinqdən istifadə edərək “ağıllı mağaza” yaratmaqla bunu sürətləndirmək mümkündür.

Göründüyü kimi, marketlərdə, şirkətlərdə biznes proseslərin optimallaşdırıl-ması və bu istiqamətdə bilgi texnologiyalarının inkişaf etdirilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Məhsulların barkodlarında quraşdırılmış və elektromaqnit dalğaları ilə idarə olunan mikroçiplər pərakəndəçilikdə son yeniliklərdəndir. Mikroçiplərin əsas funksiyası müntəzəm olaraq informasiya ötürücüsü rolunu ifa etməsidir. Elektromaqnit dalğaları vasitəsilə məhsulun harada olması məlumatı və hesablamaların aparılmasını asanlaşdırır.

Pərakəndə sektorunda edilən rəqəmsal innovasiyalardan biri də elektron qiymətliklər və onların idarə olunmasıdır.

Pərakəndəçilikdə istifadə olunacaq digər bir innovasiya isə səbətdə alınmış məhsulların tək-tək kassaya buraxılmadan magnit keçiddən keçdiyi vaxt bir dəfədə qiymət scanerindən keçirilməsinə şərait yaradan texnologiyadır.

*"**Ağıllı məhsullar**" və ya “Əşyaların interneti”.* Hər bir sıravi istehlakçı dünyada yeni məhsulların inkişafı ilə tanış olarkən insan ağlının və elmin ortaya çıxardığı yeniliklərdə internetin təkamülünün böyük rol oynadığına bir daha əmin olur. “Əşyaların interneti” (İoT) dilimizdə yeni sözdür. Dövr bizi sürətlə “ağıllı məhsullar”ın bütünlüklə həyatımıza tətbiqinə doğru aparır. Bu gün özümüz də dərk etmədən televizorların, evlərin, sənaye avadanlıqlarının internetə qoşulduğunu görürük. Onlar öz aralarında məlumatları mübadilə edir və bizə göndərirlər. Bunlar həyatımızın rahatlığını təmin edir. Hətta smartfonlar belə internetə qoşulur və öz aralarında şəbəkələr yaradırlar. Dünyada milyardlarla cihaz bağlantısı var. Mexanizmlər və ya cihazlar arasında bağlantı olan İoT əsasən Wi-Fi və mobil yükləmələr üzərindən bir-biri ilə əlaqələr yaradaraq təkcə dünyada deyil, Azərbaycanda da tətbiqini tapmaqdadır. Bu gün artıq İoT istənilən sahədə — telekommunikasiya, təhsil, qida, tibb, dövlət, logistika, pərakəndə satış, idarəetmə sahələrində istifadə olunur. Ev teatrı, ağıllı ev, smart TV, evlərdə yanğının qarşısını alan

**№ 2/2021** **səh.11 - 18**

cihazlar, dünyada testinə başlanan ağıllı maşınlar və s. əşyaların bəziləri dünyada sürətlə inkişaf edir. Bir neçə ildir ağıllı şəhər (smart city) konsepsiyası yeridilir. Ağıllı saatlar telefonda olan məlumatları qısa şəkildə öz ekranında göstərir. Telefonu cibdən çıxarmadan qolundakı saatdan mobil telefonuna gələn mesajları görə bilirsən. Həmçinin qidalanmaya nəzarət edən elektron çəngəl, ağıllı fincan, gigiyenanı nəzarətdə saxlayan ağıllı diş fırçası, ağıllı paltar yuyucusu, ağıllı yumurta daşıyıcısı, ağıllı suqızdırıcı və s. cihazlar internetə qoşula və məlumatları telefona göndərə bilirlər. "Ağllı ev mühafizəçisi" isə dünyada gəlir gətirən biznesə çevrilib. O cümlədən ağıllı hava stansiyası, ağıllı tennis raketkası, qan təzyiqini ölçən cihaz, ağıllı corab və qıfıl istifadədə yararlılıq qazanan məhsullardır. Ümumilikdə isə bu bazar 2020-ci ildə 1.2 trilyon gəlir gətirəcək.

***Mobillik və səhiyyə.*** Bugün dünyada mövcud olan ən ciddi trendlərin başında iki məsələ dayanır: mobillik və insanların öz sağlamlıqlarına daha ciddi fikir vermələri. Nə qədər ziddiyyətli səslənsə də bu iki trend arasında düz mütanasiblik var. Sadə dillə desək, dünyada mobilləşmə (mobil internet) nə qədər çox inkişaf edirsə, sağlamlıq məsələsi bir o qədər önəm qazanır. İnsanlar sağlamlıqlarına daha çox önəm verir.

Qlobal statistikalara görə insanlar ildən-ilə tibbi sığortaya daha çox pul xərcləyirlər və ümumiyyətlə müayinə bazarının tutumu gündən-günə artır. Bunu sıravi insan bilirsə, deməli, mobil internet üzərində işləyən şirkətlər "dünəndən" bilir. Və artıq "smartfon həkimlər" meydana gəlir. Bugün artıq www.mybasis.com kimi şirkətlər insanların chek-up funksiyasını öz öhdəsinə götürmüşdür. Mobil internet vasitəsi ilə artıq müayinəyə getməyə ehtiyac yoxdur. Hazırlanan cihazlar vasitəsi ilə insanların gündəlik ürək döyüntüləri, nəbzi və digər paramertlər əsasında insanların sağlamlığı təyin edilir. İnsanlar onlayn rejimdə daimi check-up əldə etmiş olurlar. Bundan sonra kimə lazımdır uzun-uzadı həkim növbələri?

Cihazlara verilmiş tapşırıq əsasında insanın xəstəlikləri daim nəzərətdə qala bilər. Bununla istifadəçi daimi rejimdə öz sağlamlığına nəzarət edir, tibb sektoru isə öz bazar prinsiplərini tam dəyişmiş olur.

Rəqəmsal xəstəxana anlayışının yayıldığı indiki vaxtda məlumatın xəstələrin və xəstəliklərin idarə olunmasında oynadığı rol xeyli əhəmiyyətlidir. Xüsusilə xəstə ilə əlaqədar məlumatların (laboratoriya nəticələri, radioloji görünüşlər və s.) xəstənin yanındaca görülə bilməsi tibbi səhvlərin azalmasını, proseslərin sürətlənməsini, iş yükünün azalmasını, bu sahədə işləyən həkim heyətinin faydalı iş əmsalının artmasını təmin etməkdədir. Həkim və tibb bacıları tərəfindən yeni texnologiyadan istifadədə müəyyən çətinliklərin yaranma ehtimalı olsa da, dünya təcrübəsində mobil platformaların tətbiqinin çox böyük praktik faydaları müşahidə edilməkdədir..

İntel şirkəti tərəfindən dizayn edilən MCA PClər hazırda Panasonic, Motion, Fujitsu və Philips olmaqla bir çox istehsalçı tərəfindən bir-birindən fərqli versiyalarda bazara təqdim edilməkdədir. MCA PC-lər xəstəxanalarda müxtəlif məqsədlərlə istifadə edilməkdədir.

Texnologiyanın xəstəxanalara təmin etdiyi imkanlardan biri də RFID və *bluetooth* kimi yeni nəsil simsiz kommunikasiya vasitələridir. Xüsusilə RFID, şəxsiyyəti təyin etmə, anlıq uyğunlaşdırma (ana - uşaq, xəstə - qan) xüsusiyyəti və mövqe təyin etmə (xəstəxana içində xəstə, personal və cihazların yerinin təyini) xüsusiyyətləri ilə ön plana çıxmaqdadır.

*Bluetooth* ilə periferik tibbi cihaz xəstəxana məlumat sisteminə məlumatın ötürülməsi və ya *bluetooth* qulaqlıq ilə MCA xəstəxanadaxili rahat kommunikativ şəbəkənin qurulması modelləridir.

İstifadə modellərinə gəlincə, dünya praktikasına nəzər yetirsək, MCA tipli mobil cihazları xəstəxanalarda daha çox tibb bacılarının istifadə etdiyini müşahidə edərik. Kağızsız mühitin təmin edilməsi tibb bacılarının iş yükünü olduqca azaldan bir amil kimi əhəmiyyət kəsb edir.

Həyatımızın hər sahəsində olduğu kimi mobillik xəstəxanalarda də yayılmaqdadır. Yeni texnologiyalara adaptasiya olma müddətində yaşanan çətinliklər xəstəxanalarda də yaşanmaqdadır. Bu da yeni texnologiyları mənimsəmə dövründə təbii proses kimi səciyyələnməlidir.

№ 2/2021 səh.11 - 18

Xəstəxana rəhbərlikləri texnologiyanın və mobil tətbiq modellərinin faydalarını xəstəxana işçilərinə yaxşı izah etməli, sistemin təsirli istifadəsi üçün müəyyən bir standart tətbiq etməli və işçilər alışana qədər cəsarətlə tətbiqin arxasında durmalıdırlar.

Qeyd olunanlara yekun olaraq bildirmək olar ki:

- müştərilər daha çox dərk etməyə başlamışlar ki, biznes məsələlərinin həllində necə etmək olar ki, mobil mediadan daha səmərəli istifadə edilsin? Mobil kanala münasibət dəyişməkdədir və artıq o şübhə yaratmır. Hamı dərk edir ki, cəmiyyət sürətlə "mobilləşir": müasir telefonlar gündəlik həyatımızda daha çox rol oynamağa başlayırlar. Ona görə də istehlakçı ilə kommunikasiyaların qurulnası bir zərurət olaraq meydana çıxır.
- sorğular tamamilə müxtəlif kateqoriyadan olan müştərilərdən daxil olur. Əvvəllər olduğu kimi, daha çox fəallığı banklar, avtomobil, daşınmaz əmlak, pərakəndə (riteyl) şirkətləri göstərirlər. Ortaya kifayət qədər ciddi büdcələr çıxır. Eyni zamanda digər müştərilərdən də sorğular tez-tez daxil olmaqdadır – tibb mərkəzlərindən, dilçilik məktəblərindən, teatr və kinoteatrlardan, əyləncə mərkəzlərindən. Buraya həmçinin mobil texnologiyalar üzərində biznes quran şirkətlər (mobil tətbiq hazırlayanlar) də əlavə olunurlar.
- getdikcə mobil tətbiqlər və mobil internet daha çox populyarlaşır. Yaxın vaxtlara qədər reklam vericiləri mobil interneti "böyük veb"dən ayrılıqda təsəvvürə belə gətirə bilmirdilər. Buradaca qeyd etmək yerinə düşər ki, reklam vericiləri arzu edirlər ki, istehlakçının edəcəyi müəyyən hərəkətlərə görə ödəniş etsinlər (alış, yükləmə və s.), nəinki sadəcə "tıklama" və ya görüntüyə görə ödəniş.

## Nəticə:

Elektron marketinq yalnız satışa və reklama xidmət etmir, o həm də bazarın tədqiqi, alıcıların arzu, istək və niyyətlərinin öyrənilməsinə xidmət edən güclü alətdir. Ona görə də elektron marketinq anlayışını elektron vasitələrlə, ilk növbədə İnternet vasitəsilə bazarın araşdırılması, məhsul və xidmətlərin bazara doğru irəlilədilməsi (reklamı, təşviqi), satışı və servisi üzrə fəaliyyət kimi qiymətləndirmək lazımdır. Elektron marketinq marketinq kommunikasiya sistemində ciddi dəyişiklikdir və hakimiyyətin satıcıdan alıcıya keçməsidir.

Elektron marketinqin növləri elm və texnologiyaların inkişafından, onun həyata keçirildiyi texniki vasitə və hallərdən asılı olaraq dəyişir. Bu günkü vəziyyətə görə elektron marketinqin geniş istifadə edildiyi növləri İnternet marketinqi, mobil marketinq, e_mail marketinqi, sosial şəbəkə (media) marketinqidir. Bu növlər elm və texnologiyalarn inkişafı ilə əlaqədar olaraq müxtəlif istiqamətlərə bölünməkdə və inkişaf etməkdədir.

"Ağıllı mağazalar", "Ağıllı məhsullar", "Gələcəyin marketinqi"nə dair məhsullar, sosial media, mobil və İnternet texnologiyalar dünyanın gələcək biznesinin və marketinqinin siması, inkişafını şərtləndirən əsas istiqamət olacaqdır.

Elektron ticarətin iqtisadiyyata faydası dünya təcrübəsində özünü təsdiq etmişdir. Azərbaycan da digər ölkələrdə mövcud olan tərəqqiyə nail olmaq istəyirsə, elektron ticarətə tətbiq edilən vergiləri bir neçə il müddətinə azad etməli, bu sahə inkişaf etdikdən sonra balanslı vergi siyasəti yürütməlidir.

## ƏDƏBİYYAT


1. Böyük İqtisadi Ensiklopediya. VI cild. Bakı, 2015
2. Armstronq Q., Kotler F. Marketinq. İlk addım. Bakı, 2006. – s.479-513- Rəqəmli əsrdə marketinq
3. Qrem Huley, Con Sanders, Naycel Pirsi. Marketinq strategiyası və rəqabətli mövqeləşdirmə. Bakı, 2008 - s.609-648 – Elektron marketinq əsasında rəqabət
4. Jan-Jak Lamben. Bazar yönümlü menecment. Strateji və əməliyyat marketinqi. Bakı, 2008 – s.526-537 – İnteraktiv və birbaşa marketinq
5. Urkayev M.H. Marketinqdə məhsul siyasəti. Gəncə, 2014 – s.193-209

6. Verdiyev N.D. İnformasiya iqtisadiyyatı. Gəncə, 2012 – s.161-178 – Elektron ticarət və onun strukturu
7. Н.А.Гаджиева. Маркетинг.Учебник.Баку ,2014-с.634
8. "Ağıllı məhsullar" və ya "Əşyaların interneti" - http://az.surf.az
9. Azərbaycanda elektron ticarət niyə zəif inkişaf edib? - http://deyerler.org
10. "Azərbaycanda mobil biznes imkanları" konfrans baş tutdu - http://facemark.az
11. Azərbaycanda mobil marketinq… - http://technimum.com
12. Vüsal İsayev: "Mobil tətbiqdən istifadə müəssisənin imicini formalaşdırır" - http://www.olke.az
13. Biznesin gələcəyi internetdə, internetin gələcəyi isə mobillikdədir! - http://www.ilkinmanafov.com
14. Mobil texnologiyaların səhiyyə sisteminə inteqrasiyası - http://technimum.com
15. Mobilləşən rəqəmsal dünyamız haqqında yeni araşdırmalar - http://marketermeherrem.com
16. AĞILLI mağaza nədir?! - http://www.ilkinmanafov.com

**УДК 339.13**

## НАПРАВЛЕНИЯ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ФОРМ И МЕТОДОВ МАРКЕТИНГА

**Гаджиева Н. А., Гусейнова М.Р.,**
**Годжаева З.В.Мамедли В.Б.**

**Резюме.** Основной целью исследования является определение места, текущего положения и направления развития электронного маркетинга в Азербайджанской среде на фоне изучения мировой практики; изучение получения возможных выгод от применения новых инноваций, товаров и технологий. Исходя из этих целей исследован синтез электронного маркетинга и электронной торговли, существующие в этой области позитивные и негативные стороны, привлечены в исследование проблемы и новые инновации.

**Ключевые слова:** Электронный маркетинг, мобильный маркетинг, İnternet маркетинг, традиционный маркетинг, электронная торговля, маркетинговая коммуникация, умные магазины, умные товары.

**UDC 339.13**

## EFFECTIVE USE WAYS OF NEW FORMS AND METHODS OF MARKETING.

**Hajiyeva N.A., Huseynova M.R.**
**Gojayeva Z.B., Mamedli V. B.**

**Summary**.The main purpose of the research is to determine the place, current position and electronic marketing direction of development in the Azerbaijani environment against the background of studying world practice: studying the potential benefits from the use of new innovations, goods and technologies. Based on these goals, the synthesis of electronic marketing and e-commerce was investigated, the positive and negative sides existing in this area were involved in investigation of the problem and new innovations.

**Keywords:** Email Marketing, Mobile Marketing, Online Marketing, Traditional Marketing, Ecommerce, Marketing Communication, Smart Trades, Smart Products.

Redaksiyaya daxilolma: 31.08.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.19 - 22
UOT 339

# MƏZUNLARIN MƏŞĞULLUĞUNUN ARTIRILMASINDA "BACARIQLAR CÜZDANI" SİSTEMİNİN TƏTBİQİ: CƏNUBİ KOREYANIN TİMSALINDA

**[1]Ülviyyə Duman qızı Məmmədova , [2]Sənan Duman oğlu Məmmədov**

**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə ş. Şah İsmayıl Xətai prospekti 103**

[1]ulviyya.m@uteca.edu.az, [2]mamedov.snn@gmail.com

***Xülasə:*** *Dünyadakı sürətli iqtisadi inkişafın fonunda hər bir dövlət öz rəqabətqabiliyyətliyini qoruyub saxlamaqla yanaşı innovativ inkişafa da nail olmağa çalışır. Bunun üçün hər bir hökumət müasir dövrün tələblərinə uyğun olaraq öz davamlı inkişafını təmin etməlidir. Bu baxımdan, tədqiqatın əsas məqsədi təhsil proqramını sistemli perspektivdə təhlil etmək və proqramın inkişaf planını təklif etməkdir.*

***Açar sözlər:*** *innovasiya, innovativ inkişaf, rəqabətqabiliyyətlilik, davamlı inkişaf, tədris planı, əmək bazarı.*

**Giriş:** Bir millətin milli gücünü inkişaf etdirməyə və gücləndirməyə davam etməsi və buna uyğun olaraq ölkənin davamlı inkişafına nail olması, yüksək ixtisaslı insan resurslarının qabiliyyətlərini və potensial güclərini inkişaf etdirmək və kadr ehtiyatlarını təmin etməklə onlardan ən yaxşı şəkildə istifadə etməklə sıx bağlıdır. Mükəmməl kadrlara sahib olan hökumət, dünyadakı sürətli dəyişikliklərə cavab olaraq aktiv şəkildə müvafiq siyasət hazırlaya və həyata keçirə bilər.

Bu gün təhsil proqramında yeni bir paradiqma var. Bu, mühitin dəyişməsindən irəli gəlir. Xüsusilə İT texnologiyasının yenilikçi inkişafı və müvafiq kompetensiyalara olan ehtiyac bu dəyişiklikləri təşviq edir. Hər bir təhsil müəssisəsinin tədris proqramı öz məzunlarının məşğulluğunu artırmaq üçün bu cür bilik və bacarıqları əhatə etməlidir. Bunun üçün tədris proqramlarının məzmunu tərtib edilərkən əmək bazarının tələblərinin öyrənilməsinə ehtiyac var.

**Tədqiqatın metodikası:** Məqalədə təhlil olunan nəzəri problemlər dünyada tanınmış iqtisadçı alimlərin elmi-nəzəri tədqiqatlarına əsaslanmış və aparılan tədqiqatda öz əksini tapmışdır.Tədqiqatda istifadə olunan praktiki materiallar yerli və xarici ölkələrin rəsmi statistik materiallarından götürülmüşdür.

**Tədqiqatın praktiki əhəmiyyəti**: Aparılan araşdırma nəticəsində müvafiq sektorda tələb olunan bilik, bacarıq və kompetensiyalar müəyyənləşdirilmiş və "Bacarıqlar cüzdanı (Skills Wallet)" formalaşdırılmışdır. Bacarıqlar cüzdanı nəzəri biliklərdən əlavə əmək bazarının tələb etdiyi səriştə və kompetensiyaların əks olunduğu bir sistemdir. Bu sistem əmək bazarı nümayəndələri arasında keçirilən sorğunun nəticəsində müəyyənləşdirilir və tədris planına əlavə edilir. Bacarıqlar cüzdanının əhatə edildiyi tədris proqramını bitirən məzunlar əmək bazarında özlərinə daha asan yer tapırlar. Bu sistem dünya təcrübəsində sınaqdan keçirilmiş və məzunların əmək bazarında rəqabətqabiliyyətliliyinin artmasında əhəmiyyətli dərəcədə rol oynamışdır. Bu səbəbdən, sistemin Azərbaycanın təhsil sistemində tətbiqi perspektivlərinin müəyyənləşdirilməsində nəzəri və praktiki baxımdan əhəmiyyətli ola bilər.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Mükəmməl kadrlara sahib olan hökumət, bu dəyişikliklərə cavab olaraq aktiv şəkildə müvafiq siyasət hazırlaya və həyata keçirə bilər. (Kang, Gi Chang 2000) Bu siyasəti həyata keçirən ölkələrin təcrübəsinin araşdırılması məqsədilə məqalədə Cənubi Koreyanın dövlət qulluğu sistemi nəzərdən keçiriləcək və fərqli nöqtələr Azərbaycanla müqayisə ediləcəkdir. Nəticədə, bu araşdırma, Azərbaycanda dövlət qulluğu sisteminin yaxşılaşdırılmasına kömək edəcək və araşdırma nəticələrinə istinad edilməsi Azərbaycanın inkişafı üçün faydalı olacaq.

Məqalədə innovasiyalı inkişafın strateji planlarının həyata keçirilməsinə kadrların cəlb edilməsi mexanizmi, innovasiyanın regional kadr dəstəyi sisteminin formalaşması mənbələri əhatə olunur.

Bölgələrin və bütövlükdə ölkənin innovativ inkişafı, iqtisadiyyatın modernləşdirilməsi, müəssisələrdə kadrların potensialının artırılması yüksək ixtisaslı kadr hazırlığı üçün regional sistem yaratmadan və strateji planln icrasına kadrları cəlb etmədən mümkün deyil. İnnovasiya fəaliyyətinin kadrlarla təmin edilməsi probleminin həllində müəssisələrin rolu xüsusilə qabarıqdır. Məhz bu səviyyədə kadrların potensialının artırılması üçün strateji planların həyata keçirilməsinə kadrların cəlb edilməsi mexanizmi yaradılmalı və fəaliyyət göstərməlidir. Müəssisədə işləyən insan resurslarının keyfiyyəti ilk növbədə yüksək ixtisaslı kadrların hazırlanması sistemindən asılıdır. Bu sistemin parametrlərini planlaşdırarkən həm peşə təhsili səviyyəsinə, həm də işçilərin şəxsiyyətinə dair tələbləri, ilk növbədə yeniliklərin tətbiqində yaradıcılıq, təşəbbüskarlıq və əzmkarlıq üçün əsas götürülməlidir. Müəssisələrdə yenilikçi fəaliyyətin və onların dəyərinin artırılmasının əsas problemlərindən biri yüksək ixtisaslı kadrların, daha doğrusu, mürəkkəb problemləri effektiv həll edə bilən menecer və komandaların çatışmazlığıdır. Bu vəziyyətdən çıxmaq üçün az xərclə yeniliklərin inkişafı və tətbiqi zamanı və riskləri əhəmiyyətli dərəcədə azaldan hədəfli komanda təlimindən istifadə etmək məqsədəuyğundur. Məqsədli təlim xərclərinin nisbətən az olması, planlaşdırılan yenilikçi layihələrin ən azı bir hissəsi səmərəli şəkildə həyata keçirildiyi təqdirdə dövriyyə və qazanc artımı ilə təmin edilir. Mövcud tədqiqatların təhlili göstərir ki, hazırda tədqiqat mövzusunun aktuallığını müəyyən edən dinamik dəyişən tələblərə cavab verən müəssisələrin innovativ fəaliyyətinin idarə olunması üçün elmi cəhətdən bütöv bir kadr sistemi mövcud deyil.

Texnoloji yenilik, ictimai təşkilatları islahatlara məcbur edən sərhədsiz iqtisadi fəaliyyətlərə aparır. Koreya məsələsində, insan resurslarının idarə edilməsi islahatlarının aparılmasına təkan 1990-cı illərin sonlarındakı iqtisadi böhrandan qaynaqlanır. İqtisadi tənəzzülün məntiqi cavabı rəqabət qabiliyyətini artırmaq üçün dövlət qulluğu islahatını həyata keçirməkdir. Koreyanın dövlət sektorunda yeni dövrlərdən və meyllərdən fəal şəkildə istifadə edilməlidir. Bu cür ekoloji dəyişikliklər çərçivəsində daha səlahiyyətli bir hökumət qurmaq üçün 24 May 1999-cu ildə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradıldı. İslahat tədbirləri arasında açıq bir məşğulluq sisteminin tətbiqi (özəl sektorda kadrların işə götürülməsini təmin etmək üçün), performansla əlaqəli əmək haqqı (dövlət sektorunda rəqabətqabiliyyətliliyi təşviq etmək üçün) və bir çox digər çevik məşğulluq təcrübələri (hökumətdə Koreya insan resursları idarəçiliyini modernləşdirmək üçün) yer alır.

Koreya hökuməti dəyişiklik və yenilik tələb edən qloballaşma və sonsuz rəqabətlə qarşılaşmağa davam edir. Dünyanın hər yerindəki hökumətlər, insan resurslarını hökumətin rəqabət qabiliyyətini təmin edən bir qaynaq olaraq ən başlıca prioritet kimi qiymətləndirirlər. Ancaq keçmişdən bir az fərqli olan tək şey, təşkilati hədəflərə çatmağın strateji baxımından 'insanlara' yaxınlaşmasıdır. İnsan resurslarının idarə olunması artıq passiv və funksional rolla məhdudlaşmır, sonsuz rəqabət şəraitində hökumətin rəqabət qabiliyyətinin mənbəyi kimi insan resurslarının idarə edilməsinə strateji və təşəbbüskar yanaşır.

Bu tədqiqat nəticələrinə əsasən, aşağıdakı siyasət təsirləri nəzərdən keçirilə bilər. Birincisi, insan resurslarının idarə edilməsinin strateji tərəfini vurğulayaraq insan kapitalını gücləndirməkdir. Bu hesabatın digər bir siyasi mənası, hər dövlət qurumu üçün insan resurslarının idarəedilməsi ilə əlaqəli strateji planlaşdırma funksiyasının gücləndirilməsidir. Strateji planlaşdırma hər bir dövlət qurumunun indi harada olduğunu, harada olmaq istədiyini və bu hədəfə necə çatacağını göstərməyə xidmət edir. Strateji planlaşdırmanın gücləndirilməsi insan kapitalının gücləndirilməsi ilə də sıx bağlıdır.

## NƏTİCƏ

Beləliklə, "Bacarıqlar cüzdanı"nın əks olunduğu təlim proqramı çox vacibdir. Bu tədqiqat işi məzunların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qloballaşma, yaradıcılıq və ixtisaslaşma kimi yeni dövr dəyişikliklərini nəzərə alaraq keyfiyyət və bacarıqlarının artırılması baxımından əhəmiyyət kəsb edir. Məzunlar sürətlə dəyişən inzibati mühitdə ölkənin inkişafında mühüm rol oynayırlar. Buna

görə məzunların keyfiyyətləri və imkanları iş sektorunun məhsuldarlığına və rəqabət qabiliyyətinə böyük təsir göstərən əsas dəyişənlərdir. Buna görə ali təhsil müəssisələri öz tələbələrinin təhsili, səriştəsi və savadlılığını davamlı inkişaf etdirməyi hədəfləməlidir.

Bu tədqiqatın əsas məqsədi təhsil proqramını sistemli perspektivdə təhlil etmək və proqramın inkişaf planını təklif etməkdir. Təhlil nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir. Birincisi, təhsil proqramının yenilənməsi insan resursları, maddi ehtiyatlar, informasiya sistemi kimi bir çox amillərin işığında həyata keçirilməlidir. İkincisi, təhsil proqramı sistemi müəssisə, idarəetmə və təhsil metodu baxımından dəyişdirilə bilər. Üçüncüsü, performansın maksimuma çatdırılması, insan əməyinin inkişafı, mənəviyyat və məmnuniyyətin yaxşılaşdırılması kimi bir çox təhsil proqramları da ola bilər. Bu məqamlarla təhsil proqramı sistemi mühitdəki dəyişikliklərin öhdəsindən gələ bilər.

## ƏDƏBİYYAT


1. Choi, Moo Hyun. (2015). “How to Deal with Training on Public Service Value?”, Public HRD, Vol. 70: 48~51.
2. Choi, Yu Sung. (2000). “Ways to Improve Public Officials Training System”, Korea Institute of Public Administration.
3. Kang, Gi Chang. (2000). “Ways to Connect Public Officials Training and Personnel Management,” Research on Korea's Administration, 9 (3): 158~192.
4. Kim, Pan Suk. (1999). “Ways to Enhance Competitiveness in Training,” Education/Training Information, Vol. 37. 32~56.
5. Kim, Young Pyeong. (1997). “Ways to Develop Public Officials Training in the 21st Century - with a Focus on New Training Paradigm,” Seminar on Development of Public Officials Training, COTI.
6. CRENG project official website: www.creng.eu


*UDC 339*

## APPLICATION OF THE "SKILLS WALLET" SYSTEM IN INCREASING THE EMPLOYMENT OF GRADUATES: IN THE EXAMPLE OF SOUTH KOREA

**Mammadova U. D., Mammadov S. D.**

**Summary**.Against the background of rapid economic development in the world, each state strives to achieve innovative development while maintaining its competitiveness. To do this, each government must ensure its sustainable development in accordance with the requirements of modern times. In this regard, the main purpose of the study is to analyze the educational program from a systematic perspective and propose a program development plan.

**Keywords:** innovative development, competitiveness, sustainable development, curriculum, labor market

**№ 2/2021** **səh.19 - 22**

**УДК 339**

**ПРИМЕНЕНИЕ СИСТЕМЫ «НАВЫКОВ КОШЕЛЬКА» В ПОВЫШЕНИИ ЗАНЯТОСТИ ВЫПУСКНИКОВ: НА ПРИМЕРЕ ЮЖНОЙ КОРЕИ**

**Мамедова У.Д., Мамедов С. Д.**

**РЕЗЮМЕ**

**Резюме.** На фоне стремительного экономического развития в мире каждое государство стремится к инновационному развитию при сохранении своей конкурентоспособности. Для этого каждое правительство должно обеспечить свое устойчивое развитие в соответствии с требованиями современности. В связи с этим основной целью исследования является систематический анализ образовательной программы и предложение плана развития программы.

**Ключевые слова*:*** инновационное развитие, конкурентоспособность, устойчивое развитие, учебная программа, рынок труда.

Redaksiyaya daxilolma: 22.07.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.23 - 27

UOT 339

# KƏND TƏSƏRRÜFATI İSTEHSALININ İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNTENSİFİKASİYANIN ROLU.

**Hacıyeva Almaz Faiq qızı**
**Azərbaycan Dövlət Aqrar Universteti**
**Ünvan: Gəncə şəhəri, Adil İsgəndərov küçəsi 64,**
**almaz.haciyeva.96@gmail.ru**

***Xülasə***. *Məqalədə istehsalın intensivləşdirilməsi probleminin aktuallığı, kənd təsərrüfatı istehsalının və xüsusilə bitkiçilikdə intensivləşdirilməsinin mahiyyəti, bitkiçilikdə intensivləşmənin səviyyəsinin qiymətləndirilməsinə metodoloji yanaşmalar, bitkiçilikdə intensivləşdirmənin iqtisadi səmərəliliyinin müəyyən edilməsi üsulları nəzərdən keçirilir.*

***Açar sözlər:*** *aqrar iqtisadiyyat, bitkiçilik, intensifikasiya, istehsal, kənd təsarrüfatı.*

Kənd təsərrüfatı istehsalının səmərəliliyinin yüksəldilməsi ilk növbədə investisiyaların qaytarılmasından və resurslardan səmərəli istifadədən asılıdır. Çoxalma prosesində əsas olan istehsal alt sistemi bunda mühüm rol oynayır. İntensivlik problemi səmərəlilik problemi ilə sıx bağlıdır. İntensivləşdirmə ümumilikdə kənd təsərrüfatında istehsalın, təkrar istehsal proseslərinin səmərəliliyinin artırılmasında ən mühüm amildir. Lakin aqrar sahənin spesifikliyi intensivləşdirmə problemini müstəqil bir problemə ayırmağı zəruri edir.

Azərbaycan iqtisadiyyatının müasir vəziyyətində, dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə əlaqədar intensivləşmə problemi xüsusilə aktuallaşır. Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin yaranması, kənd təsərrüfatında bazar mexanizmlərinin inkişaf etməməsi, uzun sürən iqtisadi böhran kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi məsələlərinin öyrənilməsinin spesifik xüsusiyyətlərini nəzərə almağı, bu istiqamətdə aparılan tədqiqatların aktuallığını artırmağı zəruri edir.Əhalinin ərzaqla, sənayenin xammalla daha dolğun təminatı üçün kənd təsərrüfatı məhsullarına artan tələbat kənd təsərrüfatı istehsalının həcminin artırılmasının obyektiv ehtiyacını müəyyən edir.

İqtisadi ədəbiyyatda təkrar istehsalın ekstensiv və intensiv formalarında iki yol vardır. İntensivləşmə probleminin öyrənilməsi çoxalmanın ekstensiv və intensiv istiqamətləri arasında xarakterik fərqlərin müəyyən edilməsini tələb edir.

A.V.Çereşnev hesab edir ki, "...intensivləşmə istehsalın səmərəliliyini daha da artıran əsas amil olsa da, müstəqil problemdir. Bundan əlavə, aqrar sektorda intensivləşmə prosesi spesifikdir ki, bu da əlavə olaraq bu problemin müstəqil bir problemə ayrılması zərurətindən xəbər verir. Bununla belə, intensivləşdirmə tədqiqatları aqrar sahədə başqa obyektiv iqtisadi qanunlarla geniş təkrar istehsal yolları olan bir sistemdə aparılmalıdır.[1].

Müasir dövrdə kənd təsərrüfatının inkişafının əsas və ən perspektivli istiqaməti onun intensivləşdirilməsidir. İ.A. Minakov hesab edir ki, "... kənd təsərrüfatının intensivləşdirilməsinin obyektiv ilkin şərtləri bunlardır:

-kənd təsərrüfatına yararlı torpaqların məhdudluğu,

-istehsal qüvvələrinin inkişafı, torpaqların becərilməsi alət və vasitələrinin təkmilləşdirilməsi,

-ictimai əmək bölgüsü, şəhər əhalisinin artması, kənd təsərrüfatı məhsullarına ehtiyac. [2].

Bitkiçilik sənayesinin intensivləşməsi torpaq vahidi üçün əmək, maddi və digər resursların məsrəflərinin artmasıdır, yəni mahiyyət etibarı ilə bu sənayedə əsas resursdan - torpaqdan istifadə intensivliyinin artması ilə nəticələnir.

**Mövzunun aktuallığı.**Kənd təsərrüfatının intensivləşdirilməsi təkcə həyati vacib iqtisadi strategiya deyil, həm də bir çox cəhətdən sosial strategiyadır. Nəzər salaq ki kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi əsasında formalaşması və inkişafı müəssisənin rentabelli işləməsini təmin edir, bu da kənd əhalisinin yaşayış səviyyəsinə mübət təsir edecekdir.Milli ərzaq təhlükəsizliyinin əldə edilmiş

№ 2/2021 səh.23 - 27

səviyyəsini qorumaq və genişləndirilmiş istehsalın müvafiq tempini təmin etmək üçün kifayət qədər gəlir əldə etmək üçün nəinki istehsalın və məhsulların ixracının həcmini daha yüksək sürətlə artırmağa, həm də kənd təsərrüfatı biznesinin aparılmasının ən son texniki-texnoloji və digər xüsusiyyətləri nəzərə alınmaqla kənd təsərrüfatı istehsalının idarə edilməsi və təşkilini innovasiyalardan daha geniş istifadə etməyə imkan verəcəkdir.

**Tədqiqatın məqsədi.**Tədqiqatının məqsədi kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin mahiyyətini onun sistemli meyar qiymətləndirməsini və spesifik xüsusiyyətlərini nəzərə almaqla aydınlaşdırmaq və əsaslandırmaqdan, habelə əsas istiqamətlər üzrə nəzəri və praktiki xarakterli təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqat obyekti.** İqtisadi sistemlərin transformasiyası kontekstində intensivləşmə proseslərinin qiymətləndirilməsi nöqteyi-nəzərindən AR iqtisadiyyatı miqyasında və regional səviyyədə kənd təsərrüfatı müəssisələri idi.

**Tədqiqat metodları.**Tədqiqat işində nəzərivəstatistik metodlardan istifadə edilmişdir.

**Materiallar və müzakirələr**

İntensivləşmə səviyyəsini öyrənmək üçün qrupun hansı səbəblərinin ona təsir etdiyini müəyyən etmək lazımdır. Gücləndirici amillər bir-biri ilə əlaqəlidir və onun mahiyyətindən və həyata keçirilməsinin məqsədlərindən irəli gəlir. Beləliklə, fikrimizcə üç qrup amili ayırmaq olar. Birinci qrupun amilləri istehsalın artımını və dayanıqlığını müəyyən edir (bitkiçilikdə: gübrələrdən istifadə, toxumçuluqda kənd təsərrüfatı təcrübəsinin təkmilləşdirilməsi).İkinci qrup amillər istehsalda əmək məsrəflərinin azaldılmasını təmin edir (mexanikləşdirmə və elektrikləşdirmə, əməyin təşkili və ödənilməsinin təkmilləşdirilməsi).Üçüncü qrup amilləri istehsal ehtiyatlarından səmərəli istifadə üçün əlverişli şərait yaradır (ixtisaslaşma, təmərküzləşmə və kooperasiya, mülkiyyət və təsərrüfat idarəetmə formalarının təkmilləşdirilməsi).Bu amillər intensivləşmənin daha çox ehtimal olunan istiqamətləridir.

Verilmiş amillər sistemi həm də sənayeləşmənin istiqamətləridir və təsərrüfat münasibətlərinin kökündən yenidən qurulması və intensiv resursa qənaət edən texnologiyaların inkişafı kompleks proqramlar olduğu halda, yetişdirilən məhsulların qorunması, kimya və meliorasiyanı ayrıca fəaliyyət adlandırmaq olar.Mövcud yanaşmaların çatışmazlıqlarını və müsbət cəhətlərini nəzərə alaraq, tədqiq olunan materialı ümumiləşdirərək, kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin əsas amilini aşağıdakılar adlandırmaq olar:

-onların ənməhdud (torpaq) vahidinə düşənresursunartırılmasındanibarət əlavə investisiyalar,

-ehtiyatlardanistifadənintəşkili, onlarınayrı-ayrı növlərinin, ocümlədən əlavə hissəsində birləşməsininyaxşılaşdırılması;

- elmi-texnikitərəqqininnailiyyətləri əsasındaresurslarınkeyfiyyətininyüksəldilməsi. [6].

İntensivləşdirmənin iqtisadi səmərəliliyinin müəyyən edilməsinə sistemli yanaşma geniş vüsət almışdır. Belə ki, M.F. Kovaleva hesab edir ki, “metodoloji aspektdə sistem bütövlükdə effektivdir”.[3] M.V Svobodina da intensivləşdirmənin effektivlik göstəriciləri ilə ümumilikdə səmərəlilik göstəriciləri arasında fərq qoymur. Onun təklif etdiyi sistemə bitkiçilik üçün aşağıdakı elementlər daxildir:

1) texnoloji səmərəliliyin göstəriciləri. Onlar təsərrüfat sisteminin elementlərinin səmərəliliyini qiymətləndirmək üçün istifadə olunur və istehsal prosesində kənd təsərrüfatı, əmək və maddi ehtiyatlardan istifadə dərəcəsini əks etdirir;

2) iqtisadi səmərəliliyin göstəriciləri. Məhsulun istehsalı və satışı prosesində istehsal münasibətlərini, təkrar istehsal prosesinin həyata keçirilməsi imkanlarını əks etdirmək və dəyər göstəriciləri ilə ölçülür;

3) sosial fəaliyyətin göstəriciləri. Onlar bu mürəkkəb iqtisadi kateqoriyanı əks etdirən müxtəlif göstəricilərə görə əhalinin standart həyat səviyyəsinə nail olma dərəcəsini xarakterizə edir;

4) sosial fəaliyyətin göstəriciləri. Onlar təbiəti mühafizə tədbirlərinin effektivliyini, onların təbii mühitin vəziyyətinə, istehsal olunan məhsulların keyfiyyətinə, ekoloji resurs potensialının elementlərinə təsirini qiymətləndirmək üçün istifadə olunur;

5) bazar münasibətlərinin səmərəliliyinin göstəriciləri, sənayenin əsas vəzifələrini həll etmə dərəcəsini xarakterizə edir;[4].

**№ 2/2021** **səh.23 - 27**

Bu yanaşma intensivləşdirmə prosesinin istehsalın iqtisadi səmərəliliyinə təsirini müəyyən etməyə imkan vermir.

V.A.İvanov hesab edir ki, kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyi və intensivləşdirilməsi meyarı istehsal obyektinin vahidindən əldə edilən effektin bu nəticənin istehsalı üçün maddiləşmiş əməyin maya dəyərinə nisbətinin əvvəlki ilə müqayisədə üstələməsi və ya bərabər artmasıdır.[5].İntensivləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsindən əvvəl müvafiq nisbət . Bu bəyanat əlavə investisiyalar üzrə gəlirlərin azalması qanununa zidd olacaq, çünki bu, iqtisadi effektin onun xərclərinə səbəb olan artıma nisbətdə artmasını nəzərdə tutur.

Bundan çıxış edərək, bitkiçiliyin intensivləşdirilməsinin iqtisadi səmərəliliyinin artırılmasının əsas istiqamətləri aşağıdakılardan ibarət olmalıdır: - elmi-texniki tərəqqinin ən son nailiyyətlərinə əsaslanan kompleks mexanizasiya, - rasional kimyalaşdırma, - torpaqların əsaslandırılmış meliorasiyası, - aqrotexniki işlərin təkmilləşdirilməsi (kənd təsərrüfatı bitkilərinin becərilməsinin mütərəqqi üsullarının tətbiqi; məhsulun saxlanması zamanı itkilərin azaldılması); Daha məhsuldar bitkilərin və sortların tətbiqi - toxumçuluğun yaxşılaşdırılması. Əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Onların optimal ölçüsünü və quruluşunu müəyyən etmək lazımdır.

Kənd təsərrüfatı məhsullarının ümumi həcmi 2016-2020-ci illər ərzində faktiki qiymətlərlə 1.5 dəfə (real ifadədə 49.6%) artmışdır. O cümlədən bitkiçilik və heyvandarlıq məhsulları istehsalında faktiki artım həmin dövrlərə müvafiq olaraq 1.6 və 1.4 dəfə (real artım isə müvafiq olaraq 56.3% və 44% faiz) artım olmuşdur (şəkil 1).




Şəkil 1

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [7]

Cədvəl 2.

Bitkiçilik məhsullarının növlər üzrə istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə min ton.

| İllər | Dənlilər və dənlipaxlalılar | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan məhsulları |
|---|---|---|---|---|---|---|
| 2016 | 3065,1 | 89,4 | 3.6 | 902,4 | 1270,6 | 464,8 |
| 2017 | 2928,8 | 207,5 | 5.3 | 913,9 | 1405,6 | 438,1 |
| 2018 | 3309,2 | 233,6 | 6.3 | 898,9 | 1521,9 | 401,9 |
| 2019 | 3538,5 | 295,3 | 6.0 | 1004,2 | 1714,7 | 447,6 |
| 2020 | 3257,1 | 336,8 | 6.9 | 1037,6 | 1738,9 | 448,1 |

**№ 2/2021** **səh.23 - 27**

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [7].

Cədvəl 2-də isə fərqli olaraq müxtəlif illər üzrə bitkiçilik məhsullarınınnövlər üzrə istehsalının dinamikası əks olunmuşdur. Son 5 il ərzində kartof istehsalında 135.2 min ton (14 %) artim müşahidə olunur. Bostan çəhsullarında isə nisbətən azalma baş verib (4%). O cümlədən pambıq və tütün məhsulları istehsalında ən kəskin artım məhsullara müvafiq olaraq 3.8 və 1.9dəfə təşkil etmişdir. 2016-2020 –cı illər ərzində tərəvəz istehsalı 37 % artaraq 1738.9 min ton çatmışdir. 2020-ci il dinamikasına nəzərən qeyd etmək olar ki, əksər istehsal növlərində əvvəlki illərdə olduğu kimi artım nəzərəçarpan dərəcədə müşahidə edilir.Lakin dənlilər və dənli paxlalılaristehsalında digər bitki məhsullarından fərqli olaraq əvvəlki illərə nisbətən kəskin azalma vardır.

## NƏTİCƏ

1. İntensivləşdirmənin mühüm amili kimi elmi-texniki nailiyyətlərin kənd təsərrüfatında tətbiqi, istehsalın həcminin artırılması baxımından digər faktorlarla müqayisədə daha böyük təsir gücünə malik olmalıdır.

2. İstehsalın intensivləşdirilməsi üçün kənd təsərrüfatında əkinə yararlı torpaqların əkin üçün hazırlanması, əkin matreallarının səpilməsi və yığılması və s. kimi əsas tarla işlərinin tamamilə mexanikləşdirilməsi vacibdir.

3. Kənd təsərrüfatında elmi-texniki tərəqqinin inkişaf etdirilməsi, kənd təsərrüfatı istehsalına kapital və investisiya qoyuluşlarının artımına nail olunması, kənd təsərrüfatının maddi texniki bazasının idarə olunması, istehsal proseslərinin mexanikləşdirilmə səviyyəsinin yüksəldilməsi aqrar sahənin intensiv inkişaf səviyyəsinin və ərzaq məhsulları istehsalının artırılmasına təkan verir.

4. Becərmə işlərinin yaxşılaşdırılması, meliorasiya işlərinin yerinə yetirilmə səviyyəsinin yüksəldilməsi, kompleks aqrotexniki tədbirlərin yerinə yetirilməsi torpağın iqtisadi münbitliyinin yüksəlməsinə və sahə vahidindən əkinçilik və heyvandarlıq məhsullarının artımına böyük təkan verə bilər.

5. Kənd təsərrüfatı bitkilərinin əkinlərində yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün kimyalaşdırılma səviyyəsinin yüksəldilməsinə (torpağa mineral gübrələrin verilməsinin və bitkilərin mühafizəsi məqsədilə istifadə edilən vasitələrin artırılması) xüsusi diqqət verilməlidir.

6. Ölkədə aqrar sahədə müxtəlif fəaliyyət istiqamətləri qlobal iqlim dəyişikliklərinə (yüksək temperatur, ekstremal hava şəraitinə) adaptasiya olunmalıdır. Müxtəlif iqlim faktorlarının bitkiçilik və heyvandarlıq sahələrində məhsuldarlığın aşağı düşməsinə səbəb olduğu nəzərə alınmalı, bu dəyişikliklərə uyğunlaşdırılmış bitki sortlarının və heyvan cinslərinin tətbiqi genişləndirilməlidir.

**Tədqiqatın elmi yeniliyi. Aşağıdakılardır**:

-İstehsalın iqtisadi səmərəliliyinin statistik öyrənilməsinin zəruriliyi əsaslandırılmışdır;

-Kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyinin müasir vəziyyətinin statistik təhlili verilmişdir;

-İqtisadi səmərəliliyin yüksəldilməsinin kənd təsərrüfatı istehsalına təsirinin statistik təhlili edilmişdir;

-Kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyi proqnozlaşdırılmışdır.

## ƏDƏBİYYAT

№ 2/2021 səh.23 - 27

1. Черешнов, А.В. Интенсификация сельского хозяйства на современном этапе/ А.В. Черешнов. Ростов н/Д: Изд-во РГУ, 2006.144 с.
2. Экономика сельского хозяйства / И.А. Минаков, [и др.]; под ред. И.А. Минакова. М.: Колос, 2007.328с.
3. Коваленко, Н.Я. Экономика сельского хозяйства с основами аграрных рынков: курс лекций/ Н.Я.Коваленко. М.: Ассоциация авторов и издателей <<ТАНДЕМ>>; Изд-во ЭКМОС, 2007. 448 с.
4. Свободина, М.В. Интенсификация сельского хозяйства в рыночных условиях/ М.В. Свободина.М., 2004. 218 с.
5. Иванов, В.А. Интенсификация сельскохозяйственного производства: проблемы развития и эффективности/ В.А. Иванов; отв.ред.д-р экон. Наук И.В Русинов. М.: Наука, 2008.198 с.
6. Фирдовси .Ф.Ф - научная статья/Устойчивая интенсификация в сельском хозяйстве возможности в условиях постранcформационной реинтенсификации/ www.agroeconomics.az- 30.07.2020
7. www.stat.gov.az

**УДК 339**

## РОЛЬ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ИНТЕНСИФИКАЦИЮ РАСТЕНИЕВОДСВА

**Гаджиева А.Ф.**

**Резюме:** В статье рассматривается актуальность проблемы интенсификации производства, сущность интенсификации сельскохозяйственного производства и особенно в растениеводстве, методические подходы к оценке уровня интенсификации в растениеводстве, методы определения экономической эффективности интенсификации в растениеводстве. производство.
**Ключевые слова:** аграрная экономика, растениеводство, интенсификация, производство, сельское хозяйство.

**UDC 339**

## ROLE OF FACTORS INFLUENCING INTENSIFICATION OF CROP PRODUCTION

**Hajiyeva A.F.**

**Abstract**: The article considers the urgency of the problem of intensification of production, the essence of intensification of agricultural production and especially in crop production, methodological approaches to assessing the level of intensification in crop production, methods of determining the economic efficiency of intensification in crop production.
**Keywords**. Agrarian economy, crop production, intensification, production, agriculture.

Redaksiyaya daxilolma: 01.10.2021
Çapa qəbul olunma: 11.12.2021

**№ 2/2021** **səh.28 - 32**

**UOT 631.16; 658.14**

**Kənd təsərrüfatına maliyyə dəstəyiiqtisadi stimullaşdırma Mexanizminin tərkib hissəsi kimi**

**Mirzəyev İlkin Şakir oğlu**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**
**suliddinoqlu@mail.ru**

**Xülasə.***Kənd təsərrüfatına dövlətin maliyyə dəstəyi aqrar siyasətin prioritet istiqamətlərindən olub, iqtisadi və sosial sabitliyin təmin olunmasını nəzərdə tutur. Bu baxımdan dövlət effektiv dəstək tədbirlərindən istifadə etməklə kənd təsərrüfatındaistehsal potensialını yaxşılaşdırmağa, maddi-texniki bazanı inkişaf etdirməyə, məhsullara effektiv tələbatı formalaşdırmağa,nəticə etibarilə iqtisadiyyatın bu mühüm sferasını stimullaşdırmaqla inkişaf tendensiyasının dayanıqlığını təmin etməyə çalışır. Məqalədə iqtisadi stimullaşdırma mexanizminin tərkib hissəsi olan maliyyə yardımlarında səmərəli nəticələrin əldə edilməsi ilə bağlı məsələlər kompleks şəkildə araşdırılır.*

**Açar sözlər:***maliyyə dəstəyi, ərzaq təhlükəsizliyi, stimullaşdırma, subsidiya, kredit.*

**Giriş.**Dövlətin aqrar sferadakı başlıca məqsədi əsasən yerli istehsalın stimullaşdırılması, istehsalın şaxələndirilməsinin təşviq edilməsi, ixrac yönümlü strategiyaların hazırlanması və iqtisadi inkişafın davamlılığına yönəldilmiş dəstək tədbirlərinin reallaşdırılması hesabına ərzaq təhlükəsizliyinə nail olmaqdır. Bu hədəflər ilk növbədə kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların verilməsi, güzəştli tariflərlə maliyyələşmə imkanlarının yaradılması, zəruri istehsal və sosial infrastrukturun və ixraca dəstək tədbirlərinin həyata keçirilməsi vasitəsilə mümkündür.

Kənd təsərrüfatına dövlət dəstəyi ölkələrin aqrar siyasətinin prioritet istiqamətlərindən biridir. Beynəlxalq təcrübə göstərir ki, dövlət hər zaman kənd təsərrüfatının inkişafını müxtəlif səviyyələrdə stimullaşdırmağa çalışır. Məlumdur ki, effektiv stimullaşdırma siyasəti olmadan kənd təsərrüfatı nə iqtisadi, nə də ki, sosial missiyasını yerinə yetirə bilməz[2, s.51]. Ona görə dövlət zəruri və effektiv dəstək tədbirlərindən istifadə etməklə kənd təsərrüfatında baş verən mənfi dəyişikliklərin qarşısını almağa, istehsal potensialını yaxşılaşdırmağa, maddi-texniki bazanı inkişaf etdirməyə, məhsullara effektiv tələbatı müəyyənləşdirən əhalinin real gəlirlərini artırmağa, habelə kənd təsərrüfatı məhsulları bazarının səmərəli fəaliyyətini təmin etməyə çalışmaqla iqtisadiyyatın bu mühüm sferasının inkişaf tendensiyasının dayanıqlığını təmin etməyi hədəfləyir.

**Mövzunun aktuallığı.**Aqrar sahənin stimullaşdırılması mexanizminin əsas istiqamətlərindən olan dövlətin dəstək tədbirləri içərisində maliyyə mexanizmi effektivliyi fərqlənir. Belə ki, maliyyə dəstəyi kənd təsərrüfatı məhsulları istehsalçılarının əvəzsiz olaraq və ya güzəştli şərtlərlə aldıqları vəsait və faydaları əks etdirir. Maliyyə dəstəyinin effektivliyi aşağıdakılarla xarakterizə olunur: müəyyən bir fəaliyyətin nəticəsinin səmərəliliyi; nəticənin və ya prosesin mümkün, ideal və ya planlaşdırılmış maksimuma səviyyəsinə uyğunluğu; istehsal sistemlərin funksional müxtəlifliyi; qənaətbəxş fəaliyyətin xüsusiyyətləri; hədəflərə və funksiyalara çatma ehtimalı; real və tələb olunan effektin əldə edilməsi imkanları. Maliyyə dəstəyi hesabına əldə olunan səmərəni aşağıdakı göstəricilərə əsasən qiymətləndirmək olar: hər hektar kənd təsərrüfatına yararlı torpağa görə subsidiyaların həcmi; kənd təsərrüfatı müəssisələrinin bütün fəaliyyətlərindən əldə olunan mənfəət; hər hektara görə büdcədən ayrılan dotasiyalar; əldə edilən xalis mənfəət və s.

Təhlillər göstərir ki, kənd təsərrüfatına dəstək istiqamətli aqrar siyasətin yetərli olmadığı şəraitdə, idarəetmə sistemində ciddi dəyişikliklərin həyata keçirilməsinə ehtiyac yaranır[4, s.761]. Ümumiyyətli, aqrar siyasətin təkmilləşdirilməsi kənd təsərrüfatının rəqabətə davamlığının təmin edilməsi və dayanıqlığı üçün ilkin şərtdir. Bu problemlərin həlli məhz aqrar sahəyə dövlətin maliyyə dəstəyi hesabına mümkündür. Təbii ki, maliyyə yardımlarında səmərəli nəticələrin əldə edilməsi, kənd təsərrüfatı istehsalçılarına məlumat, hüquqi, innovativ texnologiyalar, marketinq və digər sahələrdə dəstək

**№ 2/2021** **səh.28 - 32**

tədbirlərinin həyata keçirilməsini tələb edir. Göstərilənləri nəzərə almaqla iqtisadi stimullaşdırma mexanizminin əsas elementlərindən olanmaliyyə dəstəyinin inkişaf tendensiyalarınıntədqiqi aktuallığı ilə seçilir.

**Tədqiqatın məqsədi.**Kənd təsərrüfatının stimullaşdırılması mexanizmində əsas rol oynayan dövlətin maliyyə dəstəyinin inkişaf tendensiyalarını tədqiq etməklə bu sahədəki problemləri araşdırmaq və daha təkmil maliyyələşmə tədbirlərini müəyyənləşdirmək tədqiqatın əsas məqsədidir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Kənd təsərrüfatının iqtisadiyyatına göstərilən maliyyə dəstəyi, ayrı-ayrı istehsal sahələrinin zəruri rəqabət səviyyəsinə çatması üçün əlavə imkanlar yaradır. Nəzərə alsaq ki, kənd təsərrüfatı müəssisələri bir çox bazarlar üçün potensial olaraq məhsul və xidmətlər istehsal etməklə məşğuldur, bu zaman sahəyə maliyyə dəstəyinin nə qədər önəmli olduğunu qeyd etmək olar.

Araşdırmalar göstərir ki, stimullaşdırma mexanizmi kimi dövlətin maliyyə dəstəyinin prioritetlərini müəyyənləşdirmək üçün ilk növbədə kənd təsərrüfatının mövcud vəziyyətini xarakterizə edən göstəricilərə diqqət yetrimək vacibdir. Bu göstəricilər aqrar sahənin müəyyən bir dövrdə inkişafını kəmiyyət və keyfiyyət baxımından xarakterizə edir. Beləliklə, dövlətin aqrar sferanın inkişafı üçün tam əlverişli şərait yaratması ilə bağlı aşağıdakı vəzifələrin həlli vacibdir: dövlətin ərzaq təhlükəsizliyini təmin etmək; kənd təsərrüfatı istehsalı və hazır məhsulların artımını stimullaşdırmaq; kənd təsərrüfatı istehsalını dəstəkləmək; məhsulların emalı, saxlanması və satışı mərhələlərində aqrar-sənaye inteqrasiyasının və kənd təsərrüfatı kooperasiyasının inkişafına kömək etmək; kənd təsərrüfatında bazar tədqiqatlarını genişləndirmək və effektiv idarəetmənin innovativ modellərini yaratmaq; kənd təsərrüfatı istehsalına dövlət dəstəyini gücləndirmək. Bu cür məsələlərin həlli məqsədilə son illər zəruri tədbirlər görülmüş, "kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, texnikanın və damazlıq heyvanların lizinq vasitəsilə güzəştli satışı mexanizminin təkmilləşdirilməsi, özəl aqrotexniki xidmətlərin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı prinsipi tətbiq edilməklə güzəştlərə yönəldilən büdcə vəsaitindən səmərəli istifadə məqsədilə" "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti müvafiq fərman imzalamışdır[1]. Belə tədbirlər öz nəticələrini son illər kənd təsərrüfatına yönəldilən maliyyə yardımlarının səviyyəsində biruzə verməkdədir. Araşdırmalar göstərir ki, kənd təsərrüfatına müxtəlif istiqamətlər üzrə ayrılansubsidiyaların həcmi əhəmiyyətli dərəcədə artmaqdadır. Belə ki, son illər "Aqrolizinq" ASC tərəfindən satılan və lizinqə verilən kənd təsərrüfatı texnikasına tətbiq edilən güzəştin həcmi 2,8 dəfə, "Aqrolizinq""ASC xətti ilə damazlıq heyvanların satışına tətbiq edilən güzəştin həcmi 89,4%, 1-ci və 2-ci reproduksiyalı toxum və ting istehsalçılarına subsidiyalar 30,3%, buğda və çəltik istehsalçılarına subsidiya (hər hektara görə 40 manat ) 36,2%, bütün növ yaş baramanın hər kq-na görə 5 manat subsidiya verilməsi 2,1 dəfə artmışdır. Qeyd edilən istiqamətlərdə "Aqrolizinq" ASC tərəfindən satılan və lizinqə verilən kənd təsərrüfatı texnikasına tətbiq edilən güzəştin xüsusi çəkisi daha yüksəkdir - müvafiq olaraq 15,4% və 25,7%. Eləcə də mineral gübrələrin və biohumusların dəyərinin 70 faizinin ödənilməsi və yanacaq və motor yağlarına görə subsidiya (hər hektara görə 50 manat) daha yüksək paya malik olmuşdur –bu subsidiyaların xüsusi çəkisi 29,8% və 17,7% səviyyəsində qeydə alınmışdır [6].

Göründüyü kimi, hazırda dövlət kənd təsərrüfatını dəstəkləmək üçün fəaliyyətini əhəmiyyətli dərəcədə intensivləşdirmişdir. Lakin kənd təsərrüfatının inkişafı üçün maliyyə mexanzimləri də daxil olmaqla dövlət dəstəyinə hələ də ehtiyac duyulur. Çünki araşdırmaların göstərdiyi kimi kənd təsərrüfatının maliyyə nəticələri istehsalçıların maraqlarını tam şəkildə təmin etmir. Bu baxımdan aqrar sahənin fəaliyyətinin səmərəliliyinin artımını stimullaşdırmaq üçün əlverişli imkanların yaradılmasını tələb edən aşağıdakı xüsusiyyətləri nəzərə almaq vacibdir: təbii və iqlim amillərinin təsirini nəzərə almaqla dövlətin birbaşa iştirakı ilə təkmil sığorta sisteminin yaradılması; bazar şərtlərindən asılı olan dalğalanmaların tənzimlənməsi; kənd təsərrüfatı məhsullarına tələbin aşağı elastikliyi ilə xarakterizə olunan qiymətlərin dəyişkənliyinin nəzərə alınması; iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatı istehsalının aşağı səviyyədə inhisarlaşması; kənd təsərrüfatına kapital axınının intensivliyinin aşağı səviyyədə olması və s.[3, s.167-168]

№ 2/2021 səh.28 - 32

Kənd təsərrüfatının stimullaşdırılmasına xidmət edən maliyyə dəstəyi mexanizmi iki əsas istiqaməti əhatə edir:

- kənd təsərrüfatı istehsalı - kreditlər faizləri üzrə ödəmələrin müəyyən bir hissəsi üçün subsidiyalar; heyvandarlığın inkişafına yönəlilən subsidiyalar; məhsul istehsalına dəstək, o cümlədən sığorta xərclərinin bir hissəsi üçün kompensasiyaların verilməsi; bitki mühafizə vasitələrinin və gübrələrin alınması üçün subsidiyalar; əkinlər, çoxillik əkmələr və texniki resurslarla bağlı yardımlar; kənd təsərrüfatı istehsalçılarına məsləhət xidməti köməyi və s;
- sosial sahə - gənc mütəxəssislərə mənzil alınması və ya mənzil tikintisi üçün subsidiyalar; qazlaşdırma, su təchizatı, yol tikintisi və elektrikləşdirmə məqsədli maliyyələşdirilmə tədbirləri və s.

## Nəticələr

Kənd təsərrüfatının stimullaşdırılması, o cümlədən maliyyə dəstəyinin prioritet vəzifələri sırasına maddi-texniki bazanın formalaşdırılması, kənd təsərrüfatına infrastruktur, hüquqi, elmi və kadr dəstəyi, xarici iqtisadi fəaliyyətin inkişafına dəstək, birbaşa maddi yardımlar da daxildir. Beynəlxalq təcrübə göstərir ki, dövlət dəstəyinin inkişafına dair prioritet istiqamətlərin müəyyənləşdirilməsində nəzərdə tutulan tədbirlərin elmi cəhətdən əsaslandırılması vacib məsələlərdəndir. Həmin istiqamətlər aşağıdakılarla xarakterizə olunur:

- aqrar sektorun innovativ baxımdan yenilənməsi strategiyasını hazırlamaq və həyata keçirmək, bu əsasda strateji məhsulların rəqabət qabiliyyətliliyini və istehsal subyektlərinin rəqabətə davamlılığını təmin etmək;
- kənd təsərrüfatının təşəbbüskar strukturlarının rəqabət qabiliyyətli məhsul istehsalına yönəldilməsi stimullaşdırma metodları və alətlərinin köməyi ilə bazar münasibətləri sisteminə inteqrasiyasının sürətləndirilməsinə kömək;
- mikro və makro səviyyəli iqtisadi strukturların milli və beynəlxalq ərzaq bazarlarında davamlı rəqabət üstünlüklərinə nail olmasını, iqtisadiyyatın aqrar-ərzaq sektorunun bütün sahələrinin kompleks inkişafını təmin etmək;
- kənd təsərrüfatının istehsal potensialından maksimum və səmərəli istifadə edilməsini stimullaşdırmaq;
- kənd təsərrüfatı strukturlarının maddi-texniki təminatı üçün zəruri şəraitin yaradılmasını və texniki bazasının yenilənməsini təmin etmək;
- subsidiyaların diferensiallaşdırılması və kənd təsərrüfatı texnikasının lizinqinin inkişafı ilə bağlı zəruri qaydaların davamlı olaraq təkmilləşdirilməsi;
- son məhsul istehsalı üçün maliyyə və maddi resursların əldə edilməsi, bölgüsü və rasional istifadəsi sisteminin fəaliyyətini təmin edən inteqrasiya edilmiş strukturların inkişaf etdirilməsi.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatına maliyyə dəstəyi dar istiqamətlərdə deyil, hərtərəfli şəkildə həyata keçirilməlidir. Aydındır ki, yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalı ölkə iqtisadiyyatını daha yüksək səviyyəyə gətirib çıxara bilər. Maliyyə dəstəyi, eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalçıları üçün də əlverişli şərait yaradır, yerli məhsulların dünya bazarları səviyyəsində rəqabət üstünlüklərini formalaşdırır[5, s.29]. Vurğulamaq vacibdir ki, iqtisadiyyatın aqrar sektoruna maliyyə dəstəyinin əsas məqsədlərindən biri məhz ixrac potensialının artırılmasıdır ki, bu da ölkənin dünya aqrar ərzaq bazarında layiqli yerini tutmasına imkan verir. Beləliklə, kənd təsərrüfatına inkişaf effekti yaratmağı hədəfləyən büdcə subsidiyaları eyni vaxtda bir neçə problemi həll etməyə zəmin yaradır. Bütün bunlar, dövlətin maliyyə dəstəyinin kənd təsərrüfatının uğurlu və effektiv inkişafında vacib və ayrılmaz bir vasitə olduğunu qeyd etməyə əsas verir. Göstərilənlərdən aydın olur ki, müasir şəraitdə dövlətin maliyyə dəstəyi, effektiv aqrar siyasətin formalaşdırlmasında ən vacib vəzifəyə çevrilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatının iqtisadi inkişafında stimullaşdırma elementi kimi maliyyələşmə mexanizminin rolu müəyyənləşdirilmişdir;
- aqrar sahəyə dövlət dəstəyimexanizminin əsas aspektlərimüəyyən edilmişdir;
- maliyyəresurslardan istifadənin effektivlik neyarları müəyyən olunmuşdur;

- aqrar sahəyə maliyyə dəstəyininəsas istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti mühüm stimullaşdırma elementi olan maliyyə dəstəyi mexanizmindən səmərəli istifadə etməklə kənd təsərrüfatının inkişafı, həmçinin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində maliyyə resurslarından effektiv istifadə imkanlarının müəyyənləşdirilməsi iləifadə olunur.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Aqrar subyektlərin maliyyə resurslarına tələbatının ödənilməsi və istehsalıneffektivliyinin təmin olunması perspektivlərinin müəyyən edilməsi araşdırmanın iqtisadi əsasını təşkil edir. Bu baxımdan maliyyəmexanizminin inkişafı, bu sahədə innovativ texnologiyalardan istifadə aqrar sferanın stimullaşdırılmasında mühüm rol oynamaqla bu sahəniniqtisadi inkişafına ciddi təsir göstərə bilər.

Ədəbiyyat

1. “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin19 dekabr 2018-ci il tarixli fərmanı.

2. Бондин И.А. Направления государственной поддержки сельхозтоваропроизводителей / И. А. Бондин, Н.Н. Бондина // Региональная экономика. - 2014. - № 28 (335). - с. 48-55.

3. Мартынушкин А.Б. Экономика сельского хозяйства в период трансформационных изменений // Казанская наука. 2010. № 10. С. 166-168.

4. Сираева Р.Р. Государственная поддержка сельского хозяйства необходима // Экономика и социум. 2014. № 1-2. С. 759-761.

5. Кравченко Н.П. Проблемы развития инвестиционных процессов в аграрном секторе экономики / Н.П. Кравченко, И.А. Бурса // Экономика сельскохозяйственных и перерабатывающих предприятий. - 2016. - № 1. - с. 29-32.

6. https://agro.gov.az/az

**UDC 631.16; 658.14**

**Financial support for agriculture as part of the economic stimulation mechanism**

**Mirzayev I. Sh.**

**Summary**. State financial support for agriculture is one of the priorities of agrarian policy and aims to ensure economic and social stability. In this regard, the state seeks to improve the production capacity of agriculture through the use of effective support measures, develop the material and technical base, form an effective demand for products, and ultimately ensure the sustainability of development trends by stimulating this important sector of the economy. The article comprehensively examines the issues related to achieving effective results in financial assistance, which is part of the economic incentive mechanism.

**Keywords**: financial support, food security, incentives, subsidies, credit.

**УДК 631.16; 658.14**

***Финансовая поддержка сельского хозяйства, как часть механизма стимулирование экономики***

***Мирзаев И. Ш.***

**Резюме**.Государственная финансовая поддержка сельского хозяйства является одним из приоритетов аграрной политики и направлена на обеспечение экономической и социальной стабильности. В этой связи государство стремится повысить производственные мощности сельского хозяйства за счет использования эффективных мер поддержки, развивать материально-техническую базу, формировать платежеспособный спрос на продукцию и в конечном итоге обеспечить устойчивость тенденций развития, стимулируя этот важный сектор экономики.

экономика. В статье комплексно исследуются вопросы, связанные с достижением эффективных результатов при финансовой помощи, являющейся частью механизма экономического стимулирования.

**Ключевые слова:** финансовая поддержка, продовольственная безопасность, льготы, субсидии, кредит.qa

Redaksiyaya daxilolma: 16.09.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.33 - 36
UOT 338.43

# Kənd təsərrüfatında rəqabətin təmin edilməsi və inhisarçılığın aradan qaldırılması yolları

**Osmanova Günel Rəhim qızı**
**Azərbaycan Dövlət Aqrar Universiteti,**
**Gəncə şəhəri, Adil İsgəndərov küç.64**
**e-mail: gunsham@mail.ru**

**Xülasə:***Hazırda aqrar sferada istehsal münasibətlərinin inkişafı ilə əlaqədar olaraq rəqabətin təmin edilməsi zərurəti öz əhəmiyyətini artırmışdır. Bu ehtiyacın təmin edilməsi inhisarçılığın aradan qaldırılmasına və iqtisadi səmərəlilik prinsipini maksimum dərəcədə artırmağa yönəlmiş tədbirlərlə xarakterizə olunur. Rəqabət mexanizminin mövcudluğunu təmin etmək məqsədilə ilk növbədə inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması tədbirlərinin təkmilləşdirilməsi zəruridir.*

***Açar sözlər:*** *inhisarçılıq, rəqabət, bazar, tənzimləmə, stimullaşdırma.*

**Giriş.**Aqrar sferada inhisarçılıq hallarının qarşısının alınması məqsədilə normal rəqabət mühitini formalaşdırmaq ehtiyacı müşahidə olunmaqdadır. Son illər istehsal münasibətlərinin inkişafı ilə əlaqədar olaraq rəqabətin keyfiyyətinin tənzimlənməsi və rəqabət mexanizminin təmin edilməsi zərurəti öz əhəmiyyətini artırmışdır. Bu ehtiyac inhisarçılığınaradan qaldırılmasına və iqtisadi səmərəlilik prinsipini maksimum dərəcədə artırmağa yönəlmiş qanunvericilik sənədlərinin tətbiqini önə çıxarmışdır.Bu cür tədbirlər iqtisadiyyatının dövlət tənzimlənməsinin xüsusi bir hüquqi formasının meydana çıxması ilə qarşılanmağa başlanmışdır.

Antiinhisar siyasətinin aparılmasının zəruriliyi ilə bağlı qanunvericiliyinin mövcudluğunu şərtləndirən digər tələb bazar münasibətləri şəraitində rəqabət mexanizminin mövcudluğunu təmin etmək, əmtəə bazarlarının formalaşdırılması və effektiv işləməsi üçün əlverişli şərait yaratmaq, inhisar fəaliyyətinin qarşısını almaq, məhdudlaşdırmaq və aradan qaldırmaq üçün tənzimlənmənin əsas müddəalarının təkmilləşdirilməsidir.

Kənd təsərrüfatında rəqabət özünü tənzimləmə mexanizmi və obyektiv iqtisadi qanunlarla tənzimlənir. Araşdırmalar göstərir ki, tənzimləmə mexanizminin nəticələri həmişə cəmiyyətin sosial-iqtisadi maraqları baxımından müsbət təsir göstərmir. Ona görə bazar elementinin mənfi təzahürlərini azaltmaq üçün özünü tənzimləmə və iqtisadi vasitələrlə təsir aktuallığını şərtləndirir. Bu təsir iqtisadiyyata dövlət tənzimləməsinin köməyi ilə həyata keçirilir, bunlardan biri də antiinhisar tənzimlənməsi ilə xarakterizə olunur.Həmin siyasətin əsas məqsədi rəqabəti stimullaşdırmaq, iqtisadi proses iştirakçılarının rəqabət mexanizminə zidd qanunsuz fəaliyyətlərinin qarşısını almaqdır (3, s.37).

Beləliklə, antiinhisar tənzimlənməsi ədalətli rəqabəti qorumaq və bazar münasibətlərinin səmərəliliyini təmin etmək məqsədi ilə aqrar sferada iqtisadi fəaliyyət qaydalarını müəyyən etmək və tətbiq etmək üçün qanunvericiliklə icazə verilən həddə həyata keçirilən məqsədli dövlət fəaliyyətidir. Dövləti bu məqsədləri həyata keçirməyə vadar edən başlıca səbəb bazar münasibətlərinin rəqabət əsaslarını qorumaq ehtiyacından qaynaqlanan ictimai maraqdır.

**Mövzunun aktuallığı.**Araşdırmalar göstərir ki, müəyyən iqtisadi funksiyaların dövlət tərəfindən tətbiq edilməsi rəqabətin təmin edilməsi və qorunması, antiinhisar münasibətlərinin formalaşması tendensiyasını təsdiqləyir. Antiinhisar tədbirlərinin məzmunu rəqabət münasibətlərinin struktur elementləri ilə əlaqəlidir, həmçinin rəqabət antiinhisar əlaqələrinin və iqtisadi proseslərin funksional asılılığı ilə müəyyənləşdirilən bazar sisteminin inkişafı və onunla bağlı olan rəqabət əlaqələri kontekstində inkişaf edir. Bu isə antiinhisar tədbirlərinin iqtisadi proseslərdəki müxtəlif istiqamətli təzahürü ilə özünü göstərir.

Müasir şəraitdə antiinhisar tənzimlənməsinin ən vacib formaları tənzimləyici və təşkilati təsirlərdir (4, s.42).Normativ tənzimləmə hüquqi sənədlərlə iş aparmaq qaydalarının qurulmasında, habelə onun icrasına nəzarətdə özünü göstərir. Bu cür tənzimləmə mahiyyət etibarilə, dövlətin iqtisadi sifariş formalarını yaratmağa yönəlmiş xüsusi fəaliyyətini təcəssüm etdirir. Təşkilati tənzimləmənin məqsədi dövlət tərəfindən yaradılan müxtəlif təşkilati strukturlarınvə onun ərazi idarələrinin iqtisadi əlaqələrə müsbət təsir göstərə bilmək və onların effektivliyini təmin etməkdən ibarətdir.

Rəqabət mühitinin hüquqi tənzimlənməsində "Antiinhisar fəaliyyəti haqqında" qanunun əhəmiyyəti böyükdür. Bu qanunla təsərrüfat subyektlərinin hökmran mövqelərindən sui-istifadə və ya rəqabəti məhdudlaşdıran hərəkətlərinin qarşısını almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı dövlət nəzarətini həyata keçirir (1).

Qeyd edilənlər rəqabətin təmin edilməsi və inhisarçılığın aradan qaldırılması problemlərinin araşdırılmasının aktuallığını təsdiq edir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədiaqrar-sənaye sferasında fəaliyyət göstərəniqtisadi subyektlərin fəaliyyətindərəqabətin təmin edilməsi və inhisarçılığın aradan qaldırılması perspektivlərini müəyyənləşdirməkdən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Antiinhisar qanunvericik sənədləri ədalətli rəqabətin bərpası və dəstəklənməsi, ədalətsiz rəqabətin və inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və ləğv edilməsi məqsədi ilə dövlət tənzimlənməsinin hüquqi formasıdır.Antiinhisar tənzimlənməsinin hüquqi əsası olan qanunvericilik və onun tətbiqi praktikası antiinhisar qanunlarının formalaşması, tətbiqi və təkmilləşdirilməsi ilə bağlı problemlərin hərtərəfli şəkildə tədqiqini tələb edir. İnhisarçılığın və haqsız rəqabətin məhdudlaşdırılması problemlərinin araşdırılması isə aşağıdakı istiqamətləri özündə ehtiva edir:

- iqtisadi və hüquqi islahatlar aparmaq və islahatları dərinləşdirmək;
-antiinhisar qanunvericiliyinin spesifikliyini nəzərə almaq və onun tətbiqi praktikasını müəyyən etmək;
- dövlət orqanlarının antiinhisar fəaliyyətinin hüquqi aspektlərini inkişaf etdirmək:
-antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsi üçün təkliflərin nəzəri cəhətdən əsaslandırmaq;
-antiinhisar tənzimlənməsi və hüquq tətbiqetmə sahəsində nəzəri və praktiki məsələləri əlaqələndirmək zərurəti.

Rəqabətin tənzimlənməsi və inhisarçılığın aradan qaldırılması tədbirlərinin müəyyənləşdirilməsi bir sıra vəzifələrin yerinə yetirilməsinin vacibliyini qarşıya qoyur: antiinhisar siyasətinin anlayışı, məzmunu, əhatə dairəsi və hədlərini müəyyən etmək;antiinhisar tənzimlənməsi sahələrini və onların fərqli xüsusiyyətlərini təhlil etmək; antiinhisar qanunvericiliyini, onun tərkibini və prinsiplərini, ona daxil olan aktları xarici antiinhisar qanunları ilə müqayisə etmək; antiinhisar qanunvericiliyin konseptual çərçivəsinə daxil olan konsepsiyaların hüquqi xüsusiyyətlərini, onun əsas kateqoriyalarının nisbətini və rolunu nəzərə almaq; icra hakimiyyəti sistemində antiinhisar orqanlarının rolu və yerini, habelə rəqabətin qorumasında öz funksiyaları və səlahiyyətlərini həyata keçirməsi problemlərini araşdırmaq; rəqabət qanunlarının pozulmasının və inhisar fəaliyyətinin məhdudlaşdırılmasının hüquqi nəticələrinin qiymətləndirilməsini həyata keçirmək; inhisar sahəsində dövlət tənzimlənməsinin hüquqi aspektlərini tədqiq etmək; antiinhisar siyasətinin bəzi müddəalarının nəzəri tərəflərini və antiinhisar qanunlarının təkmilləşdirilməsi ilə bağlı təklifləri əsaslandırmaq və aydınlaşdırmaq.

Araşdırmalar göstərir ki, bəzi hallarda inhisarçılıq fəaliyyəti müəyyənmüsbət tərəfləri ilə xarakterizə olunur və bu, iki əsas məqamda özünü göstərir. Birincisi, müəyyən sahələrdə inhisarçılıq xərclərə qənaət baxımından daha səmərəli nəticələrlə özünü biruzə verir. İkincisi, bəzən rəqabətqabiliyyətli sektorlarla müqayisədə oliqopolistlər elmi və texnoloji tərəqqinin inkişafı üçün daha çox vasitə və təşviqə malik olur. Əsas məsələlərdən biri ondan ibarətdir ki, rəqabət aparan kiçik müəssisələr məhdud maliyyə vəsaitinə malikdirlər və onları daha çox yeniliklərdən gələcək potensial

**№ 2/2021** **səh.33 - 36**

faydalar deyil, cari gəlirlər maraqlandırır. Bundan əlavə, yeni fikirlər rəqiblər tərəfindən tez bir zamanda əldə edilir və məlum olur ki, onların həyata keçirilməsinin xərcləri eynidir və faydası hamı tərəfindən bölüşdürülür. Böyük inhisarçıların isə daha geniş maliyyə imkanları var və yeniliklərdən əldə olunan bütün qazanc sahiblərinə verilir.

İnhisarçılığın mənfi tərəflərinə baxdıqda məlum olur ki, bu amil resursların qeyri-səmərəli bölgüsünə gətirib çıxarır. Bu, daha çox mənfəət əldə etmək üçün inhisarçıların istehsalını süni şəkildə məhdudlaşdırması, qiymətləri qaldırması, məhsullarını cəmiyyətə müəyyən növlər, texniki səviyyələr, keyfiyyət və satış şərtləri qoyması halında baş verir. Belə şəraitdə rəqabət mühitinin tənzimlənməsi mexanizmini pozulur.

Bir çox müəssisə sərbəst və daha rasional seçimdən məhrumdur, əsassız inhisarçı qiymətlərinin təzyiqinə tab gətirmir, işgüzar fəallığı azalır və hətta iflasa uğrayır. Nəticədə istehsal azalır, işsizlik artır, iqtisadiyyatın inkişafındakı tarazlıq pozulur, cəmiyyətin sərvəti resursların daha optimal rəqabətli bazar bölgüsü olacağı təqdirdə daha kiçik olur.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında rəqabətlə bağlı problemlərin yaranmasına digər sahələrin də payı var.Belə ki, yanacaq və enerji, mühəndislik, bankçılıq, emal sferası və digər əlaqəli sahələrdə inhisarçılıq aqrar sferanın inkişafına mənfi təsir göstərir.

İnhisarçılığın mənfi cəhətlərindən biri də onun cəmiyyətin gəlir bərabərsizliyinin artmasına səbəb olmasıdır. Bu, qiymətlərin və gəlirlərin inhisarda həddən artıq qiymətləndirilməsi ilə də əlaqədardır, çünki inhisarçıların gəlirlərinin artımıdigər subyektlərin gəlirlərinin nisbi azalması deməkdir.

İnhisarçılığın növbəti mənfi tərəfi iqtisadi durğunluq və elmi-texniki tərəqqinin qarşısını almaqdır. Bu, inhisarçıların rəqiblərin təzyiqləri ilə qarşılaşmadıqları və bazar gücləri sayəsində əlavə səy göstərmədən çox vaxt yüksək qazanc əldə edə biləcəyi üçün mümkündür. Belə vəziyyət məhsuldarlığı rasionallaşdırmağa, istehsalın səmərəliliyində artım ehtiyatları axtarmağa, məhsulun keyfiyyətini yüksəltməyə, çeşidini genişləndirməyə, elmi-texniki tərəqqini inkişaf etdirməyə və istehlakçıların iqtisadi maraqlarına əks təsiri ilə özünü göstərir.

İnhisarın mənfi cəhətlərindən digəri iqtisadiyyatda azad qarşlıqlı münasibətlərə təhlükədir. İnhisarçılar xüsusilə azad və ədalətli rəqabəti ləğv edə, cəmiyyətdə ayrıseçkilik şərtlərini tətbiq edə bilər: işçilərin əmək haqqının qiymətləndirilməməsi, məhsulların keyfiyyətsiz olması, satış qiymətlərinin əsassız olaraq artırılması və s.

## Nəticə

Qeyd edilənləri nəzərə alsaq müasir şəraitdəantiinhisar siyasətinin başlıca istiqamətlərindən biri kimi süni inhisarların qarşısının alınmasını və ya məhdudlaşdırılmasını qeyd etmək oar. Bu məqsədlə dövlət tənzimləmə vasitələrindən istifadə etməklə iqtisadi gücün həddindən artıq cəmləşməsinə, süni çatışmazlıqlara və qiymətlərin səviyyəsindəki tarazlığın pozulmasına qarşı tədbirlər görülür (2, s.84). Eyni zamanda, iqtisadiyyatda azad və ədalətli rəqabət stimullaşdırılır. İnhisarçılığın aşkar edildiyi təqdirdə inhisarçılıq tədbirləri müəssisələr səviyyəsində də tətbiq edilə bilər: pul kompensasiyası, cərimələr, məhsulların topdan satışına qoyulan qadağa və s.

Beləliklə, inhisarçılığın aradan qaldırılması və rəqabətin təmin edilməsi tədbirləri müxtəlif təsərrüfatçılıq subyektlərinin azad və sərbəst fəaliyyətinə zəmin yaratmaqla iqtisadiyyatın müxtəlif sferalarının, o cümlədən kənd təsərrüfatının inkişafında dayanıqlığın təmin edilməsində əvəzsiz rol oynayır. Bu isə hər bir şəraitdə dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab edilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sahədə rəqabət mühitinin formalaşmasına təsir edən amillər müəyyən edilmişdir;
- iqtisadi münasibətlərdə inhisarçılığa səbəb olanəsas amillər tədqiq edilmişdir;
- rəqabət və antiinhisar fəaliyyətindədövlət siyasətinin rolu əsaslandırılmışdır;
- rəqabət mühitinin təmin edilməsi ilə bağlıiqtisadi səmərəlilik meyarlarımüəyyənləşdirilmişdir;
- aqrar sahədə rəqabəti təmin etmək məqsədilə inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir.

**№ 2/2021** **səh.33 - 36**

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqatın praktiki əhəmiyyəti aqrar subyektlərin iqtisadi fəaliyyətində daha səmərəli nəticələr əldə etmək üçün rəqabətin təmin edilməsi və antiinhisar fəaliyyətinin gücləndirilməsi imkanlarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Kənd təsərrüfatında onunla əlaqəli şəkildə fəaliyyət göstərən subyektlərin qarşılıqlı iqtisadi fəaliyyətində rəqabətə əsaslanan əməkdaşlığın formalaşdırılmasıhazırda vacib məsələlərdəndir. Bu baxımdan inhisarçılığın aradan qaldırılmasına istiqamətlənmiş tədbirlər iqtisadi subyektlərin fəaliyyətinin effektivliyinə və iqtisadi mənfəətinin yüksəlməsinə ciddi təsir edə bilər.

Ədəbiyyat

1. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 4 mart 1993-cü il.
2. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Финансы и статистика, 2007, 256 с.
3. Мокроносов, А. Г. Конкуренция и конкурентоспособность: учебное пособие. Екатеринбург : Изд-во Урал ун-та, 2014.194с.
4. Шишкин М.В. Антимонопольное регулирование. Москва: Издательство Юрайт, 2018. 143 с.

**УДК 338.43**

**Способы обеспечения конкуренции в сельском хозяйстве и устранения монополии**

**Османова Г. Р.**

**Резюме:** В связи с развитием производственных отношений в аграрном секторе потребность в конкуренции возросла. Необходимость в этом заключается в преодолении монополии и меры, направленные на максимизацию принципа экономической эффективности. Обеспечить существование конкурентного механизма прежде всего, необходимо усовершенствовать меры по предотвращению, ограничению и устранению монопольной деятельности.

**Ключевые слова:** монополия, конкуренция, рынок, регулирование, стимулирование.
**UBC 338.43**

**Ensuring competition in agriculture and monopoly ways to remove it**

**Osmanova G.R.**

**Summary:** At present, the need to compete with the development of production relations in the agrarian sector has increased. Meeting this need is characterized by measures aimed at eliminating monopoly and maximizing the principle of economic efficiency. In order to ensure the existence of a competitive mechanism, first of all, it is necessary to improve measures on prevention, restriction and elimination of monopoly activity.

**Key words:** monopoly, competition, market, regulation, stimulation.

Redaksiyaya daxilolma: 15.08.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.37 - 42
UOT 336.11

# BİZNES SUBYEKTLƏRİNİN MALİYYƏ- İQTİSADİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN İŞLƏNİB HAZIRLANMASI

**Əkbərli Toğrul Ramiz oğlu**
**Lənkəran Dövlət Universiteti**
**Lənkəran şəh., General Həzi Aslanov xiyabanı, 50**
**togrulakberli@yahoo.com**

***Xülasə***: *Makro-, mezo- və mikrosəviyyələrdə fəaliyyət göstərən biznes subyektləri ölkə iqtisadiyyatının dayanıqlı inkişaf və iqtisadi təhlükəsizlik imkanlarını aşkar edən mühüm amil hesab olunduğundan, məqalədə maliyyə-iqtisadi təhlükəsizlik siyasətinin işlənib hazırlanması məsələləri sistemli şəkildə araşdırılmışdır.*
***Açar sözlər***: *biznes subyektləri, maliyyə - iqtisadi təhlükəsizlik, monitorinq, təhlükəsiz-liyin idarə edilməsi, tənzimləmə və nəzarət*

**Mövzunun aktuallığı**. Rəqəmsal iqtisadiyyat şəraitində biznes subyektləri mahiyyət ehtibarı ilə rəqabət mühitinin formalaşması və inkişafı, iqtisadiyyatın dövlət sektoru ilə qarşılıqlı fəaliyyət, milli bazarın çoxçeşidli məhsullarla zənginləşdirilməsi və s. özündə ehtiva edən iqtisadi funksiyanı, eləcə də ölkədaxili məşğulluq, əhalinin depressya, cəmiyyətin demokratik-ləşdirilməsi, “köhnə” sinfin möhkəmləndirilməsini, “yeni” orta sinfin təşəkklü tapması kimi problemləri həll edən sosial funksiyanı yerinə yetirir. İqtisadiyyatın real sektorunun inkişafı üzrə praktik təcrübə bir daha göstərir ki, məhz biznes subyektlərinin fəaliyyəti ölkə iqtisadiyyatının dayanıqlı inkişaf və iqtisadi təhlükəsizlik imkanlarını aşkar edən mühüm amil hesab edilir. Aydındır ki, biznes subyektlərinin fəaliyyət spektrinn genişləndirilməsi, onların məhsul və xidmətlər bazarının sistemyaradıcı elementinə çevrilməsi bir qayda olaraq bazar iqtisadiyyatı doktarinasını qəbul etmiş azərbaycan höküməti həmişə diqqətdə saxlayır. Təbii ki, bu proseslər heç də əlverişli iqtisadi mühütdə, təhlükəsiz şəraitdə (sahibkarlıq fəaliyyətin tənzimləyən normativ-hüquqi bazanın tələb olunan səviyyəsinin qeyri qənaətbəxş və ziddiyyətli olması, təsərrüfat formalarının qarşlılqlı fəaliyyətinin bazar münasibətlərinə adekavat cavab verməməsi, formalaşmış biznes strukturlarına real dəstək göstərilməsi üçün material və maliyyə resurslarının çatışmaması və s.) cərəyan etmir. Buna görə də ilk növbədə iqtisadi institut kimi biznes subyekt-lərinin istehsal-satış fəaliyyətinin təhlükəsizliyi ilə əlaqədar məsələlərin həlli mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan bzines subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinin idarəedilməsi aktual hesab olunduğundan istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda nəşr edilən mövcud elmi ədəbiyyatlarda milli təhlükəsizlik, dövlət, region, müəssisə səviyyəsində təhlükəsizlik problemləri və onların həlli istiqamətlərinə xüsusi yer ayrılmışdır.

Qloballaşan dünya təsərrüfat sistemində, ölkə iqtisadiyyatında baş verən iqtisadi proses-lərin elmi baxımdan dərk edilməsi və praktiki istiqamətlərin müəyyənləşdirilməsi konteksidə biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizlik siyasətinin işlənib hazırlanmasına obyektiv zəruriyyət yaranır.

**Tədqiqat işinin məqsədi** biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizlik siyasəti-nin formalaşması üzrə metodiki tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir.

**Tədqiqatın obyektini** makro-, mezo- və mikrosəviyyələrdə fəaliyyət göstərən biznes subyektləri və onların maliyyə - iqtisadi təhlükəsizlik siyasətinin kompleks qiymətləndirilməsi təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat işində məntiqi ümumiləşdirmə, funksional təhlil, ekspert qiymətləndirməsi, induksiya və deduksiya metodlarından istifadə edilmişdir.

## Materiallar və müzakirələr

№ 2/2021 səh.37 - 42

Həm ölkənin milli maraqları, həm də biznes subyektlərinin maliyyə - iqtisadi təhlükəsiz-liyi baxımından təhdid və risklərin aradan qaldırılmasına istiqamətlənmiş iqtisadi, maliyyə və sosial sferaların idarəedilməsi məsələsi bir qədər fərqli prizmadan yanaşma tələb edir. Bütün bərabər şərtlər daxilində qeyd etmək lazımdır ki, maliyyə- iqtisadi təhlükəsizliyin idarəedilmə-sinə yanaşma təkcə umumsistem xarakterli əsas elementlərinin aşkar edilməsinə deyil, eyni zamanda səylərin bu elementlər üzərində cəmləşməsinə imkanlar yaradır, sistemin struktur inkişafına bilavasitə təsir göstərir (2). Bununla əlaədar olaraq açıqlıq, qeyri-müəyyənlik və yüksək riskin mövcud olduğu bir şəraitdə maliyyə - iqtisadi təhlükəsizlik siyasətinin bir neçə əsas istiqa-mətlərini seçib ayırmaq lazım gəlir.

Biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinin təmin edilməsi prosesi üç mərhə-lədə həyata keçirilir: a) təhlükəsizlik monitorinqinin aparılması; b) təhlükəsizliyin idarə edilməsi; c) tənzimləmə və nəzarət

*1.Təhlükəsizlik monitorinqinin aparılması*

Təhlükəsizlik monitorinqi biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinə neqativ təsirlərin növləri və yaranma səbəblərini müəyyənləşdirən fasiləsiz müşahidə prosesidir və o, biznes subyektlərinin bütün struktur bölmələrinin qarşılıqlı fəaliyyətinin nəticəsi hesab edilir. Monitorinin yerinə yetirilməsi zamanı biznes subyektlərinin faktiki vəziyyəti və onun potensial inkişaf ənənələri, həmçinin iqtisadiyyatın ümumi inkişafı, siyasi vəziyyət və digər ümumsistem amillər nəzərə alınmaqla müşahidənin fasiləsizliyi prinsipi qorunub saxlanılmalıdır. Xarici təcrübədən çıxış edərək qeyd edilməlidir ki, maliyyə - iqtisadi təhlükəsizliyi xarakterizə edən indikativ göstəricilərə monitorinq adətən rüblük təşkil edilsədə, xüsusi hallarda, yəni, böhran vəziyyətini idarəetmək üçün aylıq keçirilməsi daha məqsədəmüvafiqdir. Bu zaman biznes subyektlərinin təsərrüfat həyatında baş verən dəyişikliklər haqqında aydın iqtisadi təsəvvür əldə etmək üçün təhlükəsizlik göstəricilərinin aldığı ədədi qiymətlərin dinamikası təhlil edilməlidir.

Monitoqtinqin başlıca vəzifəsi biznes subyektlərinin cari vəziyyəti və inkişaf dinamika-sını qiymətləndirmək, subyektlərin iqtisadi potensialının inkişaf etdirilməsində destruktiv meylləri aşkar etmək, subyektlərin iqtisadi potensialına təsir göstərən kritik təhdidlərin səbəb, mənbə, xarakter və intensivliyini müəyyənləşdirmək, böhran hallarının neqativ nəticələrini proqnozlaşdırmaqdan ibarətdir.

Təbii ki, bir proses olaraq monitorinqin aparılması üçün metodiki, hüquqi, təşkilatı, informasiya təminatı tələb olunur. Nəzərə almaq lazımdır ki, biznes subyektlərinin dinamik dəyişən mövcud maliyyə-iqtisadi vəziyyətinin dəyərləndirilməsi və dianostikasına yanaşmada təhlil vasitələrinin seçilməsi maliyyə-iqtisadi təhlükəsizliyə təhdid yaradan kompleks faktorların tam və hərtərəfli tədqiqinə, monitorinqin yüksək səviyyədə təşkil və yerinə yetirilməsinə imkan verir.

Maliyyə - iqtisadi təhlükəsizliyin idarəedilməsi zamanı təklif edilən indikatorlar və onların son hədd kəmiyyəti mövcud iqtisadi vəziyyətdən asılı olaraq dəyişir.

Fikrimizcə, monitorinq prosesi məntiqi ardıcıllıq gözlənilməklə beş mərhələdə həyata keçirilməlidir:

1. Biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizilik indikatorları sisteminin forma-laşması (birinci fəsildə bu indikatorlar qeyd edilmişdir).

İdarəetmə sistemi və monitorinqin təşkili üzrə müvafiq analitik model elə qurulmalıdır ki, ilk növbədə risk və təhdidlərin konsentrasiyası, eləcə də sistemin immzasiya dərəcəsi baxımın-dan istənilən zaman kəsiyində biznes subyektinin maliyyə - iqtisadi şəbəkəsində baş verən dəyişikliklərə, onun mövcud vəziyyətinə, hissələrin və əlaqələlərin sayına nəzarət etməklə yanaşı, eyni zamanda şəbəkənin struktur inkişafı ilə əlaqəli əsas topoloji xüsusiyyətlərə və agentlərin davranış qaydalarına zaman - zaman idarəetmə təsirləri göstərə bilsin (4).

2. Biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyini xarakterizə edən statistik və digər iqtisadi məlumatların toplanması və təhlili. Bu məqsədlə ayrı - ayrı biznes subyektləri üzrə toplanan sintetik məlumatların spektri genişləndirilərək onların özləri, eləcə də maliyyə institutları araslnda mövcud əlaqələridə əhatə etməli, məlumatların təhlil metodlarının keyfiyyəti yüksəl-dilməlidir. Son dövrlərdə bəzi

Avropa ölkələrində beynəlxalq hesablaşmalar bankı tərəfindən bank statistikasının keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar qlobal dəyişikliklərin həyata keçiril-məsi və maliyyə təşkilatları arasında beynəlxalq reystrin yaradılması istiqamətində təşəbbüslər göstərilmiş və bir sıra sənədlər işlənib hazırlanmışdır. Lakin Azərbaycan Respublikasında bu günə qədər mövcud olan risk-menecment siyasəti risklərin diversifikasiya imkanları haqqında səthi şərtlərə əsaslanır, sistemin xarakterindən irəli gələn riskləri idarəetmək və hətta bank səviyyəsində onların üzərində zəruri monitorinq əməliyyatlarını aparmaq gücündə deyil.

3.Bzines subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinə təhdid yaradan amillərin aşkar edilməsi və böhran hallarında onların mümkün neqativ təsir dərəcəsinin qiymətləndirilməsi.

Nəzərə almaq lazımdır ki, ölkə daxilində və ya onun hüdudlarından kənarda biznes subyektlərinin formalaşdırdığı iqtisadi əlaqələr milli istehsal və istehlakın strukturu arasında nisbi balansın təmin edilməsi əsasında qurulur. Rəqamsal iqtisadiyyat şəraitində biznes subyekt-lərinin iqtisadi davranış modeli və insan cəmiyyətinin özü üçün əlverişli mühütin formalaşması istehlakın durmadan genişlənməsi prinsipinə əsaslanır. İstehlakın təbliğ edilən bu ideologiyası, pulun hakimiyyəti, psevdodemokrtik dəyərlərin və dövlət müəssisələrinin dikta-turası istehlakın genişləndirilməsinə maneə yaradan nələr varsa hamısısn ardan qaldırır, məhv edir. Deməli, resurslarn qiyməti və dəyəri arasında mövcud fərqli nəticələr bütövlükdə ölkə iqtisadiyyatı, eləcə də biznes subyektləri üçün əhəmiyyətli hesab edilən təhdidlər yaradır. Bu baxımdan biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinə təhdid yaradan amillərin aşkar edilməsi və böhran hallarında onların mümkün neqativ təsir dərəcəsinin qiymətləndirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

4.Aradan qaldırılmaması biznes subyektlərində böhran hallarının yaranmasına səbəb olan aşkar edilmiş təhdid və risklərin prioritetliyini (kritikliyini) müəyyənləşdirmək məqsədi ilə onların təhlili və qiymətləndirilməsi.

5.Kritik təhdidlərə qarşı praktiki olararq tətbiq edilən metod və mexanizmlərin təhlili və effektivliyinin qiymətləndirilməsi.

Monitorinin həyata keçirilməsi zamanı qeyd edilən mərhələlər dialektik vəhdətdə icra olunmalı və hər bir mərhələ üçün cavabdeh şəxslər müəyyənləşdirilməli, onların fəaliyyəti koordinasiya edilmlidir.

Xarici təcrübəyə istinadən ölkəmizdə də monitorinq prosesinin həyata keçirilməsi zamanı biznes subyektlərinin idarəetmə aparatı ilə yanaşı ictimai institutlarında bu prosesdə iştirakı müsbət nəticələrə gətirb çıxara bilər. Məsələn, ictimai təşkilatlar sistemin fəaliyyətinə nəzarət funksiyasını, eləcə də rəhbər strukturlarla yerli hakimiyyət və cəmiyyət, ali tədris müəssisələri arasında əlaqələndirici element kimi çıxış etməklə indikatorlat sisteminin forma-laşmasında və ya tədidlərin yaranma səbəblərinin müstəqil araşdırılmasında və böhran hallarına qarşı effektiv tədbirlərin görülməsində iştirak edə bilərlər (2).

Maliyyə-iqtisadi təhlükəsizliyə monitorinqin aparılmasını nəzərdə tutan bütün mərhələ-lər alqoritm üzrə yerinə yetirildikdən - müvafiq informasiya bazası (sənədlər) formalaşdıqdan sonra təhlükəsizliyin idarəedilməsi obyektiv zəruriyyətə çevrilir.

***2. Maliyyə-iqtisadi təhlükəsizliyin idarə edilməsi***

Maliyyə - iqtisadi təhlükəsizliyin idarə edilməsi dayanıqlı fəaliyyətin və potensial inkişafın təmin edilməsinə yönəlik kompleks tədbirlər həyata keçirməklə biznes subyektlərinin iqtisadi maraqlarını daxili və xarici təhdidlərdən (təhlükə mənbələrindən) qoruyan fasiləsiz bir proses kimi səciyyələndirilir.

Biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinin idarəedilməsi vacib olduğu qədərdə mürəkkəb prosesi özündə ehtiva edir. Belə ki, idarəetmə işləri elə aparılmalıdır ki, o yaxın gələcəkdə bzines subyektlərinin maliyyə-iqtisadi maraqlarına təhdidlərin yaranması şansını minimuma endirə bilmək qabiliyyətinə malik olsun. Bu sahədə cəhd edilən, nəzərdən keçirilən ilkin varianat kimi məhz inkişafın geoiqtisadi şərtlərinə uyğun olaraq bütövlükdə maliyyə sisteminin mürəkkəbliyini azaldan və ehtibarlılığını yüksəldən nettinq sisteminin (aktivləri göndərilməsi ilə əlaqədar tərəflərin bağlanan sövdələşmələr üzrə yerinə yetirməyə məsul olduqları öhdəliklərinin dayandırılması zamanı istifadə edilir.

Nettinq zamanı tərəflərdən birinin digərinin tələblərinə uyğun olaraq hesablama nəticə-sində əmələ gələn fərqin köçürülməsi həyata keçirilir) geniş tətbiqi hesab edilir.

Hesab edirik ki, biznes subyektlərinin maliyyə - iqtisadi təhlükəsizliyin idarəedilməsi özündə aşağıdakı vəzifələrin yerinə - yetirilməsini ehtiva etməlidir:

- təhlükəsizliyin təmin edilməsi üzrə əsas fəaliyyət istiqamətlərini seçmək və qiymətlən-dirmək;
- təhlükəsizlik sisteminin təkmilləşdirilməsini nəzərdə tutan perspektiv proqramlar işləyib hazırlamaq;
- monitorinq sisteminin iştirakçıları arasında qarşılıqlı fəaliyyətin xarakterini müəyyən-ləşdirmək;
- hesabat dövrü üzrə təhlükəsizlik sisteminin tərkibi, vəziyyəti və fəaliyyəti haqqında lahiyələri nəzərdən keçirmək;
- təhlükəsizlik üzrə nəzarət və proflaktik tədbirləri planlaşdırmaq və həyata keçirmək;
- mövcud vəziyyəti və onun inkişaf meyllərin sistemli-analitik tədqiq etməkdən ibarət olmalıdır.

Maliyyə-iqtisadi təhlükəsiziliyin idarəedilməsi prosesidə öz növbəsində beş mərhələyə ayırmaq olar (3):

- zəruriyyət yarandığı hallarda biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizlik indikatorları sisteminə əlavə və düzəlişlər aparmaq;
- kritik təhdid və böhran hallarının yaranmasına cavabdehlik məsuliyyəti daşıyan idarə-etmə aparatının müvafiq strukturunu, ictimai institutları və yerli icra orqanlarını müəyyənləşdir-mək;
- kritik təhdidlərə qarşı konkret metod və mexanizmlər işləyib hazırlamaq və praktiki olaraq reallaşdırmaq;
- yaranan böhran hallarının nəticələrini neytrallaşdırmağa məsul olan cavabdeh şəxsləri və ictimai institutları müəyyənləşdirmək.

İdarəetmənin bir-birindən funksional asılı olan hər bir mərhələsində müxtəlif təyinatlı bu və ya digər məsələlərin həll edilməsi nəzərdə tutulur. Məsələn, "təhlükəsizlik indikatorları sisteminə əlavə və düzəlişlər aparmaq" və "kritik təhdidlərə qarşı konkret metod və mexanizmlər işləyib hazırlamaq və praktiki olaraq reallaşdırmaq" kimi mərhələlərdə "perspektiv dövr üçün təhlükəsizlik sisteminin təkmilləşdirilməsi ilə bağlı işçi proqramların işlənib hazırlanması" və "maliyyə-iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi və təmin edilməsi üzrə əsas istiqamətlərin müəyyənləşdirilməsi" və s. bu kimi məsələlər həll edilməlidir (5).

Biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəzliyinin idarəedilməsi prosesi müəyyən alqoritimə əsaslanmalıdır. Maliyyə - iqtisadi təhlükəsizliyin monitorinqi və idarəedilməsi zamanı bütün mərhələlərin məntiqi ardıcıllıqla yerinə yetirilməsi təkcə biznes subyektlərinin istehsal-satış fəaliyyətində müşahidə edilən neqativ prosesləri aşkar etməyə, izləməyə deyil, paralel olaraq yararnan və yarana biləcək bütün təhdidləri aradan qaldırmağa imkan verə bilər (1). Biznes subyektlərinin maliyyə-iqtisadi təhükəsizliyi üzrə idarəetmə sisteminin fəaliyyəti nəticə ehtibarı ilə özündə təhdidlərə və subyektin iqtisadi fəaliyyətinə dəyən ziyanlara monitorinq prosesini həyata keçirməyə imkan verən vahid informasiya məlumat bazasının (indikatorlar və son həddlər sisteminin) yaradılmasını; əsas xarici və daxili təhdidləri müəyyənləşdirilməsini və subyektin istehsal-satış fəaliyyətinin optimal təşkili baxımından onların neytrallaşdırılması ilə bağlı tədbirlər paketinin işlənib hazırlanmasını; antiböhran idarəetmə ilə əlaqədar ictimai institutlar, yerli icra orqanları və fəaliyyət sferaları yaxın, oxşar olan dövlət və digər müəssisələ-rin rəhbərlərinin fəaliiyətinin koordinasıyası və metodiki rəhbərliyi ehtiva edir.

*3. Tənzimləmə və nəzarət*

Milli maliyyə-iqtisadi sistemin tənzimlənməsi siyasətinin əsasını sistemin baş verən bu və ya digər sapmalara qarşı dayanılı olmasının və iqtisadi viruslara yoluxma dərəcəsinin testləşdirilməsi təşkil edir. Aydındır ki, məhz belə testləşdirmə vasitəsi ilə bir-biri ilə qarşılıqlı əlaqədə olan iri maliyyə institiutlarının fəaliyyətinə və toxunulmazlığına (immunizasiyasına) xələl gətirən pozucu elementlər üzərində tələb olunan nəzarəti təmin etməyə imkan yaranır. Praktik təcrübəyə əsaslanaraq qeyd etmək olar ki, qarşılıqlı əlaqədə olan iri maliyyə institiutları bütün sistem üzərində böhran hallarının -

№ 2/2021 səh.37 - 42

ənənələrinin "super yaradıcısı" hesab edilir. Qarşılıqlı əlaqədə olan iri maliyyə institiutlarının toxunulmazlığı hər şeydən əvvəl, iqtisadi infeksiyaları lokallaşdırmağa imkan verməklə, sistemi böhran halına düşməkdən qorumaqla onun dayanıq-lığını təmin edir. Tənzimləmə siyasəti sahəsində zəif, kasıb agentlərin stimullaşdırılmasını və dövlətlərarası effektiv bölüşdürmə siyasətinin formalaşdırılmasını nəzərdə tutan mexanizmin yaradılması məqsədəuyğun hesab edilir (6).

Son zamanlar iri dünya dövlətləri özlərinin bazar paylarını, malik olduqları iqtisadi üstünlükləri qorumaq və sistemin sabitliyinə nail olmaq məqsədi ilə dünya maliyyə bazarının və burada fəaliyyət göstərən meqakroporasiyaların fəaliyyətinin stabilləşməsinə, ən başlıcası isə dünya maliyyə sistemində özlərinin inhisarşılıq mövqelərinin güclənməsinə yönəlik yeni makroprudensial tənzimləmə siyasəti həyata keçirirlər. Belə bir siyasətin yürüdülməsi ilk növbədə maliyyə-iqtisadi sistemə qarşı sərt normativ tələblər irəli sürür.

## Nəticələr

Hal-hazırda ölkənin maliyyə - iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından dünya bazarında Azərbaycan Respublikasının oynadığı rolun zəif və ya güclü olmasından asılı olmayaraq köklü dəyişməsinə yönəlik siyasətin aparılması bütün mənalarda çox təhlükəlidir. Nə qədər ki, ölkənin milli marqları ilə diametral ziddiyyət təşkil edən risk və təhdidlər üzərində monitorinqin aparılması və tənzimləmə mexanizminin fəaliyyəti lazım olan nəticələrin əldə edilməsinə imkan vermir, nə qədər ki, ölkəmiz beynəlxalq münasibətlər sisteminə tam inteqra-siya olunmamaşıdır, nə qədər ki, xarici şoklar və risklərin təsiri mövcuddur və güclüdür qeyd edilən siyasətin reallaşdırılmasıda bir o qədər mürəkkəb və çətin hesab edilir. Nəzərdən qaşırmaq lazım deyil ki, sərvətlərin bölüşdürülməsi sahəsində inhisarçılıq modelini formalaşdıran dünya maliyyə bazarının hökmran dövlətləri hələ də Azərbaycan Respublikasını özlərinin resurs təminatçısı, resurs bazasının bərpaedicisi rolunda görürlər. Bu da ölkədə fəaliyyət göstərən biznes subyektləri üçün yaxın və uzaq perspektivdə risk mənbəyi olaraq çox təhlükəlidir.

**Tədqiqatın elmi yeniliyi** dinamik dəyişən bazar şəraitində biznes subyektlərinin maliyyə - iqtisadi sistemində yaranan böhran hallarının aradan qaldırılmasına və prinsip ehtibarı ilə onun yeni inkişaf mərhələsinə transformasiyasına imkan verən maliyyə-iqtisadi təhlükəsizlik siyasətini işləyib hazırlamaqdan ibarətdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsiz-liyinin təmin edilməsi ilə əlaqədar iqtisadi proseslərin taktiki idarəedilməsinə, həmçinin strateji məqsədlərə nail olmaq üçün nəticələri qiymətləndirməyə,dayanqılı inkişaf strategiyalarını forma-laşdırmağı imkan verir

**Tədqiqat işinin iqtisadi səmərəsi.** İşlənib hazırlanan və təkilf edilən metodiki tövsiy-yələr praktiki baxımdan biznes subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı çoxsəviyyəli idarəetmə proseslərinin effektivliyinin yüksəldilməsinə köməklik göstərə bilər.

## Ədəbiyyat

1. Алиев, У.А. Экономическая безопасность компании и ее защищенность от внут-ренних и внешних угроз / Алиев, У.А.// Материалы VI Международной научно-практичес-кой конференции «Проблемы современной экономики: глобальный, национальный и региональный контекст», Беларусь, г. Гродно. – 2017. - с. 161-167.

2. Асадова, А.А. Количественные методы оценки экономической безопасности предприятия / Асадова А.А. // Теория и практика сервиса: экономика, социальная сфера, технологии. - 2017. - № 3 (33). - С. 32-36.

3. Безденежных, Т.И. Экономическая безопасность бизнеса / Безденежных Т.И., Шарафанова Е.Е. - СПб., 2018.

4. Гусев, В.С. Экономика и организация безопасности хозяйствующих субъектов / Гусев В.С. и др. - СПб.: ИД «Очарованный странник», 2001. -589 с.

5. Каурова Н.Н. Финансовая безопасность в условиях роста сложности и однород-ности финансовых рынков. Экономика. Управление. Право. - М.: Издательство ИНГН № 2 2012.

6. Larosière J. The high-level Group of financial supervision in the EU. Report. Brussels, February. 2009.

**УДК 336.11**

**РАЗРАБОТКА ПОЛИТИКИ ФИНАНСОВО-ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ СУБЬЕКТОВ БИЗНЕСА**

**Акбарли Т.Р.**

**Резюме**: В статье систематически исследовано вопросы разработки политики финансово-экономической безопасности, поскольку субъекты бизнеса, действующие на макро-, мезо- и микроуровнях, являются важным фактором выявления возможностей устойчивого развития и экономической безопасности экономики страны.

**Ключевые слова**: субъекты хозяйствования, финансово-экономическая безопасность, мониторинг, управление безопасностью, регулирование и контроль.

UDC 336.11

**DEVELOPMENT OF A POLICY FOR FINANCIAL AND ECONOMIC SECURITY OF BUSINESS SUBJECTS**

**Akbarli T. R.**

**Abstract:** The article systematically researches the issues of developing a policy of financial and economic security, since business entities operating at the macro, meso and micro levels are important factors in identifying opportunities for sustainable development and economic security of any country's economy.

**Key words:** business entities, financial and economic security, monitoring, security management, regulation and control.

Redaksiyaya daxilolma: 17.08.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.43 - 47

UOT 338.36

# ELMTUTUMLU MƏHSUL İSTEHSALININ FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**Həmidzadə Etibar Oqtay oğlu**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**
**etibar.hamid@gmail.com**

***Xülasə:****Elm və istehsalının qarşılıqlı əlaqəsi əsasında iqtisadi münasibətlərin formalaşdırılması, ölkələrin innovativ inkişafının təmin edilməsi mövcud texnoloji vasitələrin təkmilləşdirilməsindən və yüksək texnologiyaların istehsalata tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır. Qloballaşma və rəqabətin kəskinləşdiyi şəraitdə istehsalın əsas amilləri kimi elmi-texniki tərəqqinin və intellektual yeniliklərin əldə edilməsi və istifadəsi hazırda iqtisadi siyasətin prioritetlərindən hesab edilir. Bu baxımdan elmtutumlu istehsalın formalaşması xüsusiyyətlərinin nəzərə alınması ən vacib məsələlərdən biri olaraq özünü göstərir.*

***Açar sözlər:****elmtutumlu məhsul,rəqabət qabiliyyəti, keyfiyyət, innovativ inkişaf, səmərə.*

**Giriş.**Elm və istehsalının qarşılıqlı əlaqəsi əsasında iqtisadi münasibətlərin formalaşdırılması ölkələrin innovativ inkişaf strategiyasının mühüm tərkib hissəsi hesab edilir. Bu baxımdan iqtisadi inkişafın təmin edilməsi mütərəqqi və yüksək texnologiyaların yaradılması, mənimsənilməsi və geniş istifadəsindən, mövcud texnoloji vasitələrin təkmilləşdirilməsindən və yüksək texnologiyaların istehsalata tətbiqi problemlərinin həll olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Ölkələrin qlobal iqtisadi rəqabət şəraitində iqtisadi inkişaf səviyyələri məhz istehsalın əsas amilləri kimi elmi-texniki tərəqqinin və intellektual yeniliklərin istiqamətlərini müəyyənləşdirir[3, s.27].

Beləliklə, elm və istehsalın qarşlıqlı əlaqəsi iqtisadiyyatın inkişafındakı innovativ və texnoloji yeniliklərə axını tam şəkildə ödəyir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın əsas dəstəkləyici olan elm və istehsalın inteqrasiyası əslində dövlətin elmi inkişaf siyasətində əsas vəzifələrdən biri kimi hədəflənir. Bu məsələlər "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda da öz əksini tapır. Qanunda iqtisadi baxımdan elmi fəaliyyət sahəsində dövlətin əsasən aşağıdakı vəzifələri müəyyənləşdirilir:

*"- elmin inkişafına dair vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi;*

*- elmin prioritet inkişaf sahələrinin və istiqamətlərinin müəyyən edilməsi, həmin istiqamətlər üzrə dövlət proqramlarının və layihələrinin hazırlanması və həyata keçirilməsi;*

*- elmi fəaliyyətin səmərəli təşkili, idarə edilməsi və inkişafına, maddi-texniki baza, infrastruktur, avadanlıqlar, yüksəkixtisaslı elmi kadrlar, informasiya və digər zəruri vasitələrlə təmin olunmasına şəraitin yaradılması və s."[1].*

**Mövzunun aktuallığı.**Araşdırmalar göstərir ki, elmi yönümlü araşdırmaların uğurla həyata keçirilməsi üçün elmi fəaliyyət düzgün qurulmalı, planlaşdırılmalı və müəyyən bir ardıcıllıqla aparılmalıdır. Bu planlar və fəaliyyət ardıcıllığı elmi inkişafın növündən, obyektindən və məqsədlərindən asılı olur. Elm tutumlu məhsul istehsalı məqsədilə həyata keçirilən fəaiyyətdə isə bilik və qabiliyyət məhz daha əlverişli formada elmi məhsulların istehsalına köçürülməsidir. Tədqiqat yalnız istehsalın nəticəsi istehlak edildikdən sonra son məhsula çevrilir.

Təcrübəyə əsaslanaraq demək olar ki, elm tutumlu məhsul istehsalının həyata keçirilməsi prosesi iki mərhələdən ibarət olur: pilot istehsal və seriyalı həyata keçirilmə (elmin, yeni texnologiyaların nəticələrinin tətbiqi).

İlk mərhələdə elmi inkişaf konkret bir istehsal mühitində pilot sınaq tələb edir. Tamamlanmış tədqiqat üçün təklif elmi-texniki strukturlarda nəzərdən keçirilir və praktik istifadə üçün istehsalata göndərilir. Hərtərəfli sınaqlardan sonra yeni texnologiya elementləri olaraq seriya istehsalına yeni materiallar, texnologiyalar, tövsiyələr, metodlar daxil edilir. İkinci mərhələdə tədqiqat müəssisələri istehsalın həyata

keçirilməsində iştirak etmirlər. Onlar yalnız icraçı müəssisələrin tələbi ilə məsləhət verə və ya kiçik elmi və texniki yardım göstərə bilərlər.
Elmi ideyalar istehsalata tətbiq edildikdən sonra nəticələrin iqtisadi səmərəliliyi hesablanır. Tədqiqat işlərinin tətbiqinin iqtisadi səmərəliliyinin ümumi göstəricisi, ən az xərclə daha çox qənaətə nail olmağı stimullaşdırır. Bu göstəricinin hesablanmasına və geniş istifadəsinə ehtiyac iqtisadi stimullaşdırmanın yeni metodlarının tətbiqi ilə izah olunur. Elmin nəticələrinin və yeni texnologiyaların tətbiqi əsasən onu həyata keçirən strukturlar tərəfindən maliyyələşdirilir.
Tədqiqat işlərinin aparılması və həyata keçirilməsinin iqtisadi səmərəliliyinin əsas xərc göstəricilərində əlavə olaraq texniki, iqtisadi və texnoloji göstəricilərdən istifadə olunur. Onlar əsas xərc göstəricilərində əks olunduğu üçün çox vaxt köməkçi göstəricilər hesab edilir. Tədqiqat işlərinin aparılması və həyata keçirilməsi üçün qənaət və xərclərin məbləğini hesablamaq məqsədilə isə əsas maya dəyəri və qeyri-maddi göstəricilərdən istifadə olunur.Beləliklə, vaxt amili, əsas və yeni texnologiyanın maya dəyəri göstəricilərinin müqayisəsi nəzərə alınmaqla elmi-tədqiqatların aparılması və həyata keçirilməsinin iqtisadi səmərəliliyinin hesablanmasında düzgünlük təmin edilir. Bütün bunlar elmtutumlu istehsalla bağlı problemlərin aktuallığını təsdiq edən başlıca amillərdir.
**Tədqiqatın məqsədi.**Qloballaşmanın genişlənməsi ilə əlaqədar olaraq rəqabətin kəskinləşdiyi şəraitdə istehsalda elmi-texniki tərəqqinin və intellektual yeniliklərin tətbiqi, bu kontekstdə məhsulların keyfiyyətinin yüksəldilməsiistiqamətlərinin müəyyən edilməsi, elmtutumlu məhsul istehsalının formalaşması xüsusiyyətlərinin aşkara çıxarılması tədqiqatın əsas məqsədlərini təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

İqtisadi ədəbiyyatlarda elmtutumlu məhsul istehsalı məqsədilə aparılan tədqiqatların fundamental əhəmiyyət daşıyan iki cəhətinə üstünlük verilir:
- tədqiqatın iqtisadi səmərəliliyi barədə cəmiyyətin məlumatlandırılması;
- eyni dövrdə başlayan elmi fəaliyyətin peşəkarlaşdırılması.

Tədqiqatın nəticələrinin yeni texnologiyaların yaradılması və davamlı inkişaf üçün geniş tətbiq olunmağa başlanması üçün elmin iqtisadi səmərəliliyi özünü əhəmiyyətli dərəcədə göstərməyə başlayır. Beləliklə, elmi tədqiqatların səmərəliliyi konsepsiyasının dəyişdirilməsi zərurəti yaranır[2, s.62].
Beynəlxalq təcrübədə yüksək texnologiyalı istehsalın inkişafı iqtisadi inkişafın təmin edilməsinin ən vacib amili hesab olunur. Müasir şəraitdə elmtutumlu məhsul istehsalı sferası yüksək texnologiyalı elm tələb edən sahələr kimi xarakterizə olunur və bu sahələr ölkənin sürətli iqtisadi inkişafını müəyyənləşdirir, dünya iqtisadiyyatının sürətlə qloballaşması şəraitində olduqca vacib olan dünyanın intellektual liderləri sırasında yerini təmin edir.
Hazırda xammal və materialları cəmiyyətin ehtiyaclarına cavab verən hazır məhsula çevirmək mürəkkəb bir prosesdir və ümumiyyətlə hər hansı bir proses ardıcıl olaraq yerinə yetirilən işlərin zənciri kimi başa düşülür. İstehsal prosesi isə müəyyən məhsul növlərinin istehsalı üçün həyata keçirilən bütün hərəkətlərinin məcmusudur. Mürəkkəb yüksək texnoloji məhsulların istehsal prosesi dəstəkləyici proseslərdən - tədqiqat, məlumat-informasiyavə s., istehsal proseslərindən - texnoloji, mexaniki və s. və xidmətlərdən ibarətdir.
Elmtutumlu məhsulların istehsal prosesi fərqli cəhətləri ilə seçilir. Onlara daxildir:
- elm və istehsalda qarşlıqlı əməkdaşlıq;
- maddi və enerji intensivliyinin yüksək səviyyəsi;
- materiallardan istifadənin aşağı səviyyəsi;
- xüsusi avadanlıq istehsalının yüksək mürəkkəbliyi;
- texnoloji və nəzarət əməliyyatlarının çoxluğu və müxtəlifliyi;
- sınaq metodlarının tətbiqi;
- işçilərin ixtisaslarına yüksək tələblər;
- geniş çeşidli avadanlıq və ləvazimatlar;

- istehsal müəssisələrinə yüksək tələblər.

Beləliklə, elmtutumlu məhsulların istehsalı prosesini müasir avadanlıqlardan, ixtisaslı kadrlardan və işçi qüvvələrindən istifadə etməklə obyektlərin vəziyyətini, formalarını, ölçülərini və fiziki-kimyəvi xüsusiyyətlərini dəyişdirmək üçün hədəflənmiş hərəkətlərin cəmləşdirilməsi, çox sayda prosesin əvvəlcədən planlaşdırılan birləşməsi kimi xarakterizə edə bilərik. Yüksək texnologiyalı istehsalın texniki və iqtisadi xüsusiyyətləri isə texnologiyaların və material istehsalının inkişaf qanunauyğunluqları ilə əlaqədardır.

İstehsalın, o cümlədən bilik tələb edən sahələrin inkişafın ümumi qanunauyğunluğu, davamlı elmi və texnoloji tərəqqinin təsiri altında yaradılan və fəaliyyət göstərən vasitələrin ucuzlaşması ilə özünü göstərir. Xüsusən rəqabət şəratində maya dəyərinin aşağı düşməsi, məhsuldarlığın yüksəldilməsi hesabına məhsul istehsalının artırılması qeyd edilən sahələrin fəaliyyətinin əsas prinsipi kimi ifadə olunur.

Müasir elmi və texniki tərəqqi təkcə istehsal proseslərinin deyil, həm də onların idarə edilməsinin kompleks avtomatlaşdırılması ilə xarakterizə olunur[4, s.18]. Bununla yanaşı, avadanlıqların tənzimləyicilərinin istehsal dəyərində payı əhəmiyyətli dərəcədə azalması ilə müşayət olunur. Bu hal, maya dəyərinin azaldılmasına, məhsuldarlığının isə əhəmiyyətli dərəcədə artmasına daha sərt tələbləri formalaşdırır.

Elmtutumlu və yüksək texnoloji istehsalın texniki inkişafının əsas qanunauyğunluğu təkamül və inqilabi mərhələlərin alternatividir. Təkamül mərhələsi strukturların tədricən yaxşılaşdırılması, fundamental keyfiyyət dəyişikliklərinə şərait yaradılması, yəni inqilabi inkişaf mərhələsinə keçilməsi ilə xarakterizə olunur. İnqilabi mərhələ zərurət və arzu olunan nəticəni əldə etmək imkanı arasındakı təkamülün və aşkar edilmiş ziddiyyəti aradan qaldırılması nəticəsində əldə edilən nəticənin yeni keyfiyyətində özünü göstərir. Beləliklə, əldə edilən konkret məhsulun istifadəsinin səmərəliliyini əsaslı şəkildə artıran keyfiyyətin yüksəldilməsi prosesin nəticəsi kimi şərh edilir.

Yeni texnologiyanın və istehsalın inkişaf qanunauyğunluqları inkişafın təkamül və inqilabi sıçrayışlara daha çox uyğunlaşmasını şərtləndirir. İatehsal olunmuş məhsulların və texnologiyanın köhnəlməsindən və aktuallığını itirməsindən sonra daha təkmilləşmiş yeniliklərə və rasional sürətə əməl etməyə çalışılır. Bu baxımdan elmtutumlu istehsalın fərqləndirici texniki və iqtisadi xüsusiyyətləri mövcuddur. Həmin xüsusiyyətlər texniki və iqtisadi göstəricilərin hesablanmasına təsir etməklə istehsalın və əməyin təşkili, texnologiyanın səviyyəsi, məhsulun keyfiyyəti, əsas və dövriyyə vəsaitlərinin, əmək ehtiyatlarının istifadəsinin planlaşdırılması və təhlil edilməsi məqsədilə istifadə edilə bilər.

Məlumdur ki, yüksək texnoloji sahələrin yüksək keyfiyyətli maddi və istehsal bazası resurslardan səmərəli istifadəni xarakterizə edir. Bu baxımdan istehsalın səmərəliliyi məhsulun keyfiyyətinin texniki və iqtisadi hesablamalar sisteminin aşağıdakı mərhələlərlə müəyyənləşdirilməsini tələb edir:

- texniki tərəqqinin bütün səviyyələrində və mərhələlərində istehsalın səmərəliliyinin hesablanması, inkişaf mərhələlərinin ardıcıllığının müəyyən edilməsi;
- sosial-iqtisadi və elmi əsaslarla effektiv texnoloji sahələrin inkişafı üçün texniki proqnozların hazırlanması;
- istehsalın səmərəliliyi, təhlili, proqnozlaşdırılması və planlaşdırılmasının avtomatlaşdırılması üçün zəruri strategiya və proqramların hazırlanması;
- yekun iqtisadi hesablamaların aparılması.

Qeyd etmək lazımdır ki, məhsulun keyfiyyətinin texniki və iqtisadi göstəricilərinin səmərəliliyi nəinki yüksək texnologiyaların səviyyəsini xarakterizə edir, eyni zamanda yüksək texnologiyalı bir müəssisənin resurslarından istifadə səviyyəsinin nəticəsini əks etririr. Bu göstəricini təhlil edərkən, istehsalın dövrülük xüsusiyyətini nəzərə almaq vacibdir. Yüksək texnologiyaların dəyişməsinin dövrü xüsusiyyəti həm sahələr, həm də müəyyən müəssisələr üçün xarakterikdir.Texniki və iqtisadi göstəricilərinin yüksək səviyyədə olması ilə xarakterizə olunan yeni məhsul və texnologiyaların inkişafı mərhələsi sonradan istehsal miqyasının genişlənməsi mərhələsi ilə əvəz olunur.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, elmtutumlu və yüksək texnoloji məhsulların istehsalının təşkili ixtisaslı elmi, mühəndis və istehsal işçilərin mövcudluğu ilə fərqləndirilməlidir. Kadr potensialı

№ 2/2021 səh.43 - 47

rəqabətqabiliyyətli məhsullar yaratmaq, müəyyən elmi və texnoloji sahələrin inkişafında liderliyi qorumaq, habelə elmi-tədqiqat işlərinin istehsal fəaliyyətində vaxtında tətbiq edilməsini təmin etmək üçün kifayət səviyyədə olmalıdır. Bir çox cəhətdən yüksək ixtisaslı kadrlar istehsalın və texnologiyanın inkişafındakı təkamül və inqilabi dəyişikliklərə daha tez uyğunlaşmğa imkan verir.

**Nəticələr**

Araşdırmalara əsaslanaraq elmtutumlu və yüksək texnoloji məhsullar istehsalının aşağıdakı əsas xüsusiyyətlərini fərqləndirmək olar:

- elmi-tədqiqat və inkişafdan istehsal və istismara qədər bütün problemləri həll etməyə imkan verən istehsal fəaliyyətinin vahid təbiətinin olması;
- dəyişikliklər sayəsində elmtutumlu məhsulların təcrübi nümunələrinin tətbiqi, bütün istehsal dövrü ərzində ahəngdar inkişafı;
- nəzarət hərəkətlərinin təsirinin və istehsalın idarə edilməsində, həmçinin inkişaf strategiyasının seçilməsində məsuliyyəti artıran məhsulun həyat dövrünün əhəmiyyətliliyi;
- tədqiqat və istehsalın məqsədyönlü nəticələri üçün geniş, fundamental perspektivli sahələr arasındakı əlaqə;
- məhsulların yüksək elmi və texniki səviyyəsi;
- texnoloji dəyişiklik prosesinin istehsal üzərində üstünlüyü, əsas vəsaitlərin müntəzəm olaraq yenilənməsi və təcrübi bazanın inkişafı ilə əlaqədar ehtiyacın yaranması;
- tədqiqat və inkişafın xarakterinə uyğun istehsalın şaxələndirilməsi;
- elmi-tədqiqat elementlərinin daim yenilənməsində - tədqiqat, istehsal obyektləri, texnologiya, məlumat axını və s., kəmiyyət və keyfiyyət göstəricilərinin dəyişdirilməsində, elm və istehsal strukturunun, həmçinin idarəetmənin təkmilləşdirilməsində özünü göstərən istehsalın inkişafının yüksək dinamikliyi;
- keyfiyyətcə yeni bir məhsulun yaradılması məqsədilə bir qayda olaraq, əsas komponentlərin inkişafı;
- elmtutumlu məhsulların və yeni texnologiyaların istehsalata tətbiqinin yüksək iqtisadi səmərəliliyə malik olması.

Beləliklə, göstərilən xüsusiyyətlər müasir şəraitdə elmtutumlu və yüksək texnoloji məhsul istehsalı prosesinin mahiyyətini və məzmununu əks etdirir, elmlə istehsalın inteqrasiyası və vəhdətinin nəticəsi olaraq formalaşır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- elmlə istehsalın inteqrasiyası və vəhdətinin əsas istiqamətləri müəyyən edilmişdir;
- elmtutumlu məhsulla bağlı bütün istehsal dövrü ərzində ahəngdar inkişafın xüsusiyyətləri aşkara çıxarılmışdır;
- istehsal prosesində yeni texnologiyaların inkişaf qanunauyğunluqları müəyyənləşdirilmişdir;
- elmin və effektiv texnoloji yeniliklərin tətbiqi üçünstrategiya və proqramların hazırlanmasının zəruriliyi əsaslandırılmışdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti innovativ resurslardan istifadə etməklə elmlə istehsalın səmərəli əlaqələrinin qurulması imkanları ilə müəyyən olunur.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Elmi nəaliyyətlərin istehsalata tətbiqi rəqabət qabiliyyətli məhsul istehsalını şərtləndirməklə əldə olunan nəticələrin iqtisadi səmərəliliyin yüksəldilməsinin əsas şərtidir. Bu baxımdan tədqiqat işinin səmərəsi istehsalda özünü büruzə verməklə dayanıqlı iqtisadi inkişafın təmin olunması ilə xarakterizə olunur.

Ədəbiyyat

1. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu. 14 iyun 2016-cı il.
2. Болдин А.П. Основы научных исследований: Учебник. М.: Academia, 2018. - 272 с.
3. Мильнер Б.З. и др. Инновационное развитие: экономика, интеллектуальные ресурсы, управление знаниями. М.: ИНФРА-М, 2013. – 624 с.
4. Червоньов Д.М. Приоритетные направления развития науки и техники в системе государственного регулирования НТП. Киев, ун-та. - Серия экон. -Вып. 37 - 1997. 261 с.

№ 2/2021 səh.43 - 47
UOT 338.36

**Features of the formation of scientific production**

**Hamidzade E. O.**

**Summary**: The formation of economic relations based on the interaction of science and production, ensuring the innovative development of countries depends significantly on the improvement of existing technological means and the application of high technologies in production. In the context of globalization and intensification of competition, the acquisition and use of scientific and technological progress and intellectual innovation as the main factors of production is now considered a priority of economic policy. From this point of view, taking into account the characteristics of the formation of science-based production is one of the most important issues.

**Keywords**:scientific product, competitiveness, quality, innovative development, efficiency.

UDC338.36

**Особенности формированиянаучного производства**

**Хамидзаде Э. О.**

**Резюме:**Формирование экономических отношений, основанных на взаимодействии науки и производства, обеспечивающих инновационное развитие стран, в значительной степени зависит от совершенствования существующих технологических средств и применения высоких технологий в производстве. В условиях глобализации и усиления конкуренции приобретение и использование достижений научно-технического прогресса и интеллектуальных инноваций в качестве основных факторов производства в настоящее время считается приоритетом экономической политики. С этой точки зрения учет особенностей формирования наукоемкого производства является одним из важнейших вопросов.

**Ключевые слова:** научный продукт, конкурентоспособность, качество, инновационное развитие, эффективность.

Redaksiyaya daxilolma: 05.10.2021
Çapa qəbul olunma: 11.12.2021

**№ 2/2021** **səh.48 - 56**

**UOT342.218**

# DAĞLIQ VƏ DAĞƏTƏYİ BÖLGƏLƏRDƏ YERLƏŞƏN EV TƏSƏRRÜFATLARININ GƏLİRLƏRİNİN ARTIRILMASI İMKANLARI.

***Məmmədov Niyaz Nizami oğlu***

Azərbaycan Dövlət Aqrar Universiteti
Gəncə şəhəri, Atatürk prospekti, 450

[1]mammadovniyaz@mail.ru

***Xülasə:****Tədqiqat işinin özəyini Azərbaycanda və Gürcüstanda dağlıq və dağətəyi bölgələrdə yerləşən ev təsərrüfatlarının gəlirlərinin artırılması imkanlarının araşdırılması təşkil edir. Hər iki ölkədə tədqiqat üçün ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında diversifikasiyanın əhəmiyyəti vurğulanmış, diversifikasiya haqqında nəzəri fikirlər araşdırılmışdır. Eyni zamanda, sorğu nəticəsində əldə edilmiş məlumatlar əsasında ev təsərrüfatlarının kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələri üzrə gəlir potensial gəlir mənbələri araşdırılmış, tədqiqat ərazisindən asılı olaraq hansı sahələrin gəlirə daha çox təsir edə biləcəyi müəyyənləşdirilmişdir. Həmçinin daxili və xarici amillərin də ev təsərrüfatlarının gəlirlərinə təsiri öyrənilmişdir. Müqayisəli şəkildə aparılan təhlillər nəticəsində hər iki ölkənin ev təsərrüfatlarının kənd təsərrüfatı sahəsində gəlirinə təsir edən faktorlar müəyyən edilmişdir. Məqalədə müxtəlif mənbələr üzrə gəlirlərin az və çox olmasının səbəbləri müəyyənləşdirilmiş, ev təsərrüfatlarının gəlirinin artırılması imkanları araşdırılmışdır.Əldə edilmiş nəticələr əsasında müvafiq təkliflər verilmişdir.*

***Açar sözlər:*** *ev təsərrüfatları, yardımçı təsərrüfat sahələri, kənd təsərrüfatı, gəlir, gəlirlərin diversifikasiyası*

Giriş.Bazar iqtisadiyyatı şəraitində ev təsərrüfatları öz gəlir mənbələrini müxtəlif resusrlardan əldə edə bilərlər. Belə ki, əsas istehsal və ya fəaliyyət növləri ilə yanaşı bir sıra ev təsərrüfatlarının şəxsi yardımçı təsərrüfatları da mövcuddur ki, bu yardımçı təsərrüfat sahələri bizim tədqiqat apardığımız istər ölkəmizin kəndlərində, istərsə də Gürcüstanın kəndlərində mövcuddur. Bu təsərrüfat sahələri kifayət qədər olmasa da, ev təsərrüfatının gəlirinin müəyyən bir hissəsini təşkil edir. Yardımçı təsərrüfatlarda istehsal olunan məhsulların hər iki ölkə üzrə 90 faizi elə ev təsərrüfatlarının özləri tərəfindən istehlak olunur və ya bu məqsədlə istehsal olunur. İstehsal olunan məhsullar əsasən bitkiçilik məhsulları olub daha çox ev təsərrüfatlarının malik olduğu həyətyanı sahələrdə, bəzən isə pay torpaqlarında becərilir.

**Mövzunun aktuallığı.**Dünyanın bir çox regionunda olduğu kimi Qafqaz regionunda da dağlıq və dağətəyi ərazilərdə yerləşən ev təsərrüfatlarının gəlirlərini kənd təsərrüfatı fəaliyyəti ilə yanaşı qeyri-kənd təsərrüfatı fəaliyyətindən əldə olunan daxilolmalar təşkil edir. Tədqiqatımızda Qafqaz regionu üçün az tədqiq edilmiş- ev təsərrüfatlarının gəlirlərinin şəxaləndirilməsi imkanları, diversifikasiyada heyvandarlığın, əkinçiliyin və qeyri-kənd təsərrüfatı fəaliyyətlərinin rolu, ev təsərrüfatlarının gəlirlərinə təsir edən amillər kimi məsələlər araşdırılmışdır.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi ev təsərrüfatlarının gəlirlərinin formalaşdıran mənbələri araşdırmaqdan, ev təsərrüfatlarının gəlirlərinin artırılması istiqamətində potensial imkanların müəyyənləşdirilməsindən və bu istiqamətdə elmi əsaslara söykənən nəzəri və təcrübəvi əhəmiyyətli təklif və tövsiyələr hazırlamaqdan ibarətdir.

**Tədqiqat obyekti.**Tədqiqatın obyektini Kiçik Qafqaz ərazisində Azərbaycanın Gəncə-Qazax bölgəsi, Gürcüstanda Kaxetiya bölgəsində yerləşən ev təsərrüfatları təşkil edir.

**Tədqiqat metodları.**Tədqiqat ərazilərində iki mərhələdən ibarət sorğu keçirilmişdir. Birinci mərhələdə toplanan ümumi sosial-iqtisadi məlumatlar əsasında ikinci mərhələ üçün ərazidə yerləşən ev təsərrüfatları

**№ 2/2021** **səh.48 - 56**

məşğulluq istiqamətləri üzrə 4 təsnifata bölünmüş və fəaliyyətlərinin maliyyə göstəriciləri üzrə sorğu keçirilmişdir.Ümumilikdə 300-dən çox ev təsərrüfatlarından əldə edilən məlumatlar əsasında model ev təsərrüfatı yaratmaqla, onların gəlir mənbələri və gəlirlərin artırılması istiqamətində potensial imkanlar tədqiq edilmişdir. Keçirilən sorğuya əsasən ev təsərrüfatlarının gəlirlərində qeyri-kənd təsərrüfatı fəaliyyətindən gəlirlərin heç də az olmadığı aşkar şəkildə üzə çıxır.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, daha yüksək gəlirə malik olan ev təsərrüfatlarının təkcə mülkiyyətində olan əkin sahələrinin genişliyi və heyvanların baş sayının çox olması deyil, eyni zamanda qeyri-kənd təsərrüfatı gəlirlərinin də olması əhəmiyyətli dərəcədə rol oynayır. Bununla yanaşı istər heyvandarlıq, istərsə də bitkiçilik istiqamətində fəaliyyətlərini şaxələndirən ev təsərrüfatlarının gəlirləri daha çoxdur. Ev təsərrüfatları gəlirlərini stabil saxlamaq, artırmaq, riskləri azaltmaq və ən əsası ərzaq təhlükəsizliyini təmin etmək üçün bu cür şaxələnmiş metoddan istifadə edirlər. Bu səbəbdən də diversifikasiyanın öyrənilməsi, kənd yerlərində olan ev təsərrüfatlarında yaşayanların həyat tərzini başa düşmək, onların ərzaq təhlükəsizliyinin təmin edilməsi və rifah halının arıtırılması baxımından vacibdir. Bu cür fəaliyyət tərzi xüsusən də bol və müxtəlif təbii resurslardan istifadə edə biləcəyi kənd yerlərindəki ev təsərrüfatları üçün xarakterikdir. Bununla belə bu bölgələrdə zəif infrastrukturun olması və qeyri-kənd təsərrüfatı sahələrində məşğulluq imkanlarının aşağı olması urbanizasiyaya və demoqrafiq dəyişikliyə yol açır. Bu səbəbdən kənd yerlərində ev təsərrüfatlarının gəlirlərinin artırılması və urbanizasiyanın qarşısının alınması üçün qeyri-kənd təsərrüfatı fəaliyyətlərinin də inkişaf etdirilməsi vacibdir.

Diversifikasiya aqrar bölmədə istehsalın təşkilinin əsas formalarından biri kimi iqtisadi cəhətdən daha səmərəli istehsal sahələrinin müəyyən edilməsi və inkişaf etdirilməsini özündə ehtiva edən iqtisadi prosesdir. Diversifikasiya ənənəvi istehsal sahələri ilə yanaşı ev təsərrüfatları üçün çoxsahəli komplekslərə çevirən fəaliyyət sahələrini də xarakterizə edir [2, c.1, s.528]. Bu proses əsas istehsal ilə bağlı olmayan fəaliyyət sahələrinin yaradılmasına üstünlük verilməsini nəzərdə tutur. Diversifikasiyanın konsentrik (mövcud olan texnologiya ilə yeni növ məhsul istehsalı) [3, s.14], şaquli, üfüqi və korperativ olmaqla 4 əsas istiqaməti müəyyənləşdirilir. Dünya iqtisadi ədəbiyyatında diversifikasiyaya müxtəlif yanaşmalar olmuşdur. Bəzi iqtisadçılar diversifikasiyanı müxtəlif müəssisələr tərəfindən istehsal edilən əmtəə çeşidinin dəyişdirilməsi və genişləndirilməsi kimi xarakterizə edir. Diversifikasiyanı eyni vaxtda bir neçə bazara xidmət göstərən müəssisələr şəklində izah edən fikirlər də mövcuddur. Bir qrup iqtisadçılar isə bu prosesə istehsal və mübadilə sferasında risklərin azaldılması və maliyyə dayanıqlığının yüksəldilməsi strategiyası kimi baxır [3, s.15]. Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan təsərrüfatlarda diversifikasiya prosesinin iqtisadi əsaslandırılması, bu prosesdən irəli gələn məsələlərin – mövcud resurslardan istifadənin və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi, iqtisadi cəhətdən daha üstün istehsal sahələrinin müəyyənləşdirilməsi və digər strategiyaların hazırlanması vacib şərtlərdəndir[3, s.16]. Kənd təsərrüfatında struktur dəyişikliklərinə gətirib çıxaran diversifikasiya prosesinin həyata keçirilməsində tələbatın yerli istehsal hesabına ödənilməsi imkanlarının yaxşılaşdırılması əsas məsələlərdəndir [3, s.17]. Diversifikasiya prosesi ənənəvi istehsal sahələri ilə yanaşı kənd təsərrüfatı istehsalçılarına bazarın tələbinə uyğun yeni növ məhsul istehsalı ilə məşğul olma vərdişinin və bacarığının formalaşmasına şərait yaradır. İqtisadi cəhətdən daha üstün istehsal sahələrini müəyyənləşdirməyə imkan verən diversifikasiya prosesi istehsal və satışın nəticələri ilə bağlı riskləri əvvəlcədən “sığortalamaqla” müəssisələrin maliyyə dayanıqlığının təminatçısı qismində çıxış etmiş olur, eyni zamanda rəqabətqabiliyyətli məhsul istehsalı baxımından innovasiyaların istehsala cəlb edilməsinin stimullaşdırıcı amilinə çevrilir. Nəhayət diversifikasiya istehsalla bazar, istehsalçılarla istehlakçılar, tələblə təklif arasında əlaqəni tənzimləyən mühüm bir strategiya kimi kənd təsərrüfatı müəssisələrinin iqtisadi inkişafının təkanverici mexanizmi rolunu oynaya bilir [3, s.23].

Təbii resursların bolluğunun və ya güclü infrastrukturun şaxələndirməyə təsirini başa düşmək, bu kontekstdə kənd yerlərində dayanıqlı inkişafın təmini üçün iqtisadi və siyasi tövsiyələrin işlənib hazırlanmasında çox vacibdir. Region üzrə ev təsərrüfatlarının gəlirlərinin diversifikasiyası istiqamətində

araşdırmalar olduqca azdır [10, s.157-177; 5, s. 1737-1745]. Qeyd olunan ərazilər üçün heyvandarlıq və bitkiçilik torpaqdan istifadənin geniş yayılmış fəaliyyət istiqamətləri olsa da, ev təsərrüfatlarının gəlirlərindəki xüsui çəkisi 100 faiz deyildir [9, s.1-2]. Xüsusi ilə Gürcüstanda ev təsərrüfatlarının qeyri-kənd təsərrüfatı fəaliyyətindən əldə edilən gəlir, ümumi gəlirin 40 faizindən çoxunu, bəzi ev təsərrüfatlarında isə yarısından çoxunu təşkil edir. Qeyri-kənd təsərrüfatı fəaliyyətinin olmaması ev təsərrüfatlarının gəlirinin və həyat səviyyəsinin aşağı olmasının əsas səbəblərindən biridir. Çünki, kifayət qədər riskli sahə olan kənd təsərrüfatından birtərəfli asılılıq, ev təsərrüfatlarının gəlirlərinin nəinki az olmasına, hətta hər hansı bir xarici amillərin təsiri nəticəsində həmin gəlirdən də məhrum olma ehtimalını yaradır [8, s.31-39]. Ancaq dağlıq ərazilərdə təkcə bitkiçilik və qeyri kənd təsərrüfatı fəaliyyətindən əldə edilən gəlir, yəni ümumiyyətlə heyvandarlıq fəaliyyətinin olmaması da müəyyən iqtisadi risklərə gətirib çıxara bilər. Heyvandarlıqdan əldə olunan gəlirlərin digər sahələrdən əldə olunan gəlirlərlə birləşməsi ev təsərrüfatlarının gəlirlərinin artmasına səbəb olmaqla bərabər risklərin də sahələr üzrə paylanmaqla azalmasına səbəb olur. Digər bir tərəfdən ev təsərrüfatlarının bitkiçilik və qeyri –kənd təsərrüfatı fəaliyyətləri ilə eyni anda məşğul olması iri fermer təsərrüfatlarının yaradılmasına və daxili nəzarət edilməsinə mane olur. Bu baxımdan heyvandarlıq sahələrinin çeşidliliyini təmin etmək və bu sahədə ixtisaslaşmaya meyllənmək dağlıq ərazilərdə ən gəlirli strategiya ola bilər.

Elmi işimizin ana xəttini təşkil edən tədqiqat suallarının bir neçəsi də məhz bu istiqamətdə idi. Azərbaycanda və Gürcüstanda ev təsərrüfatları gəlir mənbələrini nə dərəcədə şaxələdirirlər? Heyvandarlıq ev təsərrüfatlarının gəlirlərinin şəxələndirilməsində hansı rolu oynayır? Diversifikasiya və digər faktorlar, eləcə də yerli xüsusiyyətlər ev təsərrüfatlarının gəlirlərinə necə təsir edir?
Apardığımız geniş miqyaslı sorğular nəticəsində oxşar ekoloji mühitdə mövcud sosial-iqtisadi şərtlərin ev təsərrüfatlarının gəlirlərinə təsirini araşdırmağı qarşıya məqsəd qoymuşuq. Elmi tədqiqat işimiz Qafqaz regionunda ev təsərrüfatlarının gəlir mənbələrini, gəlirin potensial imkanlarını araşdıran ilk tədqiqatlardandır. Tədqiqat obyektlərinin dağlıq və dağətəyi ərazilərdə yerləşməsinə baxmayaraq ev təsərrüfatlarının qeyri- kənd təsərrüfatı ilə məşğulluğunu və bu sahədən gəlir mənbələrini də araşdırdıq. Qeyri-kənd təsərrüfatı sahəsindən əldə edilən gəlirlərin tədqiq edilməsi həmin ərazilərdə yerləşən ev təsərrüfatlarının gəlir mənbələrində olan fərqlilikləri izah etməyə imkan verir [9, s.14-19].

Dağlıq və dağətəyi ərazilərdə ev təsərrüfatları xüsusi ilə kənd təsərrüfatı fəaliyyəti üzrə əldə edilən gəlirin mövsümdən asılılığını (əkinçilikdə), riskləri azaltmaq və həyat səviyyəsini yaxşılaşdırmaq üçün müxtəlif kənd təsərrüfatı fəaliyyəti ilə yanaşı, qeyri-kənd təsərrüfatı sahələri ilə məşğul olmaq ənənələrini davam etdirir[6, s.1-38]. Eyni zamanda araşdırmalarımız ev təsərrüfatlarının gəlir mənbələrinin şaxələndirilməsinə səbəb olan digər amilləri də üzə çıxardı. Belə ki, ev təsərrüfatları üzvlərinin təhsil səviyyələri ilə yanaşı, xarici mühit amili kimi təsərrüfatların yerləşdiyi ərazilərin infrastrukturu da gəlirə təsir edir. Ev təsərrüfatlarının yüksək gəlirə malik olmasının əsas səbəblərindən biri də bitkiçilik və heyvandarlıq fəaliyyətləri ilə peşəkarcasına məşğulluqla yanaşı, qeyri-kənd təsərrüfatı fəaliyyət sahələrinin də mövcudluğudur.Tədqiqatlarımız ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyətində peşəkarcasına yanaşmanın da gəlirlərin çox olmasında əhəmiyyətli dərəcədə rol oynadığını göstərdi. Belə ki, eyni kənddə olmasına baxmayaraq arıçılıq təsərrüfatına daha peşəkar formada qulluq edən ev təsərrüfatı, təsərrüfatına qeyri-peşəkar (zəif) qulluq edən ev təsərrüfatından hər arı ailəsi üçün orta hesabla 10-12 manat daha çox gəlir əldə etmiş olur. Bunun əksinə, az gəlirli ev təsərrüfatları malik olduqları kənd təsərrüfatı fəaliyyəti sahələrində lazımı aqrotexniki qaydaları tətbiq etməməklə yüksək məhsuldarlıq və bunun müqabilində yüksək gəlir əldə etmək imkanından məhrum olurlar.

Təhsilin də ev təsərrüfatlarının gəlirlərinə təsirlərini qeyd etmişdik. Üzvlərinin yüksək təhsilə malik olmaması ev təsərrüfatlarının alternativ gəlir mənbələrinə malik olma imkanlarını azaldır. Bu da dağlıq regionlarda ev təsərrüfatlarının məşğulluqini kənd təsərrüfatı fəaliyyət sahələri ilə məhdudlaşdırmaqla yanaşı, həmin məşğulluq sahələrinə qeyri-peşəkar yanaşmanı da qaçılmaz edir. Xüsusi ilə Gürcüstanda belə ev təsərrüfatlarının böyük bir qismini, yaşadıqları regionda meşə sahələrində yabanı halda bitən məhsulların toplanması, onların şəxsi istehlakı və satışı ilə məşğul olan ev təsərrüfatları təşkil edir. Əsasən Qombori kəndində ev təsərrüfatları göbələk yığıb satmaqla məşğul olur. Bununla yanaşı həm

Gürcüstanda, həm də ölkəmizdə müalicəvi əhəmiyyətli bitkiləri yığıb satan ev təsərrüfatları mövcuddur ki, bu məşğulluq sahələri o qədər də yüksək gəlir gətirmir. Qeyd olunan məhsulların toplanmasının ilin bütün fəsillərində mümkün olmaması, üstəlik yığılan məhsulların dərhal satılmaması, satılan məhsulun qiymətinin o qədər də yüksək olmaması həmin ev təsərrüfatlarının əldə etdikləri gəlirin aşağı olmasının əsas səbəblərindəndir. Ev təsərrüfatlarının bu cür məşğulluq sahələrinə yönəlməsinin səbəbi isə bu sahələrlə məşğul olmaq üçün maliyyə vəsaitinə ehtiyacın olmamasıdır. Sorğu zamanı Gürcüstandakı ev təsərrüfatları da bu amilə diqqət çəkərək, gəlirin az olmasına baxmayaraq, heç bir vəsait xərcləmədiklərindən bu işləri risksiz olaraq qəbul edirlər. Aparılan sorğular da onu göstərir ki, bu cür işlərlə əsasən üzvləri heç bir təhsilə malik olmayan ev təsərrüfatları məşğul olurlar.

İnfrastrukturun vəziyyəti də həm gəlirin, həm də gəlir mənbələrinin çeşedliliyinə təsir edən amillərdəndir. Ev təsərrüfatlarının yerləşdiyi ərazilərin bazara çıxış imkanlarının olması, bazarlara olan yaxınlığı da gəliri artıran başlıca səbəblərdəndir. Bu amil ev təsərrüfatlarının istehsal etdikləri məhsulları özlərinin bazara çıxarmasına imkan verir. Nəticədə ev təsərrüfatlarının vasitəçilərdən və onların diktə etdiyi qiymətlərdən asılılığı aradan qalxmış olur. Onlar istehsal etdikləri məhsulun satışını mövcud bazar qiymətlərinə uyğun reallaşdıra bilir, və vasitəçilərin diktə etdiyi qiymətə satmaq məcburiyyətində olmurlar. Bazar infrastrukturuna yaxınlığı baxımından Azərbaycanın Kərəmli kəndi, Gürcüstanın isə Araşenda kəndi daha əlverişli coğrafi mövqedə yerləşir. Bazara yaxın olmalarının bu kəndlərin ev təsərrüfatlarının gəlir səviyyəsinə təsirini elmi tədqiqat işimizin əvvəlki fəsildə qeyd etmişdik. Atabəy və Şaxvetila kəndlərinin isə bunun əksinə olaraq bazarlardan uzaq olması və eyni zamanda hər iki kəndin yol infrastrukturunun olmaması ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyəti sahələrindən əldə etdikləri gəlirlərə əsaslı şəkildə mənfi təsir edir. Çünki bu cür yollarda az həcmdə istehsal olunmuş məhsulların hər gün avtomobillə daşınması nəqliyyat vasitəsinə texniki baxımdan ciddi ziyan vurur. Xüsusi ilə kiçik həcmli ev təsərrüfatları məhsullarını tez bir zamanda bazara çıxarmaq üçün ya vasitəçilərə satmalı olur, ya da bir neçə qonşu təsərrüfat birləşərək avtomobili olan ev təsərrüfatı ilə bazara məhsul çıxarırlar. Doğrudur sonuncu halda xərclər bir neçə ev təsərrüfatı arasında bölüşdürülsə də, bu gəlirin artırılması üçün əsaslı təsir deyil. Yol infrastrukturunun olmaması ev təsərrüfatlarında kənd təsərrüfatı fəaliyyəti sahələrinə olan marağı da azaldır. Kiçik həcmli təsərrüfat sahələrinə malik ev təsərrüfatları istehsal etdikləri məhsulları sata bilmədikləri üçün qeyri-kənd təsərrüfatı sahələrinə can atırlar. Bu da nəinki gəlirin artmasına, əksinə ev təsərrüfatlarının gəlirlərinin şaxələnməsininin qarşısının alınmasına gətirib çıxarır. İnfrastrukturun zəif olması, şəhərin səs-küylü amma kəhkəşanlı həyat tərzindənuzaqlığı gənclərin də kənd təsərrüfatı fəaliyyəti sahələrinə, ümumiyyətlə kənd həyatına olan marağını azaldır. Bu da nəticədə xüsusi ilə gənclərin kütləvi şəkildə urbanizasiyasına gətirib çıxarır. Eyni zamanda onlar qeyri-kənd təsərrüfatı sahələrini kənd təsərrüfatına nəzərən daha az riskli hesab edirlər. Stabil gəlirin olması düşüncəsi də, onları kənd təsərrüfatı fəaliyyətindən uzaqlaşdırır. Doğrudur stabil gəlirin olması nəinki ev təsərrüfatları, bütün iqtisadi qurumlar üçün əlverişli məqam hesab olunur. Ancaq unutmaq lazım deyil ki, gənclərin bu addımı birtərəfli asılılığa, yəni ev təsərrüfatlarının gəlir mənbələrinin azalmasına gətirib çıxarır. Digər tərəfdən isə qeyri-kənd təsərrüfatı sahəsindəki işin daimi olmasına heç kim təminat verə bilməz. Qlobal iqtisadiyyatın yenicə dirçəldiyi, iqtisadi böhranın təsirlərini aradan qaldırdığı bir vaxtda pandemiyanın həm dünyada, həm də ölkəmizdə iqtisadi təsirləri kifayət qədər böyük oldu. Xüsusi ilə xidmət sahələrində bir sıra fəaliyyətlərin dayandırılması gənclərin işsiz qalması ilə nəticələnmişdir. Bu da ev təsərrüfatının ən azı bir mənbə üzrə gəlirinin itirilməsi deməkdir.

Bazara çıxışın asanlaşdırılması, yol infrastrukturunun yaxşılaşdırılması, coğrafi baxımından əlverişsiz mövqedə yerləşən kəndlər üçün satış kanallarının yaradılması ev təsərrüfatlarının gəlirlərinin və gəlir mənbələrinin artırılmasına imkan yarada bilər. Eyni zamanda yaradılacaq satış kanallarının yerlərdə icrasına və nəzarətinə gənclərin cəlb edilməsi, onların məşğulluğu istiqamətində mövcud olan problemlərin aradan qaldırılmasına, kənd təsərrüfatı fəaliyyəti sahələrinə və ümumiyyətlə kənd həyatına marağı artırmış olar. Həmçinin kənd mərkəzlərində "şəhər imicini" xatırladan infrastrukturun qurulması (ailəvi istirahət mərkəzi, uşaqlar üçün atraksionlu park) urbanizasiyanın qarşısını müəyyən qədər ala bilər.

№ 2/2021 səh.48 - 56

Kənd yerlərində internetə çıxışın asanlaşdırılması da ev təsərrüfatlarının gəlirinə təsir edən amillərdən ola bilər. Yəni ev təsərrüfatları internet şəbəkəsi vasitəsi ilə istehsal etdikləri məhsulları yaxınlıqdakı hansı bazarlarda satışını təşkil edə biləcəklərini, hansı məhsula daha çox tələbatın olduğunu, mövcud real qiymətləri özləri izləyə bilər, istehsal fəaliyyətini bu istiqamətdə müəyyənləşdirə bilərlər. İnternet resursunun yaxşılaşdırılması ev təsərrüfatlarının elektron kənd təsərrüfatı informasiya sistemində (EKTİS) subsidiya üçün müraciətlərinin asanlaşmasına və müvafiq istiqamətdə yaranan çətinliklərin tez bir zamanda aradan qaldırılmasına imkan verər. Kəndlərdə internetin təmin edilməsi Dövlət Vergi Xidməti və DSMF-na hesabatların təqdim edilməsini asanlaşdırar, ev təsərrüfatları bu kimi məsələləri icra etmək üçün şəhərə üz tutmaq məcburiyyətində qalmayacaqlar. Eyni zamanda gələcəkdə indeksli sığortanın tətbiqi ilə əlaqədar Aqrar Sığorta Fonduna ediləcək müraciətlərin də elektron qaydada icrası təmin edilər .

Ev təsərrüfatlarının gəlirlərinə təkcə bazar və yol infrastrukturu təsir etmir. Kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin də coğrafi baxımından yerləşməsi gəlirlərə təsir edən amillərdəndir. Bu baxımdan biçənək və əkin sahələrinin, ev təsərrüfatlarından hansı məsafədə yerləşməsi əhəmiyyətli dərəcədə rol oynayır. Belə ki, biçənək sahələrinin və əkilən ərazilərin ev təsərrüfatlarından uzaqda yerləşməsi bir sıra hallarda onlardan istifadə edilməməsinə gətirib çıxarır. Bu hal Gürcüstanın kəndlərində aktiv şəkildə müşahidə olunduğu halda, Azərbaycanda Plankənd kəndində rast gəlindi. İstər əkin sahələrinin, istərsə də biçənək sahələrinin uzaqda yerləşməsi nəqliyyat xərclərini artırdığı üçün ev təsərrüfatlarının bu ərazilərdən istifadəsini zəiflədir. Eyni zamanda bu ərazilərə uzun müddət aqrotexniki qaydada qulluq edilməməsi, bu torpaqların və onun ot örtüyünün keyfiyyətinin itirilməsinə gətirib çıxarır. Nəticədə ev təsərrüfatları gəlir mənbələrindən birini itirmiş olur.

Qeyd olunan amillərlə yanaşı su problemi də ev təsərrüfatlarının fəaliyyətinə, nəticə etibarı ilə gəlirinə əsaslı şəkildə təsir edir. Tədqiqatımızdan əldə edilən nəticələr əyani şəkildə sübut edir ki, xüsusi ilə əkin sahələri üçün yaxşı irriqasiya sisteminə malik olan bölgələrdə ev təsərrüfatlarının gəlirləri də yüksəkdir. Əlbəttə əkin sahələrinin normaya uyğun olaraq vaxtında suvarılmasının məhsuldarlığa müsbət təsiri olduğunu qeyd etmək bizim tədqiqatımızın elmi yeniliyi deyil. Ancaq, yüksək məhsuldarlıq ev təsərrüfatlarının gəlirlərinin çox olmasına gətirib çıxarır ki, bu da onların xərclərini qarşılamaqla yanaşı əlavə mənfəətin əldə edilməsinə imkan yaradır. Bu amil ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyəti sahələrinə olan marağını artırmış olar. Azərbaycanın Kərəmli və Gürcüstanın Araşenda kəndlərində içməli su təchizatı ilə bağlı böyük problemlər var. Həmçinin hər iki kənddə yerli əhalinin kənd təsərrüfatı sahəsində istifadə etmək üçün irriqasiya sisteminə ehtiyac var. Hər iki dəniz səviyyəsindən çox da yüksəkdə yerləşmədiyi üçün torpaqların əsas hissəsi suvarılandır. Tədqiqat işinin əvvəlki fəsillərində Göygöl rayonunun Kərəmli kəndində suvarma suyunun az olması region üçün spesifik və yüksək gəlirliyə malik olan moruq bitkisinin daha çox əkilməsinin qarşısını alır. Nəticədə həyatyanı sahələrdə olan ərazilər ya əkilmir, ya da təyinatı üzrə istifadə olunmur. Beləliklə ev təsərrüfatları daha bir gəlir mənbəyindən səmərəli istifadə etməmiş olur.

Həmçinin ev təsərrüfatlarının subsidiya hesabına da gəlirlərini artırmaq imkanları mövcuddur. Respublikamızda kənd təsərrüfatı istehsalçılarına 2007-ci ildən etibarən subsidiyaların verilməsi prosesinə başlanıldı. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına uyğun olaraq kənd təsərrüfatında istifadə edilən yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədi ilə dövlət büdcəsinin vəsaiti hesabına əkilən hər hektar üçün 40 manat yardımın verilməsi, məhsuldarlığa təsir göstərən reproduksiyalı toxum materialının satışına görə hər kq-a 30-40 faiz əlavə maliyyə vəsaitinin ayrılması təmin edilmişdir. Həmin ildən etibarən subsidiya verilən məhsulların, sayı, çeşidi və subsidiya məbləği ilbəil artırılaraq kənd təsərrüfatı məhsul istehsalçılarının maddi maraqlarını təmin edilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Doğrudur, tədqiqat ərazilərində subsidiya verilən bitki növlərindən əsasən buğda bitkisi əkilir. Lakin ev təsərrüfatlarının çoxunun torpaq sahələri ilə bağlı sənədlərinin qaydasında olmaması onların bir çoxunu bu subsidiyadan məhrum edir. Tədqiqat zamanı bir qisim ev təsərrüfatları da aldıqları subsidiya

ilə bağlı müfəssəl məlumat vermədiklərindən həmin ərazilər üzrə subsidiyanın gəlirdə xüsusi çəkisinin hesablanması mümkün olmamışdır. Heyvandarlıqda isə cins mal-qara yetişdirdiyi üçün subsidiya alan təsərrüfatlar əsasən iri təsərrüfatlardır. Lakin respublikanın ayrı-ayrı bölgələrində kənd təsərrüfatı kooperativləri, fərdi sahibkar və digər kənd təsərrüfatı məhsul istehsalçıları üzrə apardığımız tədqiqatlar subsidiyanın gəlirdə xüsusi çəkisinin olduqca yüksək olduğunu göstərir. Xüsusi ilə taxıl məhsulları üzrə subsidiyanın gəlirin tərkibində xüsusi çəkisi 6-10 faiz təşkil edir [7]. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq Aqrar Subsidiya Şurası 2020-ci ildə subsidiyaların verilməsi üçün bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarını, toxum və ting kvotalarını müəyyənləşdirib. Həmçinin heyvandarlıq istiqamətində süni mayalanma və ya embrion köçürməsi yolu ilə alınan hər bir sağlam buzova görə 100 manat, saxlanılan hər arı ailəsi üçün 10 manat, tədarükçüyə təhvil verilən yaş baramanın hər kiloqramına görə 5 manat məbləğində subsidiya müəyyən edilmişdir. Hər baş buzova və saxlanılan hər arı ailəsinə görə verilən subsidiya ev təsərrüfatlarının gəlirlərinin artırılmasında xüsusi rol oynaya bilər. Həm Gədəbəy rayonunun Plankənd kəndində, həm də Göygöl rayonunun Kərəmli kəndində arıçılığın inkişafı üçün potensial imkanlar mövcuddur. Eyni zamanda nəzərə alsaq ki, hər iki kənddə heyvandarlıq sahəsində iri buynuzlu mal-qara kifayət qədərdir, onda bu sahə üzrə alınacaq subsidiyanın da məbləği az olmayacaqdır. Əlbəttə ilk öncə cins mal-qaranın saxlanılması və eyni zamanda suni mayalandırılma işlərinin aparılması təşviq edilməlidir. Bu istiqamətdə xaricdən gətirilən cins mal-qaranın qiymətinin 50 faizinin dövlət hesabına ödənildiyini də əlavə etmək lazımdır. Subsidiyanın ev təsərrüfatlarının gəlirinin artırılmasında xüsusi əhəmiyyəti vardır. Lakin tədqiqat apardığımız ev təsərrüfatlarında bunu aşkar şəkildə görə bilmədik. Daha əvvəl də qeyd etdiyimiz kimi bunun əsas səbəblərindən biri subsidiya ilə bağlı ev təsərrüfatlarının müfəssəl məlumat verməmələridir. İkincisi ev təsərrüfatlarının xüsusi ilə əkin subsidiyasını almaları üçün malik olduqları torpaq sahələrinə məxsus sənədlərin qaydasında olmamasıdır. Bunun üçün ilk növbədə ev təsərrüfatları arasında maariflənmə işləri aparılmalıdır. Eyni zamanda ev təsərrüfatlarının gəlirlərində subsidiyanın xüsusi çəkisini artırmaq ilk növbədə əkin sahələrindən düzgün istifadə edilməli, heyvandarlıqda isə peşəkar qulluq qaydalarına riayət edilməlidir.

Ev təsərrüfatlarının gəlirlərində mühüm paya malik ola biləcək fəaliyyət sahələrindən biri də aqroturizmdir. Aqroturizm kənd yerlərində təbii qaynaqlardan istifadə etməklə turistlərə kənd həyat tərzini aşılamağa əsaslanır. Kənd turizminin inkişafı "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi"ndə öz əksini tapmışdır. Belə ki, "Strateji hədəf 9. Kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi" strateji hədəfinin " Prioritet 9.2. Kənd yerlərində alternativ fəaliyyət sahələrinin inkişafının dəstəklənməsi" prioriteti üzrə nəzərdə tutulan tədbirlərdən biri də (Tədbir 9.2.1: Kənd turizminin və ekoturizmin inkişaf etdirilməsi) məhz kənd turizmi ilə bağlıdır [1, s. 137].

Kənd turizmi özündə bir eko-otel, eko-ev, çadır (dəyə) və ya çardaqda turistlərin müəyyən müddətdə kənd həyat tərzini görməyi, atçılıq, balıq ovu, heyvanların turistlər tərəfindən yemləndirilməsi, yun qırxımı, süd sağımı, pendir və digər məhsulların hazırlanması, bitkiçilikdə məhsulun toplanması, meyvə və məhsul yığımı, eləcə də məhsul bayramlarının və müxtəlif festivalların təşkili fəaliyyətlərini özündə cəmləşdirir. Amerika, Avropa, Yeni Zellandiya, Türkiyədə geniş yayılan aqroturuizmi ölkəmizdə inkişaf etdirmək üçün potensial imkanlar mövcuddur [4]. Bu istiqamətdə ölkəmizdə müəyyən addımlar atılsa da kənd turizminin tam inkişafından söhbət gedə bilməz. Belə ki, bir neçə ildir ki, Göyçay rayonunda təşkil edilən "Nar Bayramı", 2019-cu ildə Gədəbəydə keçirilən "Yaylaq festivalı" kənd turizminin inkişafında bir qığılcım olmalıdır. Ümumiyyətlə Azərbaycanın Gədəbəy rayonunun Plankənd və Gürcüstanın Saqareco rayonunun Qombori kəndlərində kənd turizminin inkişafı üçün əlverişli və potensial imkanlar mövcuddur. Bunu "Yaylaq festivalı" keçirilən ərəfədə bir daha şahidi olduq. Kənd turizmi ev təsərrüfatlarının əlavə gəlir mənbəyi olmaqla, kənd yerlərində iş imkanlarının və yekundə gəlirlərin artmasına imkan yaradır. Bu istiqamətdə yaradılacaq olan aqroturizm bələdçiləri xidməti turistlərə torpaqla işləməyi, məhsul əkib becərməyi, əraziyə xas adət- ənənələri, sənətkarlıq işlərini

№ 2/2021 səh.48 - 56

öyrədəcəklər. Bu da kənd yerlərində gənclərin iş imkanı yaranmaqla bərabər, onları kənddə qalmağa sövq edər.

**Nəticələr**

Beləliklə,tədqiqatımızda ev təsərrüfatlarının gəlirlərinin artırılması imkanları araşdırılmış, onlar üçün potensial gəlir mənbələri müəyyənləşdirilmişdir. Həmçinin, araşdırmalarımız ev təsərrüfatlarının gəlirlərinin şaxələndirilməsinin vacibliyini bir daha ortaya qoymuşdur. Gəlir mənbələri üzrə birtərəfli asılılığın gəlirə aşkar şəkildə mənfi təsiri və bu təsirin aradan qaldırılması yolları müəyyənləşdirilmişdir.

Tədqiqatımızın nəticələrinə uyğun olaraq ev təsərrüfatlarının gəlirlərinə müsbət təsir edəcək aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uyğun olardı:

- kəndlərdə ev təsərrüfatlarının bitkiçilik sahəsində məşğulluğunun səmərəli olması üçün suvarmada yaranan problemlərin aradan qaldırılması;
- bankların və kredit təşkilatlarının ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulmuş kredit şərtlərinin yumşaldılması;
- kənd təsərrüfatı məhsullarının sığorta mexanizminin təkmilləşdirilməsi;
- ev təsərrüfatları üçün yerlərdə kənd təsərrüfatı sığortası sahəsində marifləndirmə tədbirlərinin həyata keçirilməsi;
- gənclərin kənd təsərrüfatı fəaliyyəti sahələrində məşğulluğunun stimullaşdırılması;
- ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyəti sahəsində əldə ediləcək gəlirlərinin artırılması üçün yerlərdə xırda emal müəssisələrinin yaradılması;
- satış kanallarını yaratmaqla istehsalçıların vasitəçilərdən asılılığının azaldılması.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- xüsusi ilə kənd təsərrüfatı sahəsi ilə məşğul olan ev təsərrüfatlarının ölkənin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasında istehsalçı funksiyasının əhəmiyyəti əsaslandırılıb;
- ev təsərrüfatlarında ayrı-ayrı fəaliyyət sahələrindən və yardımçı istehsal sahələrindən istifadənin səmərəlilik göstəricilərinin hərtərəfli təhlili əsasında onların səmərəli istifadə yolları müəyyənləşdirilmiş və elmi cəhətdən əsaslandırılıb;
- ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında yardımçı təsərrüfatların rolunu müəyyənləşdirmək üçün vahid uçot sistemin yaradılmasının əhəmiyyəti əsaslandırılıb;
- örüşlər və heyvanların baş sayı arasındakı tarazlığın təmin edilməsi və bu baxımdan bir qanunvericilik mexanizminin formalaşdırılması yollarının əsas istiqamətləri müəyyənləşdirilib;
- ev təsərrüfatlarının gəlirlərinin artırılmasında, onların büdcələrinin formalaşmasında potensial gəlir mənbələri və bu gəlir mənbələrindən istifadənin istiqamətləri aşkara çıxarılıb;
- məşğulluq səviyyəsi ilə ev təsərrüfatlarının gəlirləri arasındakı əlaqələrin tənzimlənməsi istiqamətlərinin həlli yolları göstərilmişdir;
- ev təsərrüfatı üzvlərinin kənd təsərrüfatı fəaliyyəti sahələri ilə məşğulluğunun stimullaşdırılmasına təsir edən amillərin müəyyənləşdirilib.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqat işinin nəticələri əsasında irəli sürülmüş təklif və tövsiyələr dağlıq və dağətəyi bölgələrdə yerləşən və xüssusi ilə kənd təsərrüfatı sahələri ilə məşğul olan ev təsrrüfatlarının gəlirlərinin çoxşaxəli və müxtəlif istiqamətli olması və bunun müqabilində onların büdcələrinin yaxşılaşdırılması istiqamətində praktiki əhəmiyyətə malikdir.Bununla yanaşı əldı edilən nəticələr müvafiq istiqamətdə həyata keçirilə biləcək proqram və layihələrdə də öz əksini tapa bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Bazar münasibətləri şəraitində iqtisadi subyektlər arasında əhəmiyyətliliyinə görə fərqlənən ev təsərrüfatlarının gəlirlərinin və onları formalaşdıran mənbələrin tədqiq edilməsi ölkədaxili iqtisadi siyasətin əsas prioritet istiqamətlərindəndir. Ev təsərrüfatları şəxsi mülkiyyət sahibi olmaqla bərabər, məhsul istehsal etmək, xidmət göstərmək və təkrar istehsalın fasiləsiz davam etməsinə təsir göstərmək iqtidarındadırlar. Bu baxımdan ev təsərrüfatları iqtisadi münasibətlər

sistemində əhəmiyyətli rol oynayır. Ona görə də, ev təsərrüfatlarının faktiki gəlir mənbələrindən səmərəli istifadənin öyrənilməsi, potensial gəlir mənbələrinin araşdırılması bu iqtisadi subyektlər üçün maliyyə təminatının yaxşılaşdırılması baxımından vacib məsələlərdəndir.

### Ədəbiyyat

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Böyük iqtisadi ensiklopediya. [5 cilddə] / Red. hey. sədri Z.Ə.Səmədzadə. −Bakı: Azərbaycam İqtisadçılar ittifaqı, − c. 1: "Şərq-Qərb".− 2012. –612 s.
3. Hüseynov, M.C. Aqrar istehsal strukturunun diversifikasiyası (Gəncə-Qazax iqtisadi rayonunun misalında)/ V.T.Əmrahov, A.M.Qasımov, A.F.Həsənov [ və b.] – Bakı: Elmin İnkişafı Fondu, 2016. – 168 s.
4. GÖKALP D. D., Kırsal Peyzaj Planlamada Agroturizm ve Agriturizm / YAZGAN M. E.// Sosyal ve Ekonomik Araştırmalar Dergisi 15 (24): 25-29, Karaman, Türkiyə. 2013
5. Balcombe, K.; Davis, J.; Fraser, I.M. Livelihoods and farm efficiency in rural Georgia. Appl. Econ. 2005, 37, 1737–1745.
6. Ellis, F., (1998). Household strategies and rural livelihood diversification. The Journal of Development Studies. 35 (1), pp.1-38.
7. Hasanova M.H. The role of subsidies in promoting agrarian cooperation / Mammadov N.N. // Финансовый вестник. 394087, г. Воронеж, ул. Мичурина, 1, к. 349 -2020. № 1 (48), с. 60-67
8. Heiny, J.; Mamniashvili, G.; Leonhaeuser, I.-U. The socioeconomic situation of private households in the Kazbegi region—First insights based on quantitative data. Ann. Agrar. Sci. 2017, 15, 31–39 p.
9. Neudert R. Diversification of livestock-keeping smallholders in mountainous rural regions of Azerbaijan and Georgia / Allahverdiyeva N., Mammadov N., Didebulidze A., [ et al.] // Land-international and crossdisciplinary peer- reviewed open access journal. - 10 August 2020. p. 1-23.
10. Radvanyi, J.; Muduyev, S.S. Challenges Facing the Mountain Peoples of the Caucasus. Eurasian Geogr. Econ. 2007, p. 157–177

**УДК342.218**

## Возможности увеличения доходов домохозяйств в горных и предгорных районах.

**Мамедов Н.Н.**

**Резюме:**В основе исследования лежит изучение возможностей увеличения доходов домохозяйств в горных и предгорных районах Азербайджана и Грузии.Была подчеркнута важность диверсификации в формировании доходов домохозяйств для исследований в обеих странах, и были изучены теоретические взгляды на диверсификацию.В то же время, на основе данных, полученных в результате опроса, были изучены потенциальные источники дохода домохозяйств в сельскохозяйственном и несельскохозяйственном секторах, и какие области могут иметь наибольшее влияние на доход, в зависимости от исследуемой территории.Также изучалось влияние внутренних и внешних факторов на доход домохозяйства.В результате сравнительного анализа были выявлены факторы, влияющие на доход домохозяйств обеих стран в сфере сельского хозяйства.В статье выявляются причины низких и высоких доходов из различных источников, а также исследуются возможности увеличения доходов домашних хозяйств. По полученным результатам были внесены соответствующие предложения.

**Ключевые слова:**домохозяйства, вспомогательные отрасли, сельское хозяйство, доход, диверсификация доходов.

№ 2/2021 səh.48 - 56
UDC342.218

**Opportunities to increase household incomes in mountainous and foothill areas**

**Mammadov N. N.**

**Summary:**The main goal of the research is the study of opportunities to increase household incomes in mountainous and foothill regions of Azerbaijan and Georgia. The importance of diversification in the formation of household income for research in both countries was emphasized, and theoretical views on diversification were explored.At the same time, based on the survey data, potential sources of household income in the agricultural and non-agricultural sectors were investigated, and it was determined which areas could have the greatest impact on income, depending on the study area.The impact of internal and external factors on household income was also studied.As a result of comparative analysis, the factors affecting the income of households in both countries in the field of agriculture were identified.The article identifies the reasons for low and high incomes from various sources, and explores opportunities to increase household incomes.Based on the results obtained, relevant proposals were made.

**Keywords:**households, ancillary industries, agriculture, income, income diversification

Redaksiyaya daxilolma: 28.09.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.57 - 61

UOT 338.4.62

# AZƏRBAYCANDA NAFTALAN NEFTİNİN MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFINA TƏSİRİ

*[1]Hümbətov Yusif Əbülfət oğlu*
*[2]Qapaqov Vüqar Faiq oğlu*
**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəh., Ş.İ.Xətai pr., 103**
**[1]humbetov-1964@mail.ru, [2]qapaqovvuqar@mail.ru**

***Xülasə:*** *Məqalədə ölkəmizdə turizm Naftalan nefti haqqında məlumat verilır. Son illərdə Naftalan şəhərində yerləşən müalicə mərkəzlərinin müasir standartlar səviyyəsində təşkili burada turistlərin həm müalicə almasına, həm də istirahətinin yüksək səviyyədə təşkilinə şərait yaradır. Naftalan nefti ölkəmizin turizm sahəsində tanıdılmasına çox böyük təsir edir. Naftalan nefti yalnız şəfaverici xüsusiyyətinə görə deyil, həm də fiziki-kimyəvi xassəsinə görə də digər neftlərdən fərqlənir. Lakin yalnız həkim nəzarəti altında Naftalan neftindən istifadə edilməlidir. Çünki bəzi xəstəliklər üçün bu neftin təsiri əks göstərici ola bilər və xəstəyə ziyan verər.*

***Açar sözlər:*** *turizm, müalicə-sağlamlıq turizmi, sanatoriyalar və kurortlar, təbii resurslar, Naftalan nefti, turizmin inkişafı.*

**Mövzunun aktuallığı** Azərbaycanda mövcud olan Naftalan neftinin və beynəlxalq səviyyədə tanınan mineral suların analoqu olan turizm ehtiyatlarının inkişafının təmin edilməsi əsas məsələlərindəndir. Odur ki, müalicə - sağlamlıq turizminin inkişafına zəmin yaradan təbii sərvətlərdən yararlanaraq turizmin inkişaf etdirilməsi aktual problemlərdən biri olaraq qalır.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi ölkəmizdə turizmin inkişafında xüsusi əhəmiyyətə malik olan Naftalan neftinin müalicə - sağlamlıq turizminin inkişafına təsiri istiqamətləri, həyata keçiriləcək tədbirlərin müəyyənləşdirilməsi, müalicə tipli kurort və sanatoriyaların yaradılması və turizmin sənaye əsasında inkişafının təhlil edilməsi əsasında ölkəyə turist axınının artırılması məsələlərindən ibarətdir.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

- Naftalanda müasir turizm müəssisələrinin sayı artırılmalı;
- turizm müəssisələrində xidmət keyfiyyəti artırılmalı:
- təcrübəli və təhsilli işçi heyətinin olması üçün tədbirlər görülməli:
- Naftalan şəhərinə turlar təşkil edilməli:
- sağlamlıq turizmində uğur qazanmış ölkələrin təcrübələri Naftalana tətbiq edilməli:
- kurort zonasının reklamı gücləndirilməli, xarici ölkə turoperatorları ilə əlaqə yaradaraq turist sayının artımına şərait yaradılmalı və s.

**Tədqiqat obyekti.** Naftalan neftinin Azərbaycan Respublikasında turizmin inkiafına təsiri məsələləri seçilmişdir.

**Tədqiqat metodları.** Tədqiqat prosesində iqtisadi - statistik, statistik qruplaşdırma, müqayisəli iqtisadi təhlil və müşahidə metodlarından istifadə olunmuşdur.

Azərbaycanda son illərdə turizm sahəsində sürətli inkişafa nail olunsa da, sağlamlıq turizminin inkişafında bəzi problemlər mövcuddur. Bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün yeni sanatoriya və kurortların qurulması, xidmət keyfiyyətinin artırılması istiqamətində turizm personalının təhsilinə sərmayə qoyulması lazımdır. Reklamı zəif olan Naftalan bölgəsinin ciddi şəkildə tanıdılması mövcud sektorun inkişafına şərait yaratmış olardı.

Naftalan nefti Strabonun verdiyi məlumatlara görə əvvəlki dövrlərdə belə müalicə məqsədilə istifadə edilirdi. Buna görə həmin dövrlərdə Anadolu, Qafqaz bölgəsindən, Hindistan və İrandan müalicə üçün gələn insanlar geri qayıdarkən bu neftdən yanlarında apararlarmış. XIX əsrin ikinci yarısında Naftalan nefti qərb ölkələrinin diqqətini çəkdi və 1887-ci ildə bir Alman mühəndisin qazma neft quyusundan aldığı nümunədən Almaniyada məlhəm hazırlanmışdır.

№ 2/2021 səh.57 - 61

Əvvəlcə sənaye məqsədli neft çıxarmağı planlaşdıran Yeger bir sıra iqtisadi və texniki problemlərlə qarşılaşır. Naftalanın Bakı şəhərindən uzaq olmağı və Naftalan neftinin yanar olmamasıdır. Bu səbəblərə görə Yeger şəfalı neftin istehsalını yalnız dayaz quyulardan hasil etmişdir. Müalicəvi neftin dayaz yataqları (150-400m), Naftalan neftinin qonşu ölkələrdə şəfalı dərman olaraq tanınması, neftin sadəcə dəri xəstəliklərinin deyil, eyni zamanda digər xəstəlik növlərinin də müalicəsində təsirli olması Yegerin diqqətini çəkən səbəblərdəndir.

Günümüzdə istifadə edilən Naftalan dərmanlarının kökləri Yegerin hazırladığı məlhəmdən çox xalqın təcrübəsinə dayanır. Bu gün müxtəlif xəstəliklərin həkim nəzarəti altında müalicəsi üçün Naftalana bir çox ölkələrdən turistlər gəlməkdədir.

Ölkəmizin əlverişli coğrafi mövqedə yerləşməsi, turizm ehtiyatları ilə zənginliyi, iqlim tiplərinin müxtəlifliyi rəqabətə davamlı və uzunmüddətli inkişafa malik turizm sektorunun davamlı olaraq təşkilinə şərait yaradır. Azərbaycan dövləti ölkənin neft sektorundan asılılığını azaltmaq və qeyri-neft sektorunun inkişafını təmin etməyi qarşısına məqsəd qoymuşdur.

Turizm sektoru ölkənin iqtisadi inkişafında önəmli rol oynayır. Son dövrlərdə yerli və xarici ölkə alimlərininin əsərlərində sağlamlıq turizminin ölkə iqtisadiyyatında rolu və turizm potensialından istifadənin səmərəli şəkildə təşkili ilə bağlı araşdırmalara rast gəlmək mümkündür.

Respublikamız təbii mineral sularla zəngindir. Belə ki səkkiz qrup mineral suyun dünyada qəbul edilməsi və bu mineral suların hər birinin Azərbaycanda olması balneoloji kurortların sayının artmasına şərait yaradır. Masazırda və Zığda müalicəvi palçıq vannaları ilə müalicə kursları təşkil olunur. Naftalan kurortunda isə öz aktuallığı ilə seçilən Naftalan nefti ilə müalicə aparılır.

Bir istirahət yeri olaraq Naftalan 1926-cı ildən bilinməkdədir və bu gün təbii faktorlar, tətil həkimliyi, Avropa konfortu, Azərbaycan qonaqpərvərliyi və münasib qiymətlər ilə turist cəlb edən müasir bir rekreasiya və müalicə mərkəzidir.

Azərbaycan mənşəyli nadir bir yağ olan Naftalan, sadəcə tibbi məqsədlə istifadə edilən, xüsusi qoxuya sahib, qalın, qara-qəhvə rəngli bir mayedir. Antik dövrlərdən bilinən və öndə gələn Yunanıstan tarixçiləri Herodotun və Plutarxın əsərlərində yer alan Naftalan yağı sakitəşdirici, sərinləşdirici və antiseptik bir təsirə malikdir. Bir çox xəstəlikləri müalicə edir, sinirləri yatışdırır və dərini gözəlləşdirir.

Naftalan nefti Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədən 50 km məsafədə yerləşir. 1929-cu ildə mütəxəssislər Naftalan yatağı ərazisində fəaliyyətə başlamışdır. Naftalana SSRİ-nin hər bölgəsindən müəyyən xəstəliklərin müalicəsi üçün insanlar gəlirdilər. O dövrdə İttifaqın ən gözəl istirahət və müalicə yeri idi. Tərkibində yüngül fraksiyanın və qatı parafin karbohidrogenlərin olmaması yağın ölməməsi, içərisində yetərli ölçüdə qətran olması və su ilə qarışması Naftalan neftini digər neftdən fəqrli edən xüsusiyyətdir. Xüsusən də damar, sinir, ginekoloji və dəri xəstəliklərinin müalicəsində önəmli təsir göstərir.

Ölkə başçısının 2016-cı il 16 mart tarixli Sərəncamına əsasən turizm sənayesinin inkişafı istiqamətində tədbirlər planı hazırlanmışdır. Regional turizm növlərinin inkişaf etdirilməsi üçün görüləcək tədbirlərdən biri Naftalan nefti əsasında sağlamlıq və kosmetika məhsulları hazırlanmasıdır. Bunun üçün Naftalan neft-tətqiqat qrupu yaradılmışdır. Bu məhsulların brendləşməsi işində rolu olan şirkətlərin fəaliyyəti dövlət tərəfindən dəstəklənir. (1)

Eyni zamanda bu işə özəl sektorların da cəlbi üçün müəyyən təşviqedici işlər həyata keçırılir. Naftalan nefti əsasında hazırlanmış məhsulların sertifikatlaşdırılması lazımı qaydada təşkil edilir. Yaradılmış məhsulların beynəlxalq miqyasda tanıdılması üçün beynəlxalq institutlardan məhsulun müalicəvi xüsusiyyətini təsdiq edən sertifikat alınması planlaşdırılır.

Hazırlanmış məhsulların həm ölkə daxilində, həm də ölkə xaricində istifadəsini təmin etmək , kosmetika məhsullarının nümunələrini yerli əhali və turistlərə təqdim etmək, məhsullarımızın üzərində ölkənin turizm zonalarına dair kiçik təsvirlər qoyulması nəzərdə tutulur.

Bu sadalananlardan başqa Naftalan kurortlarına turlar təşkil edilməsi işində əməli addımlar atılmalı, turistlərin nəqliyyat xidmətini təşkil etmək üçün bu əraziyə Bakıdan qatar, avtomobil yollarının təmin

№ 2/2021 səh.57 - 61

edilməsi yüksək səviyyədə təşkil edilməlidir. Biletlərin təklifi, turistlərin cəlb üçün turizm agentlikləri, informasiya mərkəzləri və yardımcı kanallar ilə əməkdaşlıq qurulmalıdır. [1, səh. 60, 61].

. 1992-ci ildən 2005-cı ilədək yalnız "Çinar" sanatoriyası mövsümi olaraq xəstə qəbulu ilə məşğul olurdu. 2005-ci ilin may ayında Naftalan kurortunda ilk özəl sanatoriya – Naftalan – açıldı.(10)

Naftalan neftının inkişafı və eyni zamanda Azərbaycanda sağlamlıq turizminin inkişafı ilə bağlı Naftalan şəhərində hər il Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən dəstəkləyici tədbirlər həyata keçirilir. Naftalana gələn turistlərin sayı hər il artmaqda davam edir. 2017-ci ildə turizm zonasına 36 min turist gəlmişdir. Bu turistlərin 7309-u xarici ölkə vətəndaşı olub. 2017-ci il boyunca bölgəyə gələn turistlərin sayı 2016-cı ilə nisbətən 2266 turist çox omuşdur. Əlavə olaraq Naftalan paytaxt Bakıdan sonra bölgəni ziyarət edən turistlərin ən yüksək göstəricisidir.

Hər il Rusiya, Ukrayna, Qazaxıstan, Turkiyə və s. bu mərkəzlərdə müalicə alır və istirahət edirlər. Hazırda Naftalanda 10 sanatoriya fəaliyyətdədir ki, bunun da 3-ü 5 ulduzludur. Naftalan neftinin beynəlxalq sertifikatlaşdırılması üzrə proseslərin tez bir zamanda baş verməsi üçün müəyyən tədbirlər

Qeyd etmək lazımdır ki, 2017-ci ildə ilk dəfə Naftalana dünyanın dörd bir yanından turist gəldi. Asiya-Pasifik Asiya, Yaponiya, Cənubi Koreya, Çin, Hindistan, Kamborca, Yeni Zellandiya, Filippin, ABŞ, Kanada, Meksika, Brazilya, Afrika ölkələri və hətta Avstraliyadan gələn turistlər müalicə almışlar. [2].

Bu gün Respublikamızda yaradılmış Sağlamlıq və Termal Turizmə dəstək Assosiasiyasısının bu sahənin inkişafı üçün etdiyi tədbirlərə, həyata keçirəcəyi layihələrə diqqət yetirsək önəmli işlərin edildiyini görmək mümkündür. Assosiasiya sağlamlıq ocaqlarının yerləşdiyi ərazisi, sağlamlıq mərkəzlərində müxtəlif əyləncə proqramları, ətraf əraziyə ekskursiyaların təşkili, müalicə xidmətləri haqqında, xidmət personalı haqqında məlumatlar yerləşdirilmişdir. Kataloqlar hazırlanması işində fəaliyyətə başlamışdır. Həmçinin müalicə ehtiyatlarının yerləşdiyi əraziləri göstərən xəritəsi də hazırlanır.

Bu plan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılacaqdır. Plana əsasən Qəbələ, Masallı, Lənkəran rayonlarında olduğu kimi digər bölgələrdə də təbii ehtiyatlardan istifadə edilməsi nəzərdə tutulur. Fəaliyyət planının sağlamlıq turizminin inkişafına təkan vermək üçün 2020-ci ildən sonra həyata keçirilməsi planlaşdırılmışdır. (6)

Naftalan neftinin beynəlxalq çərçivədə tanıdılması istiqamətində tədbirlər görüləcəkdir. Müalicəvi neftdən yeni kosmetika və gözəllik məhsulları yaradılması, marketoloqların dəstəyi ilə bu məhsulların turistlərə tanıdılması, yerli və xarici turizm məkanlarında bu məhsulların nümayişi kimi məsələlər planlaşdırılmışdır.

Həyata keçirilən dövlət siyasətinin dəstəyi ilə inkişaf etmiş turist kompleksi yaradılmışdır. İnsanların istirahəti, müalicəsi, sağlamlığının təmin edilməsi baxımından önəmli rol oynayan sanatoriya-kurortlar eyni zamanda da əhalinin məşğulluğunun artırılması, regionun sosial-iqtisadi inkişafının, infrastrukturun, xidmət və digər əlaqədar sahələrin inkişafında da önəmli rol oynayır. Kurortların təşkili istiqamətində əsas iş kurort - sanatoriya şəbəkisinin yenilənməsi, beynəlxalq standart səviyyəsində təşkil olunmasıdır.

“Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı” nda qeyd edilmişdir ki, kurortlar elə bir ərazidir ki, həmin ərazidə müxtəlif təbii müalicə ehtiyatları mövcuddur. Bu ehtiyatlardan müayinə və müalicə məqsədi ilə istifadə edilir. Azərbaycanda bir neçə belə kurortlar mövcuddur. Bu kurortlarda kurort poliklinikaları, sanatoriyalar, pansionatlar, palçıq müalicə ocaqları və s. təşkil olunur. Eləcə də digər kurort infrastrukturu yaradılır. Azərbaycanda kurort işinin təşkili və inkişafı istiqamətində dövlət siyasəti həyata keçirilir. (2)

Respublikamızda kurortların bir neçə növü mövcuddur ki, bunlara aiddir: İqlim, palçıqla müalicə, balneoloji və öz müalicəvi xüsusiyyətlərinə görə nəinki ölkəmizdə, eyni zamanda ölkə xaricindən kənarda tanınan Naftalan nefti.

Azərbaycan sağlamlıq turizmində yüksək potensiala sahibdir. Yeni sərmayələrin qoyulması bu turizm növünün inkişafına zəmin yaradardı. Naftalan bölgəsində turizmin inkişafı və gəlirlərinin artması üçün bir çox tədbirlər görülməlidir.

№ 2/2021 səh.57 - 61

Bütün bu tədbirlər çərçivəsində meydana gələn inkişaf Azərbaycan iqtisadiyyatına böyük təsirini göstərəcək və bunun nəticəsində ölkədə sağlamlıq truizmi mühüm bir sektor olaraq qalacaqdır. Naftalan kurortunun xarici ölkələrdə tanıdılması ilə əlaqəli problemlər mövcuddur. Bu problem həm xarici ölkələrdən Naftalana gələn xarici turist sayının az olmasına, həm də beynəlxalq turizm şirkətlərinin Naftalanın sağlamlıq turizmi potensialına maraq göstərməməklərinə yol açır. Reklamla əlaqədar tədbirlər görülməsi, xüsusən Turizm və Mədəniyyət Nazirliyinin Naftalanın tanıdılmasına xüsusi önəm verməsi lazımdır. ( 6, s.162-163)

Təsirli bir reklam yaradılması nəticəsində Azərbaycanda çox növlü turizm potensialı və turizm fəaliyyətləri təsirli bir şəkildə istifadə edilərək ölkə iqtisadiyyatına təsir edəcək və beləcə turizm önəmli bir sektor halına gələcəkdir. Bunun təsiri ilə neft və qaz ixracına dayanmış olan Azərbaycan iqtisadiyyatının diversifikasiyasını təmin edəcəkdir.

## *Nəticələr*

Tədqiqtlardan belə nəticəyə gəlmək olar ki, turizmin inkişafı bir çox amillərlə yanaşı, əsasən Respublikamızda turizmin inkişafında xüsusi əhəmiyyətə malik olan müalicə - sağlamlıq turizmindən bilavasitə asılıdır.

Son illərdə Naftalan şəhərində yerləşən müalicə mərkəzlərinin müasir standartlar səviyyəsində təşkili burada turistlərin həm müalicə almasına, həm də istirahətinin yüksək səviyyədə təşkilinə şərait yaradır. Naftalan nefti ölkəmizin turizm sahəsində tanıdılmasına çox böyük təsir edir.

Naftalan nefti yalnız şəfaverici xüsusiyyətinə görə deyil, həm də fiziki-kimyəvi xassəsinə görə də digər neftlərdən fərqlənir. Azərbaycanda mövcud olan Naftalan neftinin turizm ehtiyatlarının inkişafının təmin edilməsi əsas məsələlərdəndir. Müalicə - sağlamlıq turizminin inkişafına zəmin yaradan təbii sərvətlərdən yararlanaraq turizmin inkişaf etdirilməsi bu gün aktual problemlərdəndir.

Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" ölkəmizdə müalicəvi turizmin təşkili və inkişaf etdirilməsi üçün geniş imkanlar açmışdır. Yaxın gələcəkdə müalicə-sağlamlıq turizminin inkişafı istiqamətində tədbirlərin sürətlənməsi gözlənilir.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

- Naftalanda müasir turizm müəssisələrinin sayının artırılması;
- turizm müəssisələrində xidmət keyfiyyətinin artırılması:
- təcrübəli və təhsilli işçi heyətinin olması üçün tədbirlər görülməsi:
- Naftalan şəhərinə turlar təşkil edilməsi:
- sağlamlıq turizmində uğur qazanmış ölkələrin təcrübələri Naftalana tətbiq edilməsi:
- kurort zonasının reklamının gücləndirilməsi, xarici ölkə turoperatorları ilə əlaqə yaradaraq turist sayının artımına şərait yaradılması və s. təsiri istiqamətləri müəyyən edilmiş və təkliflər verilmişdir.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6dekabr tarixli fərmanı.
2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6fevral tarixli 125 nömrəli sərəncamı.
3. Əlirzayev.Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı, "İqtisadiyyat Universiteti" nəşriyyatı, 2010.
4. Bilalov.B. Azərbacanda müalicə-sağlamlıq turizmi: problemləri və perspektivləri. "Turizm və Qonaqpərvərlik Tətqiqatları"jurnalı, №3, Bakı, "Aypara 3", 2013.
5. Hümbətov.Y.Ə, Kərimov.F.C, Qapaqov.V.F, Cavadzadə.X.N "Turizm sənayesinin təşkili." Ali məktəblər üçün dərs vəsaiti. Bakı 2021 – 333 səh.
6. Prof.Dr. Sezer Akarcalı. "Tüm yönleriyle sağlık turizmi. Azerbeycan ülke raporu". Ankara 2010.

№ 2/2021 səh.57 - 61

7. Драчева Елена. Специалные виды туризма. Лечебный туризм. КноРус. 2010
8. naftusia.com/ru/ukraina/kurort-truskavec/
9..www.saglikturizmi.org.tr/tr/saglik-turizmi/genel-bilgi
10. www.bilgeh-sanatoriyasi.az

**УДК 338.4.62**

**Влияние нафталанской нефти на развитие лечебно – оздоровительноготуризма в Азербайджане**

**Гумбатов Ю.А., Гапагов В.Ф.**

.

**Резюме.** В статье представлена информация о туризме нафталанской нефти в нашей стране. В последние годы организация лечебных центров в Нафталане на уровне современных стандартов создает условия для того, чтобы туристы получали лечение и отдых на высоком уровне. Нафталанская нефть оказывает большое влияние на продвижение нашей страны в сфере туризма. Нафталановое масло отличается от других масел не только своими лечебными свойствами, но и своими физическими и химическими свойствами. Однако нафталановое масло следует использовать только под наблюдением врача. Потому что при некоторых заболеваниях действие этого масла может быть противопоказано и навредить пациенту.

**Ключевые слова** : туризм, оздоровительный туризм, санатории и курорты, природные ресурсы, нафталин, развитие туризма

**UDC 338.4.62**

**Influence of Naftalan oil on the development of medical and health tourism in Azerbaijan**

**Humbatov Y. A., Qapaqov V.F.**

**Summary.**The article provides information about Naftalan oil tourism in our country. In recent years, the organization of treatment centers in Naftalan at the level of modern standards creates conditions for tourists to receive treatment and recreation at a high level. Naftalan oil has a great impact on the promotion of our country in the field of tourism. Naftalan oil differs from other oils not only in its healing properties, but also in its physical and chemical properties. However, Naftalan oil should be used only under medical supervision. Because for some diseases, the effect of this oil can be contraindicated and harm the patient.

**Key words**: tourism, health tourism, sanatoriums and resorts, natural resources, nafthalan oil, tourism development.

Redaksiyaya daxilolma: 22.10.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.62 - 66

# MALİYYƏ POTENSİALI VƏ ONUN İDARƏ EDİLMƏSİNİN EFFEKTİVLİYİ

**İsmayılova Təranə Vidadi qızı**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərovküç. 64**
**terane-memmedova-92@mail.ru**

**Xülasə:***Dünya iqtisadiyyatına inteqrasiya şəraitində rəqəmsallaşmanın genişlənməsi, istehsalın strukturunu və idarəetmə texnologiyalarını əhatə etməklə iqtisadi sferalarınmaliyyələşdirilməsinin və maliyyə potensialının daha effektiv idarə edilməsinin əhəmiyyətini qabarıq şəkildə göstərir. Maliyyə potensialının effektiv idarə edilməsi strategiyası, maliyyə idarəetməsi vasitələrinin müasir tələblərə uyğun formalaşdırılmasını zəruriliyini göstərir. Bu, maliyyə potensialının formalaşması, istifadəsi və daha səmərəli idarə edilməsinə yanaşmada bütün iqtisadi subyektlərin maliyyə imkanlarının nəzərə alınmasını önə çəkir.*

***Açar sözlər:****maliyyə potensiyalı, idarəetmə, modernləşmə, texnoloji zəncir, risk, səmərə.*

**Giriş.**İqtisadiyyatının modernləşdirilməsi və dünya iqtisadiyyatına inteqrasiya investisiya və innovativ inkişaf amillərinin müəyyənləşdirilməsi şərtlərinə yenidən baxılması zərurətini ortaya qoyur. Belə şəraitdə iqtisadiyyatın yenidən qurulmasına və müxtəlif sferaların rəqabətə davamlılığına əsaslanan dayanıqlı inkişafna nail olunması, daha təkmil maliyyələşmə siyasətinin həyata keçirilməsini tələb edir. Beynəlxalq səviyyədə iqtisadi, sosial, demoqrafik və ekoloji tarazlığın pozulması fonunda ölkə iqtisadiyyatına ciddi təsiri ilə müşayət olunan mənfi tendensiyalar və problemlər, maliyyələşmə problemlərini daha da aktuallaşdırır. Bu baxımdan dövlət ilk növbədə iqtisadi subyektlərə maliyyə dəstəyi verməklə onların maliyyə potensialını yaxşılaşdırmağı, risk və təhdidlərin ən kiçik təzahürünün belə aradan qaldırılmasınıhədəfləyir.

Dövlətin maliyyə sistemində müəssisə və təşkilatların maliyyələşdirilməsi, onun sabitliyinin və dinamik inkişafının təmin edilməsinin əsas amili hesab edilir[2, s.24]. Dünya iqtisadiyyatında rəqəmsallaşmasının genişlənməsi istehsalın strukturunu və idarəetmə texnologiyalarını əhatə etməklə iqtisadi sferalarınmaliyyələşdirilməsinin, onların maliyyə potensialının yaxşılaşdırılmasının əhəmiyyətini daha qabarıq şəkildə biruzəveirir.

**Mövzunun aktuallığı.**Hazırda davamlı inkişafa nail olmaq ölkə iqtisadiyyatının aktual vəzifələrindəndir, çünki sektorların müəyyən bir hissəsi iqtisadi fəaliyyətlərini səmərəli nəticələrlə başa vurmaqda bir sıra problemlərlə üzləşir. Bunun başlıca səbəbi subyektlərin daim dəyişən iqtisadi mühitdə və kəskinləşən rəqabət şərtlərində fəaliyyət göstərməsi, xarici mühit amillərinin onların fəaliyyətlərinə davamlı şəkildə təsir göstərməsi ilə bağlıdır. İqtisadi böhranlar, valyuta məzənnələrinin yüksək dəyişkənliyi, rəqiblərlərin sayının ciddi artımı və istehlakçıların tələbinin mütəmadi olaraq dəyişməsi və bir çox digər amillər də iqtisadi subyektlərin məhsuldar fəaliyyət göstərə bilməsi şərtlərində qeyri-sabit vəziyyət yaradır. Xarici mühitin şərtlərinə uyğunlaşma, dəyişikliklərə vaxtında və adekvat cavab vermək və mənfi təsirlərin qarşısını alma qabiliyyəti iqtisadi davamlılıq konsepsiyası ilə müəyyən edilir bilər. Beləliklə, dayanıqlı inkişafa, innovativ texnologiyaların tətbiqi səviyyəsinin yüksəlməsinə istiqamətləndirilmiş keyfiyyət dəyişiklikləri hazırda ən mühüm məsələlər kimi özünü göstərir. Nəzərə almaq lazımdır ki, istənilən iqtisadi sferanın və subyektin səmərəli iqtisadi fəaliyyətinin zəruri komponenti onun maliyyə potensialıdır.

Maliyyə potensialı və ondan istifadənin səmərəliliyi iqtisadi fəaliyyətə əhəmiyyətli müsbət təsiri ilə xarakterizə olunmaqla iqtisadi əlaqələrin və texnoloji zəncirdə koordinasiyanın sabitləşməsinə, investisiya cəlbediciliyinin yaxşılaşmasına, öhdəliklərin vaxtında yerinə yetirilməsinə, nəticədə iqtisadi subyektin maliyyə nəticələrinin yüksəlməsinə səbəb olur. Maliyyə potensialının təhlili metodologiyasına uyğun olaraq, maliyyə potensialının vəziyyəti öz növbəsində, təkrar istehsal prosesi zamanı maliyyə mənbələrinin mövcudluğu və həyata keçirilmə bacarığı baxımından əhəmiyyətlidir.Göstərilənləri nəzərə

almaqla maliyyə potensialının idarə edilməsinin effektivliyiproblemlərinin tədqiqinin aktuallığını qeyd etmək olar.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi iqtisadi inkişafda maliyyə potensialının rolunu müəyyən etməklə onun idarə edilməsi problemlərinin araşdırılmasından vəidarəetmənin effektivliyinə yönəlmiş tədbirlərin müəyyənləşdirilməsindən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Maliyyə potensialı və maliyyə resurslarından istifadənin səmərəliliyi maliyyə sabitliyinin əsas şərtlərindən biridir. Ümumiyyətlə, bütövlükdə iqtisadiyyatın, o cümlədən ayrı-ayrı sferaların inkişafı düzgün maliyyə siyasəti olmadan mümkün deyil. Bu özünü ilkin olaraq investisiya fəaliyyətinin aktivləşdirilməsində, habelə investisiya qoyuluşları əsasında innovasiya bazasının formalaşdırılmasında göstərir. Nəticədə, maliyyə vəziyyətinin yaxşılaşmasına, texnoloji yeniliklərin tətbiqi ilə bağlı fəallığın və rəqabətə davamlığın artmasına zəmin yaranır və iqtisadi fəaliyyət üçün sabit mühit formalaşır[1, s.17].

Araşdırmalar göstərir ki, müasir reallıqda, investisiya prosesi iştirakçılarının fəallığını və etibarlılığını artırmaq üçün iqtisadi subyektlər arasında rəqabətin gücləndirilməsi prosesində maliyyə potensialının idarə olunmasına xüsusi diqqət yetirilir. Maliyyə potensialı, onun mənbələri və imkanları ilə yanaşı mümkün olan maksimum maliyyə nəticəsinin əldə edilməsindən irəli gələn münasibətləri xarakterizə edir. Qeyd etmək lazımdır ki, maliyyə potensialı cari və strateji vəzifələri həll etmək, eləcə də davamlı inkişafı təmin etmək bacarığını da nəzərdə tutur. Deməli, maliyyə potensialının idarəetmə istiqaməti spesifik əhəmiyyət kəsb edir. Bu baxımdan müasir iqtisadi ədəbiyyatda maliyyə potensialının idarə edilməsi məsələlərinə geniş yer verilir. Maliyyə potensialının idarə edilməsinin nəzəri və metodoloji məsələləri davamlı iqtisadi fəaliyyətə nail olmaq üçün xüsusi mexanizmlərdən istifadə olunmanı önə çəkir. Maliyyə potensialının idarə edilməsininqiymətləndirmə meyarları isə (işgüzar fəaliyyət, likvidlik, ödəmə qabiliyyəti, sabitlik, gəlirlilik və s.) strateji qərarlar qəbul etməyə imkan verir.

Beləliklə, maliyyə potensialı nəzərə alınmaqla maliyyə siyasətinin formalaşdırılması, o cümlədən müvafiq proqramların hazırlanması, ayrılan resursların hesablanması sistemi vasitəsilə həyata keçirilə bilən konkret strateji hədəfləri müəyyənləşdirmək mümkündür. Maliyyə siyasəti tədbirlərinin hazırlanması və həyata keçirilməsi müəyyən edilmiş hədəflərə çatmaq üçün ən müxtəlif mexanizm və metodları seçməyə, subyektlərin qısa və uzun müddətli perspektivdə inkişafı üçün vahid bir konsepsiyanı daha dəqiq müəyyən etməyə imkan verir[3, s.62]. Əslində maliyyə potensialının idarə edilməsi strategiyası, yanaşmaların və maliyyə idarəetməsi vasitələrinin formalaşdırılması və həyata keçirilməsinə əsaslanan uzunmüddətli fəaliyyət sistemi kimi müəyyənləşdirilməlidir. Nəticə etibarilə, maliyyə münasibətlərinin idarə edilməsi prosesində istifadə olunan alətlər maliyyə menecmentinin strateji, əməliyyat və taktiki hədəflərinə cavab verməlidirlər. Qeyd etmək lazımdır ki, maliyyə potensialının inkişafı və səmərəliliyinin artırılması çərçivəsində idarəetmə tədbirləri subyektlərin fəaliyyətinin idarə olunması üçün hərtərəfli strategiyanın tərkib hissələrindən biri olmalıdır. Bununla birlikdə, makro mühitdə dövlətin ayrı-ayrı sferalara təsir dərəcəsi fərqlidir və bu baxımdan fəaliyyət sahələrindəki fərqlər və daxili potensiallardakı dəyişikliklər idarəetmənin səmərəliliyiniə ciddi təsir göstərən amillərdir.

Maliyyə potensialının idarə edilməsi ardıcıllıq, uyğunlaşma, məqsədyönlük, elmi xarakter, alternativlik və optimallıq prinsiplərinə əsaslanır. Bunlar birlikdə iqtisadi subyektin maliyyə potensialının idarə olunması mexanizminin effektiv təşkili və həyata keçirilməsini nəzərdə tutur. Risk amillərinin maliyyə potensialının idarəetmə sisteminə təsirinin optimallaşdırılması konsepsiyası gələcək üçün hesablanır və idarəetmənin müasir şərtlərinə tam cavab verməyi hədəfləyir. Belə mexanizmin formalaşdırılmasında məqsəd ayrı-ayrı sahələrin və subyektlərin həyat dövrünün bütün mərhələlərində sabit fəaliyyəti təmin etməkdir. Beləliklə, risklərin maliyyə potensialının idarəetmə sisteminə təsirinin optimallaşdırılması mexanizmi mənfəəti maksimum dərəcədə artırmaq və fasiləsiz istehsal fəaliyyətini təmin etmək üçün zəruri idarə etmə tədbirləri kimi qəbul edilir. Optimallaşdırma mexanizmi eyni zamanda müəyyən prinsiplərin, metodların və idarəetmə funksiyalarının həyata keçirilməsini nəzərdə tutur. Nəzərdə tutulan mexanizmdəki əlaqələrin prinsipləri, formalaşan təşkilati strukturun müvafiq

struktur bölmələrinə idarəetmə qərarlarını ötürmək üçün müəyyən səlahiyyətlərin həvalə edilməsini əks etdirir[4, s.51-52].

Beləliklə, maliyyə potensialının inkişafı səmərəli idarəetmə sisteminin formallaşdırılması prosesini də özündə ehtiva etməklə zəruri iqtisadi mexanizmin tətbiqini əhatə edir. Bu mexanizm ümumi istiqamətləri, idarəetmə sisteminə təsirlərin prioritet vəzifələri daxil olmaqla, risk faktorlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsini, habelə onların qiymətləndirilməsini nəzərdə tutur. Risk amillərinin maliyyə potensialına təsirinin optimallaşdırılması risklərin qarşısının alınması üçün onların şaxələndirilməsi, məhdudlaşdırılması, paylanması və zərərsizləşdirilməsi kimi metodların tətbiqini əhatə edir. Risk amillərinin maliyyə potensialına təsirinin optimallaşdırılması mexanizminin həyata keçirilməsi, maliyyə mənbələrinin formalaşmasında və bölüşdürülməsində, maliyyə təhlükəsizliyinin təmin edilməsində və maliyyə fəaliyyətinin keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Maliyyə potensialının inkişafı mexanizmində maliyyə potensialının idarəetmə sisteminin planlaşdırılması prosesi də baş verir ki, bu da əsas təsir istiqamətlərinin seçilməsindən, risk faktorlarının maliyyə potensialının idarəetmə sisteminə təsirinin qiymətləndirilməsindən asılı olur. Eyni zamanda maliyyə potensialının inkişaf etdirilməsi tədbirlərinin və onun nəticələrinin proqnozlaşdırılması həyata keçirilir. Bu zaman proqnozlaşmaya təsir edən amillər müəyyənləşdirilir, proqnoz nəticələri seçilir və proqnozun dəyərləri qiymətləndirilir.

Araşdırmalar göstərir ki, maliyyə potensialının effektivliyi aşağıda qeyd edilən bir sıra qərarlarla sıx bağlıdır:

- alternativlərin qiymətləndirilməsi;
- prioritet qərarların seçilməsi;
- optimal idarəetmə metodunun seçilməsi.

Qeyd etmək lazımdır ki, bəzi hallarda maliyyə potensialının mövcud idarəetmə sistemində çatışmazlıqlar baş verir. Bu, xüsusilə idarəetmə vahidlərinin funksional məsuliyyətlərinin kifayət qədər məhdudlaşdırılmaması ilə bağlı olur. Belə hallar öz növbəsində funksiyaların təkrarlanmasına və qərarların icrası üçün məsuliyyətin azalmasına səbəb olur. İnkişaf etmiş idarəetmə mexanizmi isə çatışmazlıqları istisna edən sadə və şəffaf bir quruluşa malik əlaqələrlə özünü biruzə verir. Daha təkmil idarəetmə mexanizminin tətbiqi vəziyyətində idarəetmə funksiyalarının kompleks proqnozlaşdırılması, planlaşdırılması, uçotu, nəzarət və tənzimlənməsi həyata keçirilir. Bu məsələlər maliyyə potensialının daxili və xarici amillərinin obyektiv qiymətləndirilməsini, üstünlük təşkil edən şərtlərə uyğunluğunu və iqtisadi imkanların yaxşılaşdırılmasını təmin edir.

Hazırda maliyyə potensialının inkişaf etdirilməsi baxımından subyektlərin maliyyə vəziyyətinin təhlili onların mövcud iqtisadi imkanlarını qiymətləndirməyə şərait yaradır. Bu baxımdan, maliyyə potensialının inkişafı prosesinə xüsusi diqqət yetirilməsi vacibdir ki, bu da maliyyə mənbələrinə əlavə olaraq cari və strateji vəzifələrin həlli və davamlı inkişafın təmin olunması tədbirlərini daxil etməyi nəzərdə tutur.

Maliyyə potensialının inkişaf etdirilməsi, subyektlərin ödəmə qabiliyyətinin sabitliyi və ən təcili öhdəlikləri ödəmək üçün müəyyən bir dayanıqlılıq qabiliyyətidir. Ödəmə qabiliyyətinin sabitliyinin başlıca nüansı, qısamüddətli öhdəliklərin ən mobil hissəsi ilə subyektin ən likvid fondları arasındakı tarazlığın qiymətləndirilməsidir. Əgər bu məsələyə nağd pul axınının qiymətləndirilməsi nöqteyi-nəzərindən yanaşsaq, ödəmə qabiliyyətinin sabitliyi onların təhlilini, iqtisadi qurumun pul ehtiyatlarının mövcudluğunu və maliyyə vəsaiti axınlarının intensivliyini əhatə edir. Bu cür əhatə dairəsi, maliyyə resurslarının mənbələri ilə real imkanılar arasındakı tarazlığı qiymətləndirməyə imkan verir. Eyni zamanda, ödəmə qabiliyyəti bir subyektin nəinki qısamüddətli öhdəliklərini ödəmək qabiliyyətini xarakterizə edir, eyni zamanda stabil fəaliyyətə davam etmək üçün zəruri olan cari aktivlərin olduğu ehtimalını formalşdırır.

Qeyd etmək lazımdır ki, maliyyə potensialı subyektin maliyyə dayanıqlığının da əsasını təşkil edir. Maliyyə potensialının yaxşılaşdırılması uzunmüddətli dayanıqlığı və sabitliyi müəyyən edir. Ona görə maliyyə potensialı araşdırılarkən risk və gəlirliliyi əks etdirən göstəricilər sistemini də nəzərdən

keçirmək lazımdır. Əslində maliyyə dayanıqlığı, gəlirlərin xərclər üzərində formalaşmış üstünlüyünün nəticəsidir. Maliyyə dayanıqlığı zəruri tələblərə cavab verən maliyyə mənbələrinə söykənir. Bundan əlavə, maliyyə dayanıqlığı subyektlərin ümumi sabitliyinin və təhlükəsizliyinin bir elementidir. Qeyd edilənlər maliyyə dayanıqlığı strategiyasında aşağıdakı prinsipləri önə çəkir:

- minimum xərclə maliyyə resurslarının əldə edilməsi;
- kapital qoyuluşlarının daha yüksək gəlir səviyyəsini təmin edən iqtisadi fəaliyyətlərə və sahələrə yönəldilməsi;
- kapitalın artırılması və vaxtının koordinasiyası.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, maliyyə potensialının formalaşması və səmərəli şəkildə idarə edilməsi təkrar istehsalın son səmərəliliyini müəyyən edən və sosial-iqtisadi sistemin inkişafının əsas cəhətlərindən biridir[5, s.34]. Ona görə maliyyələşdirmədə pul gəlirlərini və fondlarını formalaşdırmaqla sadə və geniş təkrar istehsalı həyata keçirmək məqsədilə daxili və xarici mənbələrdən daxil olan vəsaitlərin mütərəqqi bir şəkildə istifadəsi zəruridir. Deməli, sadə və geniş təkrar istehsalın alternativ maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi, xüsusi mənbələrin seçilməsi, maliyyələşdirmə mənbəyinin növündən asılı olaraq mənbələrin istifadəsi geniş bir prosesdir. Deyilənləri ümumiləşdirsək, maliyyə dayanıqlığını aşağıdakı elementlərlə xarakterizə etmək olar: iqtisadi subyektlərin maliyyə resursları ilə fasiləsiz şəkildə təmin edilməsi; maliyyələşdirilmədə alternativlərin müəyyənləşdirilməsi; maliyyə mənbəyinin növündən asılı olaraq resurslardan istifadə imkanlarının müəyyən edilməsi, maliyyə resurslarının idarə edilməsinin effektivliyi və s.

Beləliklə, maliyyə potensialının idarə edilməsi siyasətində əsas məqsəd ümumi iqtisadi inkişafa nail olunması, o cümlədən subyektlərin dayanıqlığının təmin edilməsi, istehsalın texnoloji modernləşdirilməsi və rəqəmsallaşdırılması, keyfiyyət və kəmiyyət dəyişiklikləri yolu ilə rəqabətə davamlığın artırılmasıdır.

**Nəticələr**

Araşdırmaya əsaslanaraq qeyd etmək olar ki, maliyyə komponentlərinin məhdud olduğu şərtlərdə müvafiq müddəaların olmaması səbəbindən maliyyə axınlarının istifadəsinə inteqrasiya olunmuş yanaşma çatışmır. Bundan əlavə, maliyyə potensialının müəyyən elementlərinin əhəmiyyətinin nəzərə alınmaması halları mövcuddur ki, bu da maliyyə imkanlarının formalaşması və istifadəsinə mənfi təsir edir. Nəticədə, maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılması üçün hazırlanmış tədbirlər təminatsız qalır.

Maliyyə potensialının formalaşması, istifadəsi və daha səmərəli idarə edilməsinə effektiv yanaşmanın əhəmiyyəti ondan ibarətdir ki, bütün iqtisadi subyektlərin maliyyə imkanlarını nəzərə alması və onların zəruri resurslarla təmin edilməsi mümkün olur. Bu yanaşma maliyyə siyasəti, bank siyasəti, sığorta bazarının inkişaf siyasəti, qiymətli kağızlar bazarının fəaliyyəti və s. kimi məsələlərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsində məlumatların seçilməsini və inkişaf etdirilməsini əhatə edir.

Nəzərə almaq lazımdır ki, maliyyə potensialının səmərəli şəkildə idarə edilməsi həm konkret iqtisadi subyektin fəaliyyətinə, həm də və bütövlükdə ölkə iqtisadiyyatına ciddi təsir göstərir. Bu amil ölkənin və sahələrin iqtisadi təhlükəsizliyini təmin etmək üçün mühüm bir şərtdir və aşağıdakı məsələləri əhatə edir: iqtisadi sfera və ya subyektin kifayət qədər maliyyə resursu yaratmaq qabiliyyəti; maliyyə və bank sisteminin inkişaf səviyyəsi; dövlət orqanlarının fəaliyyətinin effektivliyi; dövlət, sahə və subyektlərin məqsəd və maraqlarının əlaqələndirilməsi və sosial-iqtisadi inkişaf üçün təhdidlərə, ortaya çıxan təhlükə və risklərə çevik reaksiya vermə qabiliyyəti və s. Bundan əlavə, maliyyə potensialı dövlətin və iqtisadiyyatın sferalarının sosial-iqtisadi inkişafının həyata keçirilməsi üçün zəruri informasiya sistemini əhatə edir. Beləliklə, maliyyə potensialının formalaşması və səmərəli idarə edilməsi iqtisadiyyatın bütün səviyyələrində həyata keçirilən maliyyə siyasətinin zəruri aspektlərini özündə birləşdirir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- maliyyə potensialının iqtisadi inkişafda rolu müəyyənedilmişdir;
- maliyyə potensialından istifadənin səmərəlilik aspektləri müəyyən olunmuşdur;

№ 2/2021 səh.62 - 66

- maliyyə potensialının idarəeedilməsində effektivlik meyarlarımüəyyənləşdirilmişdir;
- idarəetmə fəaliyyəti ilə bağlı təkmilləşdirmə istiqamətlərimüəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti maliyyə potensialından səmərəli istifadə potensialının aşkara çıxarılması, o cümlədən effektiv idarəetmə mexanizminin tətbiqiimkanlarının müəyyən edilməsi iləxarakterizəolunur.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**İqtisadi inkişafda maliyyə potensialından istifadənin səmərəliliyinin təmin olunması tədqiqat işininiqtisadi əsasını təşkil edir. Bu baxımdan maliyyə potensialının effektiv idarəetməmexanizminin təmin olunması, bu sahədə innovativtexnologiyalardan istifadə iqtisadi səmərə baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**

1. Abasquluyev R. Maliyyə və kredit. Bakı, Qanun Nəşriyyatı, 2011. 256 s.
2. Ишина И.В. Финансынекоммерческихорганизаций: учебник и практикумдлябакалавриата и магистратуры; подред. И. В.Ишиной. М.:ИздательствоЮрайт, 2017. 272 с.
3. Маркина Е.В. Финансы: учебник..Москва:КноРус, 2017. 424 с.
4. Солянникова С.П. Управлениегосударственнымифинансами: заявленныепринципы и реальность// Экономист. 2014. № 4. С. 44-59.
5. Шимширт Н.Д. Управлениегосударственными и муниципальнымифинансами: учебник. М.:Альфа-М: НИЦ ИНФРА-М, 2014. - 352 с

**Financial potential and efficiency of its management**

**Ismayilova T. V.**

**Summary**: The expansion of digitalization in the context of integration into the world economy highlights the importance of financing the economic sphere and more effective management of financial potential, including the structure of production and management technologies. The strategy of effective financial management shows the need to form the tools of financial management in accordance with modern requirements. This emphasizes the need to take into account the financial capabilities of all economic entities in the approach to the formation, use and more efficient management of financial potential.

**Keywords**: financial potential, management, modernization, technological chain, risk, efficiency.

**Финансовый потенциал и эффективность управления**

**Исмаилова Т. В.**

**Резюме**: Расширение цифровизации в контексте интеграции в мировую экономику подчеркивает важность финансирования экономической сферы и более эффективного управления финансовым потенциалом, включая структуру производства и технологии управления. Стратегия эффективного финансового менеджмента показывает необходимость формирования инструментов финансового менеджмента в соответствии с современными требованиями. Это подчеркивает необходимость учета финансовых возможностей всех хозяйствующих субъектов при подходе к формированию, использованию и более эффективному управлению финансовым потенциалом.

**Ключевые слова**: финансовый потенциал, управление, модернизация, технологическая цепочка, риск, эффективность.

Redaksiyaya daxilolma: 28.09.2021
Çapa qəbul olunma: 11.12.2021

№ 2/2021 səh.67 - 71

UOT 336.74

# Kredit resurslarının cəlbediciliyinin təmin olunmasının zəruriliyi

**İdrisli Pərvin Hüseyn oğlu**
Azərbaycan Dövlət Aqrar Universitet,
Gəncə şəhəri, Adil İskəndərov küç. 64
e-mail: parvin.idrisli@gmail.com

**Xülasə:***Bank sisteminin inkişaf tendensiyası kreditləşmə texnologiyalarının səmərəliliyindən bilavasitə asılıdır.Bu baxımdan bankların fəaliyyətində müştəriləri maraqlandıran əsas cəhət kredit resurslarının cəlbediciliyidir. Ekspert qiymətləndirməsindən reytinqə keçid, səlahiyyətlərin genişləndirilməsi, müraciətlərə baxılma müddətinin azaldılması kredit cəlbediciliyinin başlıca cəhətləridir. Kredit mənbələri iqtisadi subyektlərin əldə edə biləcəyi əsas maliyyə ehtiyatları hesab edilir. İqtisadi subyektlər tərəfindən kredit əldə etmək üçün bank seçmək meyarları da cəlbediciliklə - kredit şərtləri, bankın etibarlılığı, bankın kredit bazarındakı təcrübəsi, kredit fəaliyyətində səmərəlilik və s.-lə əlaqəlidir.*

***Açar sözlər:****kredit, maliyyə, bazar, gəlir, xərc, risk, rəqabət.*

Kredit münasibətləri iqtisadiyyatın bütün sahələrini əhatə edən sosial, iqtisadi və siyasi iqtiqamətlərdə özünü göstərir. Sosial aspektdə əhalinin məşğulluğu və maddi rifahının təmin olunması, mənəvi və mədəni inkişafın təşviq edilməsi, istehlak malları və xidmətləri bazarının genişləndirilməsi yolu ilə maddi ehtiyacların ödənilməsi nəzərdə tutulur. İqtisadi cəhətdən rəqabətli bazar iqtisadiyyatının inkişafına dəstək verilir, ümumi məhsulun artımı təşviq edilir və geniş təkrar istehsal həyata keçirilir, büdcəsinin və büdcədənkənar fondların gəlirlərinin artırılması təmin edilir. Siyasi aspektdə cəmiyyətin sosial və siyasi sabitliyinin əsas təminatçısı olan orta təbəqənin formalaşması təmin olunur.

Kredit mexanizmi vasitəsilə göstərilən məsələlərin həllinə dəstək tədbirləri əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir: kreditlər üzrə faiz dərəcəsində dotasiya, mikro kreditləşdirmə, kreditlərin əlçatanlığının təmin edilməsi. Qeyd etmək lazımdır ki, kreditlər bir qayda olaraq, müxtəlif müddətə verilir. Ona görə maliyyə mənbələrinə çıxış şərtləri və imkanları bir çox amillərdən asılı olur.

Araşdırmalar göstərir ki, bir çox hallarda iqtisadi subyektlərin bank krediti yolu ilə maliyyələşdirilməsində müəyyən çətinliklər yaranır. Bu, maliyyələşdirmə mənbələrinə sərbəst girişi təmin edəcək maliyyə və kredit mexanizmləri sisteminin lazımı səviyyədə formalaşmaması və ya səmərəli fəaliyyət göstərməmələri ilə bağlı olur.

**Mövzunun aktuallığı.**Maliyyə çatışmazlığı şəraitində, habelə dövriyyə kapitalına tələbin ödənilməsi üçün mövcud kredit mənbələri iqtisadi subyektlərin əldə edə biləcəyi əsas maliyyə ehtiyatları hesab edilir. İqtisadi subyektlər tərəfindən kredit əldə etmək üçün bank seçmək meyarları da mövcuddur. Bu baxımdam kredit şərtləri (faiz dərəcələri, kredit müddəti, komissiya və s.), bankın etibarlılığı, bankın kredit bazarındakı təcrübəsi, kreditin verilməsi barədə qərar qəbul edilməsində səmərəlilik, bankla etibarlı münasibət və s. xüsusi önəm kəsb edir.

Beləliklə, hər bir bankın müştərilər üçün nəzərdə tutulmuş öz strsteji xətti və kredit istehlakçılarının da kredit əldə etməklə bağlı maraqları var. Bunlar yalnız uyğun kredit məhsulları deyil, həm də qeyri-kredit məhsulları üçün xarakterikdir. Araşdırmalar göstərir ki, kredit resurslarına tələb daim artmaqdadır. Müxtəlif banklarda müəyyən xidmətlərin göstərilməsi şərtləri fərqləndiyindən bank seçimində də fərqli yanaşmalara rast gəlinir.

İqtisadi subyektlərə kreditlərin verilməsinin əsas şərtləri, borcalanın hər bir bank tərəfindən müstəqil olaraq müəyyənləşdirilmiş müəyyən bir müddətdə fəaliyyət göstərməsi, eyni zamanda kredit resurslarını vaxtında və tam həcmdə banka qaytarmaq imkanının olmasıdır. Kredit vermək üçün bütün digər şərtlər, mövcud kredit proqramlarından asılı olaraq hər bir bank tərəfindən müəyyən edilir. Bank sistemi tərəfindən bu, kreditləşmə texnologiyalarını müəyyənləşdirməyə imkan verir. Təbii ki, bankların fəaliyyətində müştəriləri maraqlandıran əsas cəhət kredit resurslarının cəlbediciliyidir. Bu baxımdan

müştərin təqdim etməsi lazım olan daha az sayda sənəd, ekspert qiymətləndirməsindən reytinqə keçid, səlahiyyətlərin genişləndirilməsi və müraciətlərə baxılma müddətinin azaldılması kredit cəlbediciliyinin başlıca cəhətləridir. Maliyyə çatışmazlığı şəraitində, habelə dövriyyə kapitalına tələbin ödənilməsi üçün mövcud kredit mənbələri iqtisadi subyektlərin əldə edə biləcəyi əsas maliyyə ehtiyatları hesab edilir[1, s.37]. İqtisadi subyektlər tərəfindən kredit əldə etmək üçün bank seçmək meyarları da mövcuddur. Bu baxımdam kredit şərtləri (faiz dərəcələri, kredit müddəti, komissiya və s.), bankın etibarlılığı, bankın kredit bazarındakı təcrübəsi, kreditin verilməsi barədə qərar qəbul edilməsində səmərəlilik, bankla etibarlı münasibət və s. xüsusi önəm kəsb edir.

Beləliklə, hər bir bankın müştərilər üçün nəzərdə tutulmuş öz strsteji xətti və kredit istehlakçılarının da kredit əldə etməklə bağlı maraqları var. Bunlar yalnız uyğun kredit məhsulları deyil, həm də qeyri-kredit məhsulları üçün xarakterikdir. Araşdırmalar göstərir ki, kredit resurslarına tələb daim artmaqdadır. Müxtəlif banklarda müəyyən xidmətlərin göstərilməsi şərtləri fərqləndiyindən bank seçimində də fərqli yanaşmalara rast gəlinir.

İqtisadi subyektlərə kreditlərin verilməsinin əsas şərtləri, borcalanın hər bir bank tərəfindən müstəqil olaraq müəyyənləşdirilmiş müəyyən bir müddətdə fəaliyyət göstərməsi, eyni zamanda kredit resurslarını vaxtında və tam həcmdə banka qaytarmaq imkanının olmasıdır. Kredit vermək üçün bütün digər şərtlər, mövcud kredit proqramlarından asılı olaraq hər bir bank tərəfindən müəyyən edilir[2, s.29]. Bank sistemi tərəfindən bu, kreditləşmə texnologiyalarını müəyyənləşdirməyə imkan verir. Təbii ki, bankların fəaliyyətində müştəriləri maraqlandıran əsas cəhət kredit resurslarının cəlbediciliyidir. Göstərilənləri nəzərə almaqla kredit resurslarının cəlbediciliyinin təmin olunması problemlərinin aktuallığını qeyd edə bilərik.

**Tədqiqatın məqsədi.** Kredit münasibətlərinin inkişafında mövcud problemləri araşdırmaqla banklarla müştərilər arasında dayanıqlı və etibarlı əlaqələrin qurulmasına, eləcə də kredit cəlbediciliyinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi tədqiqatın əsas məqsədidir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Bank kreditləşməsinin təhlili göstərir ki, bank maliyyələşdirməsi hazırda iqtisadi inkişaf problemlərini tam həll edə bilmək iqtidarında deyil. Burada əsas problem, zəmanət verə bilinməməsi, bəzi hallarda maliyyə axınlarının şəffaf olmaması ilə və bank sistemi tərəfindən müəssisələrə borc vermək texnologiyaları barədə zəif biliklərlə əlaqələndirilir. Eyni zamanda potensial borcalanların uzunmüddətli kreditləri maliyyələşdirmək üçün öz vəsaitləri yoxdur, bir sıra potensial borcalanların likvid və kreditlər üçün kifayət qədər təminatı yoxdur; müştərinin real maliyyə vəziyyətini obyektiv qiymətləndirmənin mümkünsüzlüyünə səbəb olan maliyyə hesabatları aşağı səviyyədə hazırlanır; iqtisadi subyektlərin maliyyə və iqtisadi fəaliyyətlərində qeyri-şəffaflıq hallarına rast gəlinir və s.

Məlumdur ki, məhdud maliyyə mənbələri əmək bazarında, avadanlıqda və daşınmaz əmlakda iqtisadi subyektlərin rəqabət qabiliyyətini azaldır[3, s.61]. Borcalanların haqsız hərəkətləri isə kreditlərin verilməsi mexanizminə mənfi təsir göstərir: öhdəliklərin yerinə yetirilməməsi maliyyə vəziyyətinin pisləşməsinə səbəb olur, gəlirlər azalır və s.

Tədqiqat göstərir ki, kredit bazarında hələ də qısamüddətli kreditlər üstünlük təşkil edir. Ona görə kredit vermə mexanizminin sadələşdirilməsinə yönələn fəaliyyətlər kredit bazarının inkişafı üçün katalizator ola bilər. Məlumdur ki, banklar daha çox standart məhsullarla işləməyə alışmışlar. Bu səbəbdən, yeniliklərin tətbiqi məqsədi ilə uzunmüddətli kreditlərlə bağlı müraciətlərlə qarşılaşdıqda, bunları ya prinsipcə düşünmürlər, ya da riskin qiymətləndirilməsi ilə əlaqədar yüksək xərclər çəkmək məcburiyyətində qalırlar. Banklar müxtəlif xidmət sahələrində fəaliyyət göstərən müəssisələrə də kredit verməkdə çətinlik çəkirlər.

Qeyd etmək olar ki, innovasiya prosesində bankların iştirakı çoxşaxəlidir. Bununla yanaşı, bankların öz maliyyə vəsaiti ilə investisiya fəaliyyətinə birbaşa dəstəyini, yəni kredit təşkilatlarının resurslarını yenilikçi layihələrə yönəltməyi deyil, həm də aktiv fəaliyyətdə iştirak etməyi nəzərdə tutan yenilik prosesinə yardımını vurğulamaq vacibdir. Təklif olunan yeni bank məhsullarının hazırlanması və tətbiqi

yolu ilə bankın özü tərəfindən reallaşdırılan innovativ fəaliyyətlər, kreditlərin cəlbediciliyini şərtləndirən əsas amillərindəndir.

Bank yeniliyi təkcə yeni məhsulların yaradılması və tətbiqini deyil, həm də bankın müştərilərinə bank məhsulları almaq üçün əlverişli imkanlar açan müasir informasiya-kommunikasiya texnologiyalarının istifadəsini ehtiva edir. İnnovativ həllər borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsində və risklərin idarə edilməsində yeni yanaşmaları əks etdirir. Yeniliklərin inkişafı və həyata keçirilməsinə obyektiv ehtiyac, onun bütün bank fəaliyyətlərinin iqtisadiyyatda baş verən proseslərə uyğun gəlirliliyinin qorunması üçün əsas mexanizm kimi çıxış etməsi ilə əlaqədardır. Bununla birlikdə, banklar məhsullarının böyük əksəriyyətini artan yeniliklərə, yəni inkişaf etmiş xüsusiyyətlərə malik yeniliklərə istinad etməklə, yeni dəyişikliklərə uyğunlaşdırmalıdır. Əslində, yeni bank məhsulları və texnologiyaları dünya bank sistemində formalaşan fəaliyyətlərin məntiqi nəticələridir[5, s.46]. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, banklar, kreditləşmə sahəsində qiymətləndirmə modellərinin inkişafından sonra borc verməyə sistemli bir yanaşma tətbiq etməyi daha əhəmiyyətli hesab edir. Sistemli yanaşmada aşağıdakılar üstünlük təşkil edir: kreditin qiymətləndirilməsi metodları; süni intellektdən istifadə və s.

İqtisadi subyektlər borc alarkən iki növ kredit xidməti arasında seçim etməsi məqbul hesab edilir: standart maliyyə məhsulunun alınması; qarşılıqlı münasibətlərə əsaslanan kreditin alınması. Qarşlıqlı münasibətlərə əsaslanan kreditlərdə bank, iqtisadi şərtlərin pisləşməsi halında güzəştli faiz dərəcəsi müəyyən etmək imkanına malikdir. Kreditlərin verilməsi ilə bağlı qərar vermə məsələsində bütün sahələrin xüsusiyyətlərini nəzərə almaq da vacibdir.

Beləliklə, bankların kredit məhsullarının cəlbediciliyinin təmin edilməsi vacib məqamlar aşağıdakılardır:

- borc vermə imkanlarının genişləndirilməsi;
- kompensasiya kreditləşməsindən əvvəl xərclərin ödənilməsi;
- kredit məhsullarının yenilənə bilən və kompleks məhsullara keçidi;
- müəssisələrin ödəmə dövriyyəsinin daha böyük hissəsinin kredit xidmətinə keçidi;
- borc vermək texnikasının sadələşdirilməsi.

Araşdırmalar göstərir ki, kredit bazarının fəaliyyətinə yalnız funksionallıq baxımından deyil, həm də institusional xüsusiyyətlər baxımından yanaşılmalıdır. Nəticə etibarilə bank məhsulları, qabaqcıl satış texnologiyaları və yeniliklərin tətbiqi bankların öz fəaliyyətlərinin gəlirliliyinə və riskliliyinə olan tələbləri minimum dərəcədə nəzərə alaraq qarşılamağı nəzərdə tutur. Beləliklə, banklar kredit məhsullarının müştərilərin ehtiyaclarına uyğun inkişafına daha çox diqqət yetirməlidir. Əslində, kredit münasibətləri metodologiyası olmadan bank kreditləri bazarının fəaliyyətinin praktik əsaslarını müəyyən etmək, inkişaf prioritetlərini müəyyənləşdirmək və bu bazarda maliyyə, texniki, informasiya yeniliklərini tam olaraq başa düşmək mümkün deyil[4, s.73]. Eləcə də bankların müştərilərinin cari vəziyyətini öyrənməkdə və gələcək ehtiyaclarını müəyyənləşdirməkdə maraqlı olmaları real tələblərdir.

Qeyd etmək lazımdır ki, bankların böyük əksəriyyəti müştərilərinə maliyyə vəziyyətini yaxşılaşdırmaq, uzunmüddətli fəaliyyətlərini davam və inkişaf etdirmək, optimal maliyyə tənzimləməsi təklif etmək və borcalanların investisiya layihələrinin həyata keçirilməsini qiymətləndirmək üçün zəruri dəstək göstərməyi əsas hədəflərdən biri kimi müəyyənləşdirir. Ona görə təcrübədə banklar, kredit məhsullarını bir-birləri ilə ayrılmaz şəkildə əlaqələndirmədən fəaliyyətlərini qurmaqda maraqlı olmur.

Banklar bütün hallar üçün geniş miqyaslı təkliflər təqdim edirlər və əslində iqtisadi subyektlər üçün maliyyə resurslarının cəlb edilməsinin çevik və etibarlı bir mənbəyinin olması onları inkişafında vacib şərtlərdəndir. Bu prosesdə innovasiya prosesləri davranışların yenidən qurulması və təşkili üçün əsasdır. Beləliklə, bankların rasional fəaliyyətin formalaşması kredit resurslarına əlçatanlığın təmin olunmasında önəmli rol oynayır.

## Nəticələr

Araşdırma göstərir ki, bankların kredit portfellərinin şaxələndirilməsi və kredit risklərinin azaldılması ən mühüm məsələlərdən olmaqla yeni şərtlər daxilində bank məhsullarına olan tələbin formalaşdırılması da diqqətdə saxlanılmalıdır. Çünki bank əməliyyatlarının əsas həcmi borcalanların fərdi xüsusiyyətləri

nəzərə alınmadan həyata keçirilən standart əməliyyatlardan ibarətdir. Təbii ki, özünəməxsus qeyri-standart və çox vaxt unikal olan yenilikçi layihələr müəyyən tələblərə cavab verə bilmir.
Bankların müştərilərin ehtiyaclarını və imkanlarını müəyyənləşdirməsi müştəri yönümlü aşağıdakı fəaliyyətləri reallaşdırmağı tələb edir:
- kreditləşmə prosesində bazarların seqmentlərini sistemli şəkildə təhlil etmək və izləmək;
- iqtisadiyyatın ayrı-ayrı sahələrinin xüsusiyyətlərini və müştərilərin fəaliyyət xüsusiyyətlərini ətraflı öyrənmək;
- daha uyğun bank məhsulları, o cümlədən qısamüddətli kreditlərin yerinə uzunmüddətli kreditlər və əsas kapitala investisiyaların maliyyələşdirilməsi üçün müştəriləri cəlb edən kreditlər təklif etmək;
- investisiya kreditləri təklif etmək üçün müştərilərin resursları cəlb etmək ehtiyaclarını əvvəlcədən müəyyənləşdirmək;
- müştərilərilərlə qarşılıqlı münasibətlərin effektiv şəkildə qurulması və s.
Göstərilənlərdən məlum olur ki, kredit mexanizminin təfsirində onun cəlbediciliyinə vurğunun aratırılması vacibdir, çünki təbiətinə görə kreditin təyinatı və istifadəsi imkanlarının yaxşılaşdırılması onun səmərəliliyinin əsas şərtlərindəndir. Borcalanın kredit qabiliyyətinin təhlilinin səthi, formal xarakter aldığı şəraitdə cəlbedicilik və əlçatanlıq kimi mühüm məsələlər kölgədə qalır. Bu baxımdan bankların müştərilərlə qarşılıqlı əlaqələri kredit məhsullarına uyğun olan sabit, dayanıqlı və etibarlı münasibətlərin qurulmasına əsaslanmalıdır.
**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:
- kredit münasibətlərinin inkişafına təsir edən amillərmüəyyən edilmişdir;
- kredit resurslardan istifadənin səmərəlilik neyarlarımüəyyən olunmuşdur;
- kredit cəlbediciliyinin əsas istiqamətləri müəyyənləşdirilmişdir;
- bankların müştəri yönümlü fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.
**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti kredit mexanizmindən səmərəli istifadə etməkləkredit münasibətlərinin inkişafı, o cümlədən bank və istehlakçılar arasında daha səmərəli əlaqələrin qurulması imkanları ilə müəyyən olunur.
**Tədqiqat işinin iqtisadi səmərəsi.**İqtisadi subyektlərin kredit resurslarına tələbatının ödənilməsi və kredit münasibətlərində iqtisadi səmərəliliyin təmin olunması tədqiqat işinin əsasını təşkil edir. Bu baxımdan kredit mexanizminin inkişafı, bu sahədə innovativ texnologiyalardan istifadə ümumi iqtisadi inkişafa ciddi təsir edə bilər.

Ədəbiyyat

1. Abasquluyev R. Maliyyə və kredit. Bakı, Qanun Nəşriyyatı, 2011. 256 s.
2. Məmməd Z.F. “Pul, Kredit, Banklar” Bakı, Azərnəşr, 2010, 320 s.
3. Белоглазов Г., Кроливецки Л. Финансовые рынки и финансово - кредитные институты: учебное пособие / под ред... - СПб : Питер, 2013. - 384с.
4. Лаврушин О. Эволюция теории кредита и его использование в современной экономике: монография — Москва : КноРус, 2016. 394 с.
5. Соколинская Н. Актуальные направления развития банковского дела: монография / Москва: Русайнс, 2016. 274 с.

## Ensuring the attractiveness of credit resources necessity

**Idrisli P. H.**

**Summary:**The development trend of the banking system directly depends on the efficiency of lending technologies. From this point of view, the main aspect on the banks' activity that interests customers is the attractiveness of credit resources. The transition from expert assessment to rating, the expansion of authority, the reduction of the processing time of applications are the main aspects of credit attractiveness. Credit sources are the main financial resources available to economic entities. The criteria for choosing a bank to obtain a loan by economic entities are also related to attractiveness -

№ 2/2021 səh.67 - 71

credit conditions, bank reliability, the bank's experience in the credit market, efficiency of credit activity, and etc.

**Keywords:** credit, finance, market, income, cost, risk, competition.

**Необходимость обеспечения привлекательности кредитных ресурсов**

**Идрисли П.Г.**

**Резюме:**Тенденция развития банковской системы напрямую зависит от эффективности кредитных технологий.С этой точки зрения главным аспектом, интересующим клиентов в деятельности банков,является привлекательность кредитных ресурсов. Переход от экспертной оценки к рейтинговой, расширение полномочий и сокращение сроков обработки заявок - основные аспекты кредитной привлекательности.Основными финансовыми ресурсами, доступными хозяйствующим субъектам,считаютсяисточники кредита.Критерии выбора банка для получения кредита хозяйствующими субъектами также связаны с привлекательностью - условиями кредитования, надежностью банка, опытом банка на кредитном рынке, эффективностью кредитования и т. д.

**Ключевые слова:**кредит, финансы, рынок, доход, расход, риск, конкуренция

Redaksiyaya daxilolma: 21.05.2021
Çapa qəbul olunma: 11.12.2021

**№ 2/2021** **səh.72 - 77**

**UOT 658.151**

# MÜƏSSİSƏDƏ MALİYYƏ RİSKLƏRİNİN İDARƏ OLUNMASINA MÜASİR YANAŞMALARIN ƏSAS ÖZƏLLİKLƏRİ VƏ ÜSTÜNLÜKLƏRİ

**Səfərli Arzu Cəmil qızı**
**Xəzər Universiteti**
**Bəşir səfəroğlu küç,22**
**arzu.safarli@khazar.org**

***Xülasə:*** *Məqalədə müəssisədə maliyyə vəziyyətinə təsir göstərə bilən mümkün risklərin idarə olunması sahəsində dünya təcrübəsində yaranmış müasir meyillər və yeni yanaşmalar təhlil olunur, ümumiləşdirmələr aparılır, ənənəvi yanaşmalarla müqayisədə müasir yanaşmaların əsas özəllikləri və üstünlükləri müəyyənləşdirilir. Həmçinin, alınan nəticələr əsasında Azərbaycan Respublikasında müəssisələrdə maliyyə risklərinin idarə olunması sahəsində müasir yanaşmaların tətbiqi ilə əlaqədar əsaslandırılmış tövsiyələr irəli sürülür.*

***Açar sözlər:*** *müəssisə, maliyyə riskləri, idarəetmə, ənənəvi yanaşmalar, müasir yanaşmalar, üstünlüklər.*

Müvafiq istiqamət üzrə elmi ədbiyyatın və təcübələrin təhlili göstərir ki, müəssisələr fəaliyyət sahələrindən, ölçülərindən, imkanlarından və bu kimi digər xüsusiyyətlərindən çıxış edərək maliyyə risklərinin idarə olunmasında fərqli yanaşmalardan istifadə edirlər. Bu zaman risklərin təhlili və qiymətləndirilməsi, təhdidlərin qarşısının alınması və onların nəzarətdə saxlanması üçün fərqli üsullar seçilir və tətbiq edilir. Buna baxmayaraq, bütün müəssisələr üçün ümumi məqsəd vardır-müəssisədə hər hansı bir səbəbdən yarana biləcək mümkün zərərləri və itirilmiş gəlirləri minimuma endirə biləcək risklərin idarəetmə sistemi qurmaq.

Buradan belə nəticə çıxarmaq olar ki, müəssisədə maliyyə risklərinin idarə olunması ilə əlaqədar düzgün yanaşmalar, metodologiyalar və üsullar seçilib tətbiq olunması onun fəaliyyətinin səmərəliliyinin artırılmasında faydalı ola bilər.

Qeyd olunanlar mövzunun aktuallığını göstərməklə yanaşı, tədqiqatın məqsəd və vəzifələrini də müəyyənləşdirmək üçün əsas olmuşdur.

***Tədqiqatın məqsədi*** müəssisədə maliyyə vəziyyətinə təsir göstərə bilən mümkün risklərin idarə olunması sahəsində dünya təcrübəsində yaranmış müasir meyilləri və yeni yanaşmaları təhlil edib ümumiləşdirmələr aparmaqdan və bu əsasda ənənəvi yanaşmalarla müqayisədə müasir yanaşmaların əsas özəllikləri və üstünlüklərini müəyyənləşdirməkdən və onların Azərbaycan Respublikasında tətbiqi üzrə əsaslandırılmış tövsiyələr hazırlamaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqatın qarşısında aşağıdakı ***vəzifələr*** qoyulmuşdur:

- Müəssisədə maliyyə vəziyyətinə təsir göstərə bilən mümkün risklərin idarə olunması sahəsində dünya təcrübəsində yaranmış müasir meyilləri və yeni yanaşmaları təhlil edib ümumiləşdirmələr aparılması;
- Müəssisədə maliyyə risklərinin idarə olunması sahəsində ənənəvi yanaşmalarla müqayisədə müasir yanaşmaların əsas özəllikləri və üstünlüklərinin müəyyənləşdirilməsi;
- Azərbaycan Respublikasında müəssisələrdə maliyyə risklərinin idarə olunması sahəsində müasir yanaşmaların tətbiqi ilə əlaqədar tövsiyələr hazırlanması.

***Metodologiya.*** Araşdırmalar göstərir ki, müəssisədə maliyyə risklərinin idarə olunması özlüyündə müxtəlif amillərin qarşılıqlı əlaqələri və təsirləri ilə xarakterizə olunan mürəkkəb bir sistemdir. Ona görə də belə bir sistemin formalaşması ilə əlaqədar olan tədqiqatın da sistemli təhlil yanaşması əsasında aparılması məqsədəuyğun sayılmışdır. Tədqiqata müvafiq istiqamət üzrə nəzəri-metodoloji əsasların nəzərdən keçirilməsindən başlanılmış, elmi mənbələrdəki məlumatların sistemləşdirilməsi, elmi abstraksiya, analiz-sintez və ümumiləşdirmə əsasında müəssisədə maliyyə vəziyyətinə təsir göstərə bilən mümkün risklərin idarə olunması sahəsində dünya təcrübəsində yaranmış müasir meyillər və yeni yanaşmalar müəyyənləşdirilmiş, müqayisəli təhlil əsasında bu sahədə ənənəvi yanaşmalarla müqayisədə

**№ 2/2021** **səh.72 - 77**

müasir yanaşmaların əsas özəllikləri və üstünlükləri əsaslandırılmış və alınan nəticələr əsasında Azərbaycan Respublikasında müəssisələrdə maliyyə risklərinin idarə olunması sahəsində müasir yanaşmaların tətbiqi ilə əlaqədar tövsiyələr hazırlanmışdır.

***Tədqiqatın nəzəri-metodoloji əsasını*** müəssisədə maliyyə risklərinin idarə olunmasına dair nəzəri baxışlar, metodoloji yanaşmalar, tədqiq olunan mövzu üzrə mövcud elmi-təcrübi əsərlər, o cümlədən mütərəqqi beynəlxalq təcrübələri əks etdirən materiallar təşkil edir.

***Tədqiqat üsulları.*** Tədqiqat sistemli təhlil yanaşması əsasında elmi abstraksiya, analiz-sintez, ümumiləşdirmə, təsnifləşdirmə və müqayisəli təhlil kimi tədqiqat üsullarının köməyi ilə yerinə yetirilmişdir.

***Tədqiqatın informasiya bazasını*** mövzu ilə əlaqədar elektron elmi informasiya bazaları və rəsmi internet saytlarının resursları, elmi və analitik tədqiqatların nəticələri, o cümlədən, əlaqədar dövlət qurumlarının, qeyri-hökumət və beynəlxalq təşkilatların hesabatları və müəllifin müəssisələrdə apardığı müşahidələr zamanı topladığı məlumatlar təşkil edir.

***Tədqiqatın məhdudiyyətləri.*** Ölkə üzrə müəssisələrdə maliyyə risklərinin idarə olunması ilə əlaqədar təfsilatlı məlumat bazasının olmaması tədqiqatın dərinləşdirilməsini və nəticələrinin konkretləşdirilməsini məhdudlaşdırır. Həmçinin müəssisələrdə maliyyə risklərinin idarə olunmasına müasir yanaşmaların tətbiqi ilə əlaqədar metodoloji və metodiki əsasların hazırlanması üçün daha geniş tədqiqatlar aparılmasına ehtiyac vardır.

***Tədqiqatın praktiki əhəmiyyəti.*** Tədqiqatın əsas müddəaları, alınmış nəticələr və irəli sürülən tövsiyələr müəssisələrdə maliyyə risklərinin idarə olunmasına müasir yanaşmaların tətbiqi prosesində, əlaqədar elmi-tədqiqat işlərində, həmçinin ali məktəblərdə müvafiq ixtisas kurslarının tədrisində istifadə oluna bilər.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi.*** Tədqiqat çərçivəsində müəssisədə maliyyə vəziyyətinə təsir göstərə bilən mümkün risklərin idarə olunması sahəsində dünya təcrübəsində yaranmış müasir meyillər və yeni yanaşmalar müəyyənləşdirilmiş, ənənəvi yanaşmalarla müqayisədə müasir yanaşmaların əsas özəllikləri və üstünlükləri əsalandırılmış və alınan nəticələr əsasında Azərbaycan Respublikasında müəssisələrdə maliyyə risklərinin idarə olunması sahəsində müasir yanaşmaların tətbiqi ilə əlaqədar tövsiyələr hazırlanmışdır.

## Əsas hissə

Müvafiq nəzəri-metodoloji əsasların və beynəlxalq təcrübələrin təhlili göstərir ki, hər hansı bir müəssisədə risklərin, o cümlədən maliyyə risklərinin idarə olunması sistemi formalaşdırılarkən, ilk növbədə, hazırda ümumi qəbul edilmiş yanaşmalar nəzərdən keçirilir. Aşağıdakı kimi yanaşmalar fərqləndirilir [1-4]:

1) Aktiv idarəetmə yanaşması - mövcud təhdidlərin maksimum nəzarətə götürülməsi. Belə yanaşma idarəetmə sisteminin saxlanmasına əlavə sərmayə qoymağı nəzərdə tutur.
2) Adaptiv (uyğunlaşma) yanaşması - iqtisadi fəaliyyətin xarici şərtlərə uyğunlaşdırılması. Belə yanaşma qeyri -müəyyənliklərin hamısını olmasa da müəyyən bir hissəsini idarə etməyə imkan verir.
3) Konservativ (mühafizəkar) yanaşma - risklərin lokallaşdırılması, onların müəssisənin fəaliyyətinə təsirinin neytrallaşdırılması. Bu halda risklərin idarə edilməsi xərcləri az olsa da, mümkün zərərlər böyük ola bilər.
4) Kompleks və ya inteqrə olunmuş yanaşma - bir neçə yanaşmanın birləşməsi. Belə yanaşma risklərin idarə olunmasında yüksək çeviklik təmin edir, lakin onun yaradılması əlavə sərmayə tələb edir.

Ümumiyyətlə, dünya təcrübəsində bu yanaşmaların hamısı tətbiq olunur və müəyyən müsbət nəticələr verdikləri də müşahidə olunur. Amma araşdırmalar göstərir ki, tətbiq olunma xərclərinin yüksək olmasına baxmayaraq, kompleks yanaşma daha universaldır və daha effektivdir. Kompleks yanaşma, adətən, böyük şirkətlər, xüsusən də sənaye şirkətləri tərəfindən istifadə olunur.

№ 2/2021 səh.72 - 77

Araşdırmalar göstərir ki, müasir dövrdə aşağı səmərəlilik səbəbindən müəssisələrdə risklərin idarə ediməsində ənənəvi yanaşmaların istifadəsi getdikcə azalır və öz yerini müəssisənin fəaliyyətinin hər bir istiqaməti üzrə bütün iyerarxik səviyyələrdə qeyri-müəyyənliklərin idarə olunmasını ehtiva edən müasir yanaşmalara verir. Müasir yanaşmalarda risklərin idarə olunması prosesinə, demək olar ki, müəssisənin bütün şöbələrdən olan əməkdaşlar cəlb olunur. Bu özünü xüsusilə inkişaf edən müasir biznes sektorlarında daha qabarıq göstərir.

Ənənəvi yanaşmalarla müasir yanaşmaların müqayisəli təhlili müasir yanaşmaların bir sıra üstünlükləri olduğunu göstərir.

İlk olaraq onu qeyd etmək lazımdır ki, ənənəvi yanaşmalar daha çox konkret riskləri yaradan hadisələr baş verərsə necə davranmaq lazım olduğu haqqında taktiki qərarlar vermək üçün əsas verdiyi halda, müasir yanaşmalar belə riskləri yaradan hadisələrin baş verməsinin qarşısının alınmasına və müəssisənin qarşılaşdığı ziyanlı halların aradan qaldırılması xərclərinin azaldılmasına yönəlmiş strateji qərarlar vermək üçün əsaslar yaratmağa yönəlir. Bunların arasında risk idarəetmə sisteminin təkmilləşdirilməsi, gələcəkdə oxşar təhdidlərin qarşısının alınması, mənfi nəticələrin aradan qaldırılması üçün xərclərin optimallaşdırılması kimi strateji məsələlər var. Aydındır ki, belə yanaşma qeyri-müəyyənliklərin təhlili, ölçülməsi və idarə edilməsi üçün də fərqli üsullar tələb edir.

Araşdırmalar [1; 4; 5] göstərir ki, ənənəvi yanaşmaların aşağıdakı kimi də çatışmazlıqları vardır:

- Təhdidlərin reallığa uyğun olmayan təsnifatı. Belə ki, böyük ehtimallı kiçik risklər yüksək qiymətləndirildiyi halda, az ehtimallı böyük risklər diqqətdən kənarda qalır və lazımi dərəcədə qiymətləndirilmir.
- İdarəetmədə sistemliliyin təmin olunmaması. Belə ki, aşağı riskli sahələr yüksək dərəcədə nəzarətə götürüldüyü halda, yüksək riskli sahələrə nəzarət yetərli səviyyədə olmur.
- Ilk mərhələdə bütün mümkün təhdidlər müəyyən edilir. Bu risklərin çoxu bir-birinin üstünə düşür və onların sayı mini keçə bilər. Praktikada belə böyük bir matrisi səmərəli idarə etmək mümkün olmur.
- Zərər mümkün bir varianta uyğun hesablanır. Lakin praktikada zərərlərin miqdarına bir çox amillər təsir etdiyindən hər bir variant üçün müvafiq ehtimalı hesablamaq lazımdır.

Müasir yanaşmalar yuxarıda göstərilən çatışmazlıqları aradan qaldırmaq üçün müəssisənin riskləri haqqında məlumatların idarəetmə qərarlarının qəbul edilməsi proseduruna daxil edilməsini nəzərdə tutur. Eyni zamanda, onların səviyyəsi müxtəlif maraqlı tərəflər üçün zərərlərin məqbul səviyyəsi ilə uyğunlaşdırılır. Belə risk idarəetmə sistemi etibarlı məlumatlara, modelləşdirməyə və dərin təhlilə əsaslanır. Bu zaman risklərin ölçülməsi ilə onların idarə edilməsi arasında güclü bir qarşılıqlı əlaqə qurulur. Bu halda prosesin düzgün təşkili aşağıdakı kimi nəticələr əldə etməyə imkan verir:

- Müəssisənin fəaliyyətinin səmərəliliyinin daha da yüksəldilməsi;
- Biznes qərarlarının qəbulu üçün əlavə məlumat dəstəyi təmin edilməsi;
- İnvestisiya nəticələrini sabitləşdirməklə investorların güvən dərəcəsinin daha da artırılması və s.

Risklərin ölçülməsində birinci addım keçmiş dövrlərə aid məlumatların toplanması, təhlili və qiymətləndirilməsidir. Bu müəyyən bir dövr ərzində müəyyən bir sahə üçün xarakterik olan zərərlərin ehtimalları ilə miqyasları arasındakı əlaqələri müəyyənləşdirməyə, gözlənilən və təsadüfi zərərləri ölçməyə imkan verir. Bunun üçün aşağıdakıları etmək lazımdır:

- Hər bir risk yaradan hadisə və halı təhlil etmək;
- Bu hadisə və halları təsnifləşdirmək və risk matrisi tərtib etmək;
- Zərərlərin ehtimallarına və miqyaslarına görə paylanmalarının qrafikini tərtib etmək (Şəkil 1);




Şəkil 1. Zərərlərin ehtimal və miqyaslarına görə paylanması qrafiki (nümunə)

- risk altında olan dəyəri (Value at risk -VaR) hesablamaq;
- ümumi zərərin paylanması qrafikini qurmaq .

Mövcud nəzəri müddəalar əsaslandırır və mütərəqqi təcrübələr [2; 5] də əməli olaraq göstərir ki, strukturlaşdırılmış idarəetmə üçün təhdidləri üst-üstə düşməyən siniflərə bölmək vacibdir. Başqa sözlə oxşar riskləri ayrı-ayrılıqda nəzərdən keçirmək əvəzinə müəyyən siniflərdə birləşdirmək, onları daha səmərəli idarəetmə sistemi qurmağa imkan verir.

Beləliklə, bu qənaətə gəlmək olar ki, müasir yanaşmada risk və nəzarət haqqında məlumatlar ümumi sistemə daxil edilir və bu çərçivədə görülməli olan işlər müəyyən ardıcıllıqla nizamlı şəkildə həyata keçirilən bir prosesə çevrilir ki, bu da daha əsaslandırılmış idarəetmə qərarları qəbul etməyə imkan yaradır. Bu yanaşma müəssisənin bütün maddi, təşkilati, intellektual, insan və digər resurslarının birləşməsini və yaxşı əlaqələndirilmiş şəkildə işləməsini tələb edir. Kifayət qədər maliyyə alətləri olan yaxşı qurulmuş bir sistem, bütün qeyri-müəyyənlikləri kompleks halında idarəetməklə onları əvvəlcədən təxmin etməyə, aşkarlamağa və ölçməyə imkan verir. Başqa sözlə, ənənəvi yanaşmalarda geniş istifadə olunan diversifikasiya, sığortalama və digər bu kimi profilaktik tədbirlər müəssisədə risklərin idarə olunması üçün taktiki baxımdan əhəmiyyətli olsalar da, strateji baxımdan kifayət deyillər. Belə ki, qeyri-sabit maliyyə mühitində və yüksək rəqabət şəraitində hər bir təhlükənin digərləri ilə qarşılıqlı əlaqədə nəzərə alındığı inteqrasiya olunmuş sistemlər üstünlüyə malik olur.

Tədqiqatın əsas nəticələrini, o cümlədən müəssisədə maliyyə risklərinin idarə olunmasına müasir yanaşmaların ənənəvi yanaşmalarla müqayisədə aşkar üstünlüklərə malik olmasını nəzərə alaraq, Azərbaycan Respublikasında da müəssisələrdə maliyyə risklərinin idarə olunması sahəsində müasir yanaşmaların geniş tətbiqini məqsədəuyğun hesab edirik. Bu istiqamətdə hazırlanmış əsaslandırılmış tövsiyələr "Nəticə və tövsiyələr" bölməsində verilmişdir.

## Nəticə və tövsiyələr

Tədqiqatdan irəli gələn əsas nəticələr kimi aşağıdakıları qeyd etmək olar:

1) Hazırki dövrdə aşağı səmərəlilik səbəbindən müəssisələrdə risklərin idarə edilməsində ənənəvi yanaşmaların istifadəsi getdikcə azalır və öz yerini müəssisənin fəaliyyətinin hər bir istiqaməti üzrə bütün iyerarxik səviyyələrdə qeyri-müəyyənliklərin idarə olunmasını ehtiva edən müasir yanaşmalara verir.

2) Müasir yanaşmaların üstünlüklərinə aşağıdakıları aid etmək olar:

- Maliyyə riskləri yaradan hadisələrin baş verməsinin qarşısının alınmasına və müəssisənin qarşılaşdığı ziyanlı halların aradan qaldırılması xərclərinin azaldılmasına yönəlmiş strateji qərarlar vermək üçün əsaslar yaratmağa yönəlir;
- Risklər və onlara nəzarət haqqında məlumatlar ümumi idarəetmə sisteminə daxil edilir və bu çərçivədə görülməli olan işlər müəyyən ardıcıllıqla nizamlı şəkildə həyata keçirilən bir prosesə çevrilir;

- Müxtəlif maraqlı tərəflər üçün zərərlərin məqbul səviyyəsini nəzərə alır;
- Risklərin ölçülməsi ilə onların idarə edilməsi arasında güclü bir qarşılıqlı əlaqə qurulur və s.

3) Müasir yanaşmalar müəssisələrin bütün maddi, təşkilati, intellektual, insan və digər resurslarının birləşməsini və yaxşı əlaqələndirilmiş şəkildə işləməsini tələb edir.

4) Azərbaycan Respublikasında da müəssisələrdə maliyyə risklərinin idarə olunması sahəsində müasir yanaşmaların geniş tətbiqi məqsədəuyğun hesab edilir. Bu prosesin rəvan getməsi üçün aşağıdakı kimi məsələlərə diqqət yetirilməsi tövsiyə olunur:

- Müasir yanaşmanın özəllikləri və üstünlükləri göstərir ki, hər hansı bir müəssisədə belə yanaşmanı tətbiq etmək üçün aşağıdakı şərtlərin olması zəruridir:
  - ✓ risklərin idarə edilməsi sistemi yuxarı rəhbərlik tərəfindən əlaqələndirilir və müəssisənin hər bir struktur bölməsinin əməkdaşları bu işə cəlb olunur;
  - ✓ risklərin idarə edilməsi fasiləsiz prosesə çevrilir, onlar mütəmadi olaraq ölçülür və təhlil edilir, qabaqlayıcı tədbirlər planı dəyişən vəziyyətlər və yeni biliklər nəzərə alınmaqla daim təkmilləşdirilir;
  - ✓ bütün qeyri-müəyyənliklər və onların optimallaşdırılması yolları nəzərdən keçirilir.
- Mütərəqqi təcrübələr göstərir ki, belə bir sistemi tətbiq etmək üçün aşağıdakı istiqamətlərdə məqsədyönlü işlər aparmaq lazımdır:
  - ✓ Risklərin idarə olunması və daxili nəzarət üzrə çevik və səmərəli sistem yaradılması;
  - ✓ Risklərin idarə olunması və daxili nəzarət sisteminin təşkili üzrə beynəlxalq səviyyədə tanınan metodoloji yanaşmaların yaradıcı mənimsənilməsi;
  - ✓ Risklərin idarə olunması və daxili nəzarət sisteminin milli qanunvericiliyin tələbləri, mütərəqqi beynəlxalq təcrübələr və əlaqədar yerli və beynəlxalq təşkilatların tövsiyələri əsasında standartlaşdırılması;
  - ✓ Müəssisənin fəaliyyətində risklərin idarə olunması və daxili nəzarət sistemlərinin inteqrə olunmuş modelinin tətbiqi;
  - ✓ Risklərin idarə olunması, daxili nəzarət və audit məsələri ilə əlaqədar istiqamətlər üzrə ixtisaslaşmış müxtəlif peşə birlikləri və akademik dairələr ilə qarşılıqlı informasiya əlaqələrinin qurulması.

### İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abbasov S.A. Rəqəmsal iqtisadiyyat şəraitində maliyyə risklərinin idarə edilməsi məsələləri. Audit 3 (2020), Cild 29, səh. 27-37.
2. Домащенко Д.В., Финогенова Ю.Ю. Современные подходы к корпоративному риск-менеджменту. Методы и инструменты. Магистр, Инфра-М, 2016, с. 304.
3. Kazımlı X., Quliyev İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Baki: “İqtisad Universiteti” – 2011, 187 s.
4. Самад-Хан А., Спивак Г. Современный подход к управлению операционными рисками. Банковское обозрение, 2008, спецномер.
5. Stefan Hunziker. Enterprise Risk Management: Modern Approaches to Balancing Risk and Reward 1st ed. Springer Gabler, 2019, 243 p.

**УДК 658.151**

## КЛЮЧЕВЫЕ ОСОБЕННОСТИ И ПРЕИМУЩЕСТВА СОВРЕМЕННЫХ ПОДХОДОВ К УПРАВЛЕНИЮ ФИНАНСОВЫМИ РИСКАМИ НА ПРЕДПРИЯТИИ

***Сафарли А. Дж.***

**Резюме.** В статье проанализированы современные тенденции и новые подходы в области управления рисками, которые могут повлиять на финансовое состояние предприятия, обобщены,

определены основные особенности и преимущества современных подходов по сравнению с традиционными подходами. Также на основании полученных результатов даны обоснованные рекомендации в связи с применением современных подходов в области управления финансовыми рисками на предприятиях Азербайджанской Республики.

**Ключевые слова:** предприятие, финансовые риски, управление, традиционные подходы, современные подходы, преимущества.

**UDC 658.151**

**KEY FEATURES AND ADVANTAGES OF MODERN APPROACHES TO FINANCIAL RISK MANAGEMENT IN THE ENTERPRISE**

**Safarli A. J.**

**Summary:** The article analyzes modern trends and new approaches in the field of risk management that may affect the financial condition of the enterprise, summarizes, identifies the main features and advantages of modern approaches compared to traditional approaches. Also, on the basis of the obtained results, substantiated recommendations are made in connection with the application of modern approaches in the field of financial risk management in enterprises in the Republic of Azerbaijan.

**Keywords:** enterprise, financial risks, management, traditional approaches, modern approaches, advantages.

Redaksiyaya daxilolma: 15.09.2021
Çapa qəbul olunma: 11.12.2021